# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 241 (8557) CÜMƏ AXŞAMI, 19 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Səfir Paulin EİZEMA:
## "Parlamentin qəbul etdiyi qərar mənim hökumətimin mövqeyinə uyğun deyil"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir **Paulin EİZEMA** dedi:

- Zati-aliləri cənab Prezident. Bu gün burada olmaq və əlahəzrət Niderland Kralı Villem-Aleksandrın etimadnaməsini Sizə təqdim etmək mənim üçün, həqiqətən, şərəfdir. O, məndən ölkənizə və xalqınıza ən xoş salamlarını çatdırmağı xahiş etdi.

**Prezident İlham ƏLİYEV** dedi:

- Təşəkkür edirəm. Xoş gəlmisiniz. Belə gətirdi ki, Sizin Azərbaycana gəlişiniz, demək olar, müharibə dövrünə təsadüf etdi. Odur ki, obyektiv səbəblərə görə bizim görüşümüz təxirə salındı. Mənə məlumat verilmişdir ki, siz, demək olar, iki ay bundan əvvəl gəlmisiniz. Əminəm ki, görüşümüzün nə üçün daha əvvəl baş tutmamasını başa düşürsünüz. Lakin əfsuslar olsun, görüşümüz təyin olunanda mənə məlumat verildi ki, ölkənizin parlamenti Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan, Azərbaycanın əleyhinə və həmçinin Türkiyənin əleyhinə olan qərar qəbul etdi. Mənə köməkçim məlumat verdi ki, müzakirələr zamanı Niderlandın Xarici İşlər naziri daha da balanslaşdırılmış yanaşma ilə çıxış etdi. Odur ki, biz bunu qiymətləndiririk. Lakin parlamentin belə balanslaşdırılmamış və ədalətsiz bir qərarı qəbul etməsi faktı, əlbəttə ki, bizə daha yaxın əlaqələr qurmağa kömək etməyəcək. Əvvəla, dünən bu qərarın qəbul olunması faktını nəzərə alaraq demək istəyirəm ki, Ermənistan bizə hücum etdi. Biz özümüzü müdafiə edirdik və bunun nəticəsində biz beynəlxalq hüququn norma və prinsiplərinə əsasən və tarixə əsasən, özümüzə məxsus olan əraziləri azad edə bildik. Bizim mübarizəmiz azadlıq, ərazilərin azad edilməsi uğrunda mübarizə idi və mübarizəmiz böyük hərbi və siyasi uğurla başa çatdı.

*Ardı 2-ci səh.*



# QALİB SƏRKƏRDƏ

## Bu gün Qarabağda əsgərinə əmr verən Komandan İlham Əliyevdir!

**İlham Əliyevin və xanımının Ermənistanın rəsmi təslimindən cəmi 6 gün sonra Qarabağa - işğaldan azad edilmiş torpaqlara səfəri, şübhəsiz ki, yalnız hərbi kontekstdə dəyərləndirilə bilməz. O, Ali Baş Komandan statusunda hərbi-strateji məntəqələrə baxış keçirtdi, Prezident kimi bu bölgədə aparılacaq quruculuq-bərpa işlərinin ilk istiqamətlərini müəyyənləşdirdi.**

**Ən əsası isə LİDER olaraq öz şəxsində bütün dünyaya Azərbaycanın tam qələbəsini birbaşa Qarabağdan nümayiş etdirdi.**

### Xudafərində Zəfər bayrağı

İlham Əliyevin timsalında hər bir azərbaycanlının mübariz əhvali-ruhiyyəsi, xoş ovqatı, zəfər sevinci də bu səfər müddətinin hər bir məqamında görünürdü.

Bayrağımız bir daha enməmək əminliyi ilə Rəhbərin öz əlilə ucaldıldı!

İlham Əliyev bayraq ucaltdığı hər bir məkanda "Qarabağ Azərbaycandır!" çağırışının növbəti nidalarını qoydu!

Ali Baş Komandanın sərhədləri yenidən cızılan cəbhə xəttinin ən öndə yerləşən məntəqələrinə gəlişi Bakıdan Yerevanadək, həmsədr ölkələrin üç paytaxtından dünyanın ən nüfuzlu KİV-inə qədər geniş rezonans doğurdu. Bu, təbii idi.

Çünki Baş Sərkərdə Azərbaycanın şücaət zirvəsinə gəlmişdi. Və buradan təcavüzkara, onun havadarlarına, eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesinə dəxli olan bütün beynəlxalq dairələrə ən sərt mesajını göndərdi, həm də son hərbi üstünlüyü daha da genişləndirməyə qadir olduğunu göstərdi.

Ölkə rəhbərinin və birinci xanımın ön səngərdə olmaları həm də qələbənin təntənəsi idi!

Bu səfərin psixoloji təəssüratları da əhəmiyyətlidir. Ali Baş Komandan hərbi gərginliyin, əslində, heç azalmadığı indiki dövrdə böyük risqə baxmayaraq, düşmənin birbaşa hədəf zərbəsi altında olan məntəqələrə getdi və açıq görüşlər keçirdi.

*Ardı 5-ci səh.*

## Prezident İlham Əliyev Şefik Caferoviçin prinsipial mövqeyini yüksək qiymətləndirir

**Noyabrın 18-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Şefik Caferoviç Azərbaycanın Dağlıq Qarabağ bölgəsində sülhün bərpa edilməsi ilə bağlı bəyanatın imzalanmasını alqışlayıb. O, qeyd edib ki, əxlaq, ədalət və beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanan bu bəyanatın imzalanması bütün regiona sabitlik gətirəcək və yeni perspektivlər açacaqdır. Şefik Caferoviç Bosniya və Herseqovinanın Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyən mövqeyini və bununla əlaqədar ölkəsinin Parlament Assambleyasının müvafiq qətnamə qəbul etdiyini də dövlətimizin başçısının diqqətinə çatdırıb.

Telefon söhbəti zamanı Prezident İlham Əliyev imzalanmış bəyanatın bütün təfərrüatları və onun yerinə yetirilməsi, eləcə də bölgədə hazırkı vəziyyət barədə Şefik Caferoviçə məlumat verib. Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviçin Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünə dəstək məsələsi ilə bağlı prinsipial mövqeyini yüksək qiymətləndirib.

Telefon söhbəti zamanı iki ölkə arasında yüksək səviyyədə dostluq münasibətlərinin mövcudluğu qeyd edilib, iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğu bildirilib.

Eyni zamanda tərəflər koronavirus pandemiyası ilə bağlı vəziyyət imkan verdiyi zaman ən yüksək səviyyədə qarşılıqlı rəsmi səfərlərin həyata keçirilməsi barədə razılığa gəliblər.

***Prezidentin Mətbuat Xidməti***

## Milli maraqlarımız tam gerçəkləşdi

Tarixi Qələbəsi ilə Azərbaycan Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılması planının üstündən həmişəlik xətt çəkdi



**Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq başlanan Vətən müharibəsi Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələndi.**

44 gün davam edən bu savaş tariximizin parlaq səhifəsi olmaqla, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Ötən 17 ildə tariximizin ən möhtəşəm uğurlarına nail olan İlham Əliyev bu dəfə Azərbaycanı həm də qalib dövlət etdi.

### Mübarizlik və vətən sevgisi

Vətən müharibəsi ilk gündən xalqımızın işğal altındakı torpaqlarının azadlığı uğrunda mübarizə əzminin, vətənpərvərliyinin təsdiqi oldu. Məlum olduğu kimi, hələ bu ilin iyul ayında Ermənistanın Tovuzda törətdiyi təxribatdan sonra on minlərlə vətəndaşımız könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə və şöbələrində qeydiyyata düşmüşdü.

*Ardı 8-ci səh.*

## Türkiyə-Azərbaycan birliyi bölgəyə sülh və sabitlik gətirir

Maraqlara deyil, dəyərlərə əsaslanan münasibət



**Rəşadətli Ordumuz Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm bir tarix yazdı. Apardığımız Vətən müharibəsində qələbə qazandıq.**

Azərbaycan xalqı hələ də 10 noyabr günü elan edilən bu böyük zəfərin bayram ovqatı içindədir. 2020-ci ilin 27 sentyabr günündən düşmənin hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatlarını uğurlu nəticə ilə başa çatdıran Azərbaycan Ordusu həm də yeni bir səhifə açdı. Bu səhifədən ölkəmizin və ümumilikdə regionun parlaq gələcəyi, Cənubi Qafqazda davamlı sülh və inkişafı təmin edəcək fərqli bir reallıq başlanır.

Bu günlər həm də Azərbaycan-Türkiyə arasındakı qardaşlıq münasibətlərinin yeni salnaməsidir. Türkiyə öz dəstəyini heç zaman Azərbaycandan əsirgəməyib.

Azərbaycan da Türkiyənin hər zaman yanında olub. Doğma ölkənin apardığı haqq işinə yardım etməyi, həmrəylik nümayişini həmişə özünə mənəvi borc bilib. Son tarixi proseslər isə Ulu Öndər Heydər Əliyevin Azərbaycan və Türkiyə münasibətlərini dəyərləndirərək irəli sürdüyü "Bir millət, iki dövlət" formulunu gerçək həyatda bir daha reallığa çevirdi. Biz bu qələbəmizlə qardaş Türkiyə ilə yeni tarixi nailiyyətlərə imza atacaq, daha böyük uğurlar qazanacağıq.

*Ardı 5-ci səh.*

## Pandemiya şərtlərinə əməl etməklə koronavirusa qalib gələ bilərik

Koronavirus pandemiyası Yer üzünün birnömrəli təhlükəsi olmaqda davam edir. Təəssüf ki, 2020-ci il boyu dünya ölkələrinin COVID-19-a qarşı apardığı mübarizə tədbirləri elə də effektiv olmayıb.

Tətbiq olunan sərt karantin rejimləri sayəsində müəyyən stabilləşmələr əldə olunsa da, yumşaldılmalar zamanı virus daha da aqressiv bir sürətlə yayılmağa davam edib. Mütəxəssislər isə dünyanı alt-üst edən bu "taclı" bəlanın yayılmasına əhalinin pandemiya şərtlərinə tam əməl etməməsinin səbəb olduğunu söyləyirlər. Onlar ilin soyuq fəsillərində bütün tənəffüs yolları infeksiyalarının, o cümlədən yeni növ koronavirusun artacağı ilə bağlı xəbərdarlıqlar da etmişdilər.

### Virus bütün dünyada sürətlə yayılır

Son aylar bütün dünya peyvəndlərlə bağlı sınaqların nəticələrini gözləyir. Lakin bu günlərdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesusun açıqlamaları gözləntilərin əksinə olub.

*Ardı 7-ci səh.*



## *Səfir Paulin EİZEMA:*

# “Parlamentin qəbul etdiyi qərar mənim hökumətimin mövqeyinə uyğun deyil”

*Əvvəli 1-ci səh.*



Sizin də bildiyiniz kimi, noyabrın 10-da müharibəyə son qoyan üçtərəfli bəyanat imzalanmışdır. Buna görə mənə çox qəribə gəldi ki, bundan sonra - Ermənistanın kapitulyasiyası olan bu bəyanatı onun özü imzaladıqdan sonra regionumuzdan uzaqda yerləşən bir ölkədə belə bir qərar qəbul edildi. Yəqin siz də bilirsiniz ki, regional ölkələr bu bəyanatı dəstəkləyiblər. Bütün qonşularımız bu bəyanata dəstəyini ifadə ediblər. Qonşularımızdan ikisi - Rusiya və Türkiyə azərbaycanlıların və ermənilərin təhlükəsizliyini təmin edəcək əməliyyatlarda iştirak edəcək. Odur ki, hesab edirəm, başqa tərəfdənsə bizim tərəfimizdə olmağınız daha ədalətli olardı. Yəqin ki, siz atəşkəsi dəstəkləyən ABŞ Dövlət Departamentinin, Avropa İttifaqının şərhlərini də eşitmisiniz. Buna görə də mən başa düşürəm, parlamentarilərin öz gündəliyi var. Bəzən onların öz istəkləri olur, bu, başadüşüləndir. Parlamentin qəbul etdiyi qərardan ola bilsin, fərqli olan ölkənizin hökumətinin də öz mövqeyinin olduğunu başa düşürəm. Lakin bunun nə üçün baş verməsini bizim xalqımıza izah etmək çətin olacaq. Buna görə də parlamenti belə qərar qəbul edən ilk ölkənin nə üçün Niderland olduğunu insanlar sizdən soruşduqda bu vəziyyətlə üzləşməli olacaqsınız. Praktiki baxımdan, bunun yerdəki vəziyyətə birmənalı şəkildə heç bir təsiri olmayacaq. Vəziyyət indi sabitləşir. Belə bir günü demək olar ki, otuz ildir gözləyən bizim qaçqın və məcburi köçkünlərimiz bu böyük hərbi və siyasi qələbəni qeyd edirlər. Onlar özlərinin qayıdışı üçün vaxt cədvəlini görməyi səbirsizliklə gözləyirlər. Amma bu, vaxt aparacaq, çünki təcavüzkar demək olar ki, hər şeyi dağıdıb. Bu videolar bizim televiziyada nümayiş olunur. Bu dağıntı bəlkə də bizim xalqımıza, mədəni, dini irsimizə, bəşəriyyətə qarşı qəddarlığın, vandalizmin və barbarlığın nadir formasıdır. Ermənistanın müharibə zamanı davranışı həm də onların rəhbərliyinin qeyri-insani münasibətini göstərir. Çünki münaqişə zonasından uzaqda yerləşən dinc şəhərlərə Ermənistan ərazisindən ballistik raketlərlə hücum etmək müharibə cinayətidir. Kasetli və fosforlu bombalardan istifadə etmək müharibə cinayətidir. Bütün beynəlxalq media və QHT-lər bunu təsdiq etdi. Mən təəssüf edirəm ki, söhbətimizə bununla başlamalı oldum. Bu, ancaq onunla əlaqədardır ki, bizim görüşümüz iki gün əvvələ təyin olunmuşdu və sizin parlamentin qərarı ondan sonra qəbul edilib. Bundan başqa mən nə deyə bilərəm? Bir daha deyirəm, bunu izah etmək asan olmayacaq. Bu, həmçinin sizin hökumətinizin, xarici işlər nazirinizin mövqeyindən asılı olacaq. Biz bununla bağlı onların şərhlərini gözləyirik. Çünki mənim köməkçim mənə deyib ki, müzakirə zamanı şərhlər olub, lakin biz şərhləri indi, bu qərar qəbul olunandan sonra gözləyirik. Sözsüz ki, biz Avropa Komissiyasından şərhlər gözləyəcəyik. Bildiyiniz kimi, Avropa Komissiyası və Azərbaycanın çox geniş əməkdaşlıq gündəliyi var. İki il əvvəl biz Brüsseldə Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını tam dəstəkləyən “Tərəfdaşlıq prioritetləri” sənədini parafladıq. Azərbaycan öz ərazisində döyüşürdü, öz ərazi bütövlüyünü bərpa edirdi və bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Avropa İttifaqı ilə Azərbaycan tərəfindən paraflanmış sənədə uyğundur.

Sizə yaxşı vaxt keçirməyi arzulayıram. Ümidvaram ki, tariximizdəki çox da xoşagəlməyən bu səhifə münasibətlərimizə ciddi ziyan vurmayacaq. Lakin əlbəttə ki, bu, sizin hökumətinizin və müvafiq olaraq davranacaq bizim hökumətimizin sonrakı addımlarından asılı olacaq. Bir daha xoş gəlmisiniz.

Səfir **Paulin EİZEMA** dedi:

- Çox sağ olun, cənab Prezident. Qeyd etdiyiniz kimi, mən buraya sentyabrın 20-də, münaqişə yenidən başlayandan bir həftə əvvəl gəlmişəm. Bu, çox narahat dövr, lakin həm də mənə münaqişənin mənbələrinin nədən ibarət olduğunu çox yaxşı başa düşməyə imkan verən zaman idi. Eyni zamanda mən bununla bağlı paytaxtımla çox sıx şəkildə əlaqə saxladım. Qeyd etdiyiniz kimi, mənim hökumətimin mövqeyi çox balanslaşdırılmışdır. Mən bunu yüksək qiymətləndirirəm. Bu, təhlilin, müzakirələrin və yaxşı dialoqun nəticəsində olub. Mən bir daha vurğulamaq istərdim ki, mənim hökumətimin mövqeyi Avropa İttifaqının mövqeyinə çox uyğundur və çox balanslaşdırılmışdır. Biz münaqişəni izlədik, baş verənləri gördük və münaqişənin hər iki tərəfdə nələrə səbəb olduğu bizi hər zaman çox narahat edir. Bizim sistemdə fərqlilik var. Hökumətin mövqeyi var, parlamentin mövqeyi var və bu, dialoq tələb edir. Bu dialoq bir neçə dəfə baş tutdu və biz qeyd etdik ki, hökumətin balanslaşdırılmış mövqeyinin heç də həmişə parlamentin mövqeyi ilə eyni olması demək deyil. Ötən həftə nazirlə parlament arasında keçirilmiş sonuncu müzakirədə bu məsələlər də qaldırılmışdı. Nazir həm yazılı, həm də şifahi şəkildə israrla bildirdi ki, qaldırılan bu məsələlər mənim hökumətimin mövqeyinə uyğun deyil. Beləliklə, sanksiyalar və bu kimi məsələlər qətiyyən gündəlikdə deyil. Hazırda bu, aktual deyil, bununla bağlı hər hansı sual, müzakirə ola bilməz. Mənim nazirim bunu həm parlamentdə, həm də yazılı formada çox açıq şəkildə bildirib. Şadam ki, bunu burada yenidən təkrarlaya bilirəm.

Prezident İlham Əliyev Niderland Kralı Villem-Aleksandrın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Niderland Kralına çatdırmağı xahiş etdi.

# Baş nazir Əli Əsədov ilə Rusiya hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub

**Noyabrın 18-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov ilə Rusiya Federasiyası hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub.**

AZƏRTAC xəbər verir ki, telefon danışığı əsnasında Azərbaycanla Rusiya arasında ticari-iqtisadi münasibətlər, həmçinin ikitərəfli əlaqələrin müxtəlif sahələrdə perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri TÜRKPA, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun rəhbərləri ilə görüşüb

**Noyabrın 18-də Milli Məclisin Sədri Sahibə Qafarova TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov, Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə spiker Sahibə Qafarova Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun Vətən müharibəsində əldə etdiyi Qələbə haqqında məlumat verib. Deyib ki, bu Qələbə nəticəsində torpaqlarımız işğaldan azad olundu. Bu Zəfər tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq.

Sahibə Qafarova türk dünyasını təmsil edən qurumların nümayəndələri ilə görüşdən məmnun olduğunu söyləyib. Bildirib ki, qonaqların rəhbərlik etdiyi qurumlar bu gün türk dünyası ölkələri arasında əlaqələrin möhkəmlənməsi işinə böyük töhfələr verir. TÜRKPA bu istiqamətdə parlament əməkdaşlığının genişləndirilməsində əhəmiyyətli rol oynayır. Hazırda bu təşkilata sədrliyi Azərbaycan Milli Məclisi həyata keçirir. Qurumun sədri kimi biz Milli Məclis olaraq TÜRKPA-nın fəaliyyətinə lazımi dəstəyi bundan sonra da göstərmək niyyətindəyik. Çünki bu qurum təşkilata üzv ölkələrin xalqları arasında dostluğun və qarşılıqlı anlaşmanın möhkəmlənməsində böyük rola malikdir.

Türk Akademiyasının fəaliyyətindən də söz açan Milli Məclisin Sədri təşkilatın xətti ilə görülən işləri təqdirəlayiq hesab edib. Bildirilib ki, əsası 2009-cu ildə Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə görüşündə qoyulan bu qurum türk dünyasında müxtəlif sahələr üzrə tədqiqatlar aparmaq üçün təsis edilib və ötən qısa dövr ərzində uğurlu nəticələr göstərib.

Spiker Türk Mədəniyyəti və İrsi Fondu haqqında da danışıb. Bildirilib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış bu qurum türk xalqlarının mədəniyyətinin və irsinin qorunması, öyrənilməsi və təbliğində əhəmiyyətli rol oynayır. Fondun xətti ilə keçirilən dəyirmi masalar, sərgilər, beynəlxalq tədbirlər bu məqsədlərə xidmət edir.

Görüşdə çıxış edən TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov, Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Milli Məclisin sədrini, Azərbaycan xalqını Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması münasibətilə səmimi-qəlbdən təbrik ediblər.

Sonra qonaqlar təmsil etdikləri təşkilatların fəaliyyəti və gələcək planları haqqında məlumat verib, gələcəkdə işğaldan azad olunmuş Azərbaycan torpaqlarında, o cümlədən Şuşada beynəlxalq tədbirlər keçirmək niyyətində olduqlarını söyləyib, bu məsələ ilə əlaqədar fikirlərini bölüşüblər.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barədə də danışılıb.

❖ ❖ ❖

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəlinin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 18-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül qoyub.

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş qəhrəman türk əsgərlərinin adları həkk olunmuş Şəhidlik kitabəsinin üzərinə qərənfillər düzüblər.

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli bildirib ki, Azərbaycanın yanında olduqlarını göstərmək üçün Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər. Çünki Şuşa, Qarabağ tək Azərbaycanın deyil, bütövlükdə türk dünyasının ürəyidir.

Azərbaycanın bu savaşda tarixi bir qələbə əldə etdiyini deyən Beynəlxalq Türk Akademiyasının prezidenti xalqımızı təbrik edib.

# Qalib Ordunun Müzəffər Ali Baş Komandanının Qələbə yürüşü

**Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Cəbrayıl və Füzuli rayonlarına səfərini izlədik. 44 günlük müharibənin zəfərlə bitən sonunda Müzəffər Ali Baş Komandanın dərhal işğaldan azad edilən bu bölgələrə səfəri çox qürurverici hadisədir. Vətəndaşların Müzəffər Ali Baş Komandanın bu rayonlara səfərindən doğan böyük sevinc hissi üzlərindən, gözlərindən oxunurdu.**

Qarşılanma zamanı yaranan izdiham Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən qazanılan bu Qələbənin miqyasını açıq göstərirdi, bu təntənə şanlı Zəfərin əyani nümayişi idi. 30 il üzünə həsrət qaldığımız bu torpaqlarda artıq üçrəngli bayrağımız insanların dövlət başçısına olan sonsuz minnətdarlığının ifadəsi kimi yenidən dalğalanır. Bu da haqlı olaraq hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev qeyd edib ki, dövlət başçısı müxtəlif vaxtlarda regionlara səfər edir və biz hər dəfə bu cür izdihamların şahidi oluruq. Amma Qalib Ordunun Müzəffər Komandanı kimi işğaldan azad edilmiş ərazilərimizə - Cəbrayıla və Füzuliyə səfər etməsi ölkəmizin qarşısıalınmazlığının, məğlubedilməzliyinin göstəricisi oldu. Bu səfər Müzəffər Ali Baş Komandanımızın Qələbə yürüşü idi.

Hərbi əməliyyatların başladığı ilk gündən Azərbaycan xalqı öz Prezidentinin ətrafında daha sıx birləşdi. Dövlət-xalq-ordu birliyi nümunəyə çevrildi. Dövlət başçısı bütün çətinliklərə sinə gərdi, bəzən hərbi forma geyinərək döyüş əməliyyatlarının idarə olunmasına birbaşa nəzarət etdi, bəzən haqlı mübarizəmizin dünyaya çatdırılmasına xidmət etdi. Dünyanın ən reytinqli televiziya kanallarına, informasiya agentliklərinə müsahibələr verdi, dünya ictimaiyyətinə Azərbaycanın haqq savaşını ən incə detallarına qədər anlatdı.

Bu müsahibələr zamanı Prezidentimiz ayrı-ayrı ölkələrin maraqlarına xidmət edən jurnalistlərin məqsədli və qərəzli suallarına elə peşəkarlıqla cavab verirdi ki, bu cavablar döyüş meydanında düşmənə vurulan zərbə qədər sərt və təsirli olurdu. Ermənistanın əsl simasını, mənfur xislətini, təcavüzkar siyasətini bir daha dünya birliyinə çatdıran Müzəffər Ali Baş Komandan həm işğalçı Ermənistana, həm də onun havadarlarına müharibədə məğlubiyyətə düçar olacaqlarının anonsunu da verirdi. Müsahibələrində daim Ermənistanın siyasi rəhbərliyinin səriştəsizliyini, “küçə siyasəti” ilə dövlət siyasətinin yerini səhv salmasını, xalqımıza qarşı törədilən cinayətləri, baş verən saysız-hesabsız təxribat hallarını ardıcıllıqla sadalayır, düşmən ölkə tərəfindən beynəlxalq hüququn kobud şəkildə tapdalanmasına diqqət çəkirdi. Prezident İlham Əliyevin dediyi sözlərlə döyüş bölgəsindəki uğurlu əməliyyatlar bir-birini dəqiqliklə tamamlayırdı.

Müharibənin başladığı ilk gündən etibarən dövlət başçısı şəxsən özü müntəzəm olaraq xalqımızı baş verənlərlə bağlı məlumatlandırırdı. Hər bir Azərbaycan vətəndaşı gündəlik olaraq səbirsizliklə dövlət başçısının televiziyada çıxışını və ya “Twitter” sosial şəbəkəsində paylaşdığı xoş xəbərləri, işğaldan azad olunmuş ərazilərimizin elan edilməsini gözləyirdi. Təbii ki, başçısı olduğu ölkədə hər kəsin rəğbətini, məhəbbətini və dəstəyini qazanmaq bir Prezident üçün ən böyük mükafatdır. Bizim Müzəffər Ali Baş Komandan o mükafatın haqlı sahibidir.

Tarixi zəfərdən sonra Cəbrayıl və Füzuli rayonlarına səfər Qalib Komandanın öz sevincini xalqı ilə paylaşması məqsədi daşıyırdı. Hərbi əməliyyatların dayandırılmasından qısa zaman keçməsinə baxmayaraq, dövlət başçısının bütün təhlükələri gözə alaraq bu bölgələrə səfər etməsi, qalibiyyət sevincini xalqı ilə bölüşməsi, xalqın öz qalib Sərkərdəsini böyük sevinc və izdihamla qarşılaması həm də “Mən hər bir azərbaycanlının Prezidentiyəm!” deyən İlham Əliyevin xalqına olan sevgisinin təzahürü idi.

Bu müddət ərzində istər Prezident İlham Əliyev, istərsə də Birinci vitse-prezident Mehriban Əliyeva mütəmadi olaraq yaralı əsgər və zabitlərimizlə, şəhid və qazi ailələri ilə görüşlər keçirdilər, onların bütün qayğı və problemlərini diqqətdə saxladılar, hər zaman yanlarında olduqlarını nümayiş etdirdilər. Buna hamımız əyani şahidik. Şanlı Ordumuzun Müzəffər Ali Baş Komandanının işğaldan azad olunan bölgələrə səfəri zamanı hərbi qulluqçular tərəfindən gördüyü diqqət bir daha bunu deməyə əsas verir ki, müharibədə qalib gəlməyimizdə dəmir yumruğumuzla yanaşı, dəmir iradəmizin və sarsılmaz inamımızın da çox böyük rolu olub.

Çox yox, cəmi bir neçə ay əvvəl Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edən, Şuşada qondarma rejimin andiçmə mərasimi keçirən və sərxoş vəziyyətdə rəqs edən Ermənistanın baş naziri Nikol Paşinyan bu gün çıxılmaz vəziyyətdədir, qəzəbli xalqının gözündən gizlənməyə yer axtarır. Bu 44 gün ərzində erməni xalqı öz baş nazirinin necə zəif və gücsüz olduğunu gördü. İşğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi oldu ki, torpaqların əsl sahibləri qayıdıblar...

Azərbaycan öz əbədi və əzəli torpaqlarını işğalçılardan azad etdi. Qalib ölkənin Müzəffər Komandanı qazanılmış Qələbəyə möhürünü vurmaq üçün həmin ərazilərə getdi. Səfər zamanı dövlət başçısının avtomobili özünün idarə etməsi isə hər kəsə açıq şəkildə mesaj verdi ki, Azərbaycan xalqı və Prezidenti heç kəsdən və heç nədən qorxmur. Biz qalibik! Zəfər bizimdir! Qarabağ Azərbaycandır!

◆Prezidentə yazırlar

# «Siz müdrik, cəsarətli siyasət yürüdərək Vətən müharibəsində tarixi zəfərə nail oldunuz»

**Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. Onlar Qarabağ müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.**



Türkiyənin İstanbul şəhərindən **Fuat Aytan** yazır: "Hörmətli cənab Prezident, mən bir türk vətəndaşı kimi ata dediyim Azərbaycanla, Sizinlə, ölkənizlə, dövlətinizlə, əsgərinizlə qürur duyuram. Var olun, sağ olun, Müzəffər Ali Baş Komandan! Ata-baba yurdumun yerləşdiyi torpaqların işğaldan qurtulması məni xoşbəxt etdi. Azərbaycan üçün nələr edə biləcəyimi bilmirəm. Bir evim, bir az da pulum var. Lazım olsa, onları böyük məmnuniyyətlə Azərbaycanın gələcəyi üçün fəda etməyə hazıram. İnşallah, azad olunmuş torpaqları ziyarət etmək, həmin torpaqları öpmək arzum da həyata keçər. Sizin kimi Ali Baş Komandanın qarşısında baş əyirəm".

Antalya şəhərindən **Hakan Yağmur:** "Hörmətli cənab Prezident, Qarabağın azadlığı üçün göstərdiyiniz əzmkarlıq, qətiyyət və cəsarət Azərbaycan xalqı kimi bizi də qürurlandırdı. Sizin kimi qardaşlarımız olduğu üçün biz xoşbəxtik. Azərbaycan xalqı isə Sizin kimi Lideri olduğuna görə xoşbəxtdir. Hamımız ona görə xoşbəxtik ki, eyni qanı daşıyır, eyni tarixə malikik, ürəklərimiz eyni həyəcanı paylaşır. Mən Türkiyə Respublikasının vətəndaşı olaraq ən səmimi hisslərlə bildirirəm ki, canımızla, qanımızla sizlərin yanında olmaqdan qürur duyuruq. Heç bir qarşılıq gözləmədən hər zaman Azərbaycan xalqının yanındayıq. Bütün cəbhələrdə Sizinlə çiyin-çiyinə dayanmaq, əlimizdən gələni etmək bizim borcumuzdur. Sizə və Azərbaycan xalqına sonsuz sevgi və ehtiramımı çatdırmaq istəyirəm. Unutmayaq ki, bizlər bazara qədər deyil, məzara qədər qardaşıq. Zəfər Azərbaycan xalqınındır!"

Rusiyanın Omsk şəhərindən soydaşımız **Emil Cəfərov** yazır: "Müzəffər Ali Baş Komandan, Sizi Rusiya Federasiyasının Omsk şəhərindən salamlayıram. Bu məktubu yazmaqda məqsədim bir azərbaycanlı kimi öz səmimi duyğularımı Sizə bildirməkdir. Əziz Prezidentim, xarici dövlətdə yaşamağımıza baxmayaraq, uzun illər Rusiya Federasiyasında məskunlaşan mənfur qonşularımızın vətəndaşları ilə qarşılaşdıqda içimdən utancverici bir hiss keçirdi. Əslində, bu hissləri hər bir Azərbaycan vətəndaşı yaşayıb. Mən bu hissləri büruzə verməsəm də, düşmənə hiss etdirməsəm də qəlbimdə böyük əzab çəkirdim. Qarabağda itirilmiş torpaqlarımız, qətlə yetirilmiş vətəndaşlarımız, körpələr, qocalar, bacı və qardaşlara edilmiş zülmlər bizi çox sarsıtmışdı. Nəhayət, o gün yetişdi. 2020-ci il sentyabrın 27-dən etibarən hər şey dəyişdi. İşğalda olan şəhər, rayon, qəsəbə və kəndlərimizin Ordumuz tərəfindən ard-arda azad edilməsi xəbərlərini verdiyiniz hər çıxışınızı səbirsizliklə gözləyirdik. 30 ildən sonra üzümüzə təbəssüm bəxş etdiniz, bizə əzmkarlıq hissini yaşatdınız. Böyük işlər gördünüz, ölkəmizi dünya səviyyəsində təmsil etdiniz. Dünyaya sübut etdiniz ki, biz birlikdə güclüyük. Azərbaycan xalqı Sizinlə qürur duyur, hər zaman yanınızdayıq. Şəxsən öz adımdan və Omsk vilayətində yaşayan bütün azərbaycanlılar adından 2020-ci il noyabrın 10-da böyük Qələbə sevincini bəxş etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram. Yaşasın xalqımız və şanlı Ordumuz! Vətən uğrunda şəhid olmuş bütün qardaşlarıma Allahdan rəhmət, ailələrinə səbir diləyirəm. Qarabağ Azərbaycandır!"

Türkiyənin Bolu şəhərindən **Ömər Cengizhanoğlu, Mehmetcan Cengizhanoğlu** və **Doğanacan Cengizhanoğlu** yazırlar: "Hörmətli cənab Prezident, Sizi uca Allahın adı ilə salamlayır, gözəl Türkiyəmizdən, türk xalqının adından sevgi və ehtiramımı bildirirəm. Zəfəri zəfərə calamaqla tarixə düşən Azərbaycan Ordusunu səmimi-qəlbdən təbrik edir, hər əsgərin alnından öpürük. Çanakkale, Sakarya döyüşləri ilə türk və dünya tarixinə qızıl hərflərlə yazan türk ordusunun qardaşı olan, ermənilərə tarixi dərs verən Azərbaycan Ordusu bu gün cəbhədən Qələbə ilə qayıdır. Bir yumruq kimi birləşmiş Azərbaycan Ordusu qazandığı qələbələrlə Ulu Öndər Heydər Əliyevin və minlərlə şəhidin ruhlarını şad etmişdir. Dəyərli Prezidentimiz, bütün sahələrdə apardığınız uğurlu siyasətlə tarixə ad salmış türk fatehlərinin davamçısı olduğunuzu dünyaya göstərdiniz. Mən təqaüddə olan müəllliməm. İnşaat mühəndisi olan və Gülhanə tibb fakültəsində oxuyan oğlumla birlikdə Azərbaycan Ordusu üçün əlimizdən gələn köməyi etməyə hazırıq. Dünyanın hələ də unutmadığı Çanakkale zəfərindən sonra sizlər Qarabağ zəfərini tarixə yazdınız. Bütün türk xalqları Sizin bu qəhrəmanlığınızı unutmayacaqdır. Heç şübhəm yoxdur ki, Qarabağdan zəfərlə dönən şanlı Azərbaycan Ordusu əsl qəhrəmanlar kimi qarşılanacaq. Onlara bir daha Azərbaycan xalqına və bizlərə yaşatdıqları sevinc və xoşbəxtliyə görə minnətdarlıq bildirirəm. Qarabağın azad olunması münasibətilə keçiriləcək şənliklərdə iştirak etmək ümidi ilə müraciətimi ən ülvi hisslərimi ifadə edən sözlərlə bitirmək istəyirəm:

Salam olsun qızıl qəlbli rəhbərimiz İlham Əliyevə!

Salam olsun Qarabağ yolunda dastan yazan şanlı Azərbaycan Ordusuna!

Salam olsun ordusu ilə milli birlik göstərən qardaş Azərbaycan və türk xalqlarına!"

Zaqataladan **Elxan Şabanovun** məktubunda deyilir: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, noyabrın 8-də Siz Şuşamızın alınması xəbərini verməklə xalqımıza qələbə sevincini yaşatdınız. Otuz illik böyük bir yükü çiyinləri üzərində gəzdirən, ağrıdan-acıdan qovrulan xalqımız məhz Sizin sayənizdə indi sevinc, zəfər salnaməsinin himni altında qürurla addımlayır. Allah Sizi və rəşadətli Ordumuzu qorusun!"

Gəncə şəhərinin sakini **Tahir Cəbrayılov:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, müharibə başlayandan hər gün Sizə məktub yazıb ürək sözlərimi çatdırmaq istəyirdim. Amma böyük günü - Şuşanın işğaldan azad olunması gününü gözləyirdim. Mən Azərbaycanın bir vətəndaşı olaraq ailəmlə birlikdə həmişə Sizə inanmışıq və güvənmişik. Yaşasın Müzəffər Ali Baş Komandanımız və rəşadətli Azərbaycan Ordusu! Elimin şanlı, qəhrəman oğlu, bu böyük Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm".

Ağdam sakini **Dilrubə Behbudova:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, əzəli və əbədi torpaqlarımız olan Qarabağın düşmənlərdən azad edilməsi haqqında verdiyiniz əmri eşidəndə çox sevindim. Siz bütün dünyaya bizim xalqın, millətin gücünü və qüdrətini bir daha sübut etdiniz. Mənim bu gün sevincimin hədd-hüdudu yoxdur. Mənim oğlum Zəngilan rayonu uğrunda gedən döyüşlərdə - 1992-ci ildə itkin düşüb. Zəngilanın işğaldan azad edilməsi xəbərini eşidəndə çox qəhərləndim, çox sevindim ki, oğlumun uğrunda vuruşduğu torpaq alındı, qisası yerdə qalmadı. Sevimli oğlum, Sizi dünya durduqca yaşayasınız. Siz mənə bu yaşlı vaxtımda bu sevinci yaşatdınız. Allah Sizi və övladlarınızı qorusun. Allah şanlı və qüdrətli Ordumuzu qorusun. Siz biz məcburi köçkünlərin 30 ilə yaxın olan Vətən-torpaq həsrətinə son qoydunuz. Mən ürəyimdən gələn xoş arzuları Sizə çatdırmağı özümə borc bilirəm. Arzu edirəm ki, bütün Qarabağ torpaqlarımız düşmən işğalından tamamilə azad olunsun, Azərbaycanımızın bütövlüyü təmin edilsin və mən Sizi öz torpağımda - Ağdamda öz evimdə çay süfrəsinə qonaq edim. Mən Sizin sözlərinizi çox böyük fəxrlə təkrar edirəm: Qarabağ Azərbaycandır!"

Bakı şəhər sakini **Sayad Cəbrayılova:** "Hörmətli Cənab Prezident, Müzəffər Ali Baş Komandan, torpaqlarımızın işğaldan azad edilməsinə çox sevinirik. Qarabağımızın 30 illik işğalına son qoyuldu. Qazandığınız hərbi-siyasi uğurlarla qürur duyuruq. Allah Sizi, Ordumuzu və millətimizi qorusun. Şəhidlərimizə Allah rəhmət eləsin. Şəhid analarının qarşısında baş əyirəm. Ümummilli Qələbə təbrikləri Sizindir. Qarabağ Azərbaycandır!"

Beyləqan sakini **Nilay Cahangirli:** "Möhtərəm cənab Prezident, mənim adım Nilaydır. 10 yaşım var. Mən çox xoşbəxtəm, çünki Sizin komandanlığınız altında torpaqlarımızı geri aldıq. Sizin kimi Prezidentimiz olması ilə, azərbaycanlı olmağım ilə fəxr edirəm. Mən bilirdim ki, Azərbaycan Ordusuna qarşı heç bir ordu qalib gələ bilməz. Mən və ailəm hər zaman Sizə dəstəyik. İnşallah tezliklə bütün həmyerlilərimiz öz ata-baba yurdlarına geri dönərlər. Qələbəmizə görə Sizə təşəkkür edirəm. Sizi və ailənizi də bu qələbə münasibətilə təbrik edirəm. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Ali Baş Komandan!"

Naftalan sakini **Natiq Məmmədov:** "Müzəffər Ali Baş Komandan, mən bu məktubu Sizə fəxrlə, dolu ürəklə və göz yaşı ilə yazıram. Şuşa şəhərinin azad edilməsi bu hissləri keçirməyimə səbəb oldu. Öncə Ulu Öndərimizin ruhu qarşısında baş əyirəm. Məhz onun səyi ilə Orduda vahid Ali Komandanlıq yaradıldı, ölkədə hərc-mərcliyə son qoyuldu. Əldə olunmuş uğurlar gələcək böyük Qələbənin təməlini qoydu. Siz də atanız kimi müdrik, cəsarətli siyasət yürüdərək Ordumuzu gücləndirdiniz, onun siyasətini davam etdirərək Vətən müharibəsində bu uğurlara nail oldunuz. Allah Sizi heç vaxt Azərbaycan Respublikasının Ali Baş Komandanlığından əskik etməsin! Daim ölkəmizin qoruyucu mələyi olasınız!"

Şəmkir sakini **Brilyant Quliyeva:** "Hörmətli Prezidentimiz cənab İlham Əliyev, hamımıza məlumdur ki, Azərbaycan qədim dövlətçilik ənənələrinə malik bir ölkədir. Xalqımızın tarixdə üzləşdiyi ən böyük fəlakətlərdən biri XX əsrin 90-cı illərinin əvvəlində mənfur düşmənlərimiz olan ermənilər tərəfindən işğala, soyqırımları və vəhşiliklərə məruz qalmasıdır. İki əsrdir torpaqlarımız yadellilərin işğalına məruz qalmış, zaman-zaman torpaqlarımız işğal olunmuşdu. Cənab Prezident, bu gün mən özümü xoşbəxt sayıram. Siz müdrik və uzaqgörən siyasətinizlə Azərbaycan xalqına şərəfli bir tarix yaşatdınız. Azərbaycan xalqının bu günü və xoşbəxt gələcəyi naminə yorulmadan çalışdınız. Xalq Sizi sevir və ürəkdən dəstəkləyir. Hörmətli Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, Sizə Kəlbəcər, Şuşa dağları, Zəngilan, Laçın çinarları kimi ucalıq, uzunömürlülük arzulayıram".

Füzuli sakini **Məlahət Cəfərova:** "Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyinizlə doğma torpaqlarımızın öz həqiqi sahiblərinə - bizə qaytarılması uğrunda başladığımız haqq mübarizəsində Qələbə bizim oldu. Azərbaycan xalqının necə igidlər yetirdiyini bütün dünya gördü. Qalibiyyəti bizə bəxş edən Sizi və müzəffər Ordumuzu Allah daim qorusun! Qarabağ bizimdir!"

Ağcabədidən **Telman Hacıyev:** "Hörmətli cənab Prezident, rəhbərliyiniz altında şanlı Ordumuzun işğal altında inləyən torpaqlarımızı azad etməsi və Vətən müharibəsinin bizim Qələbəmizlə başa çatması münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Yorulmaz fəaliyyətinizdə Sizə uğurlar arzulayıram. Qarabağımızı bizə qaytaran Müzəffər Ali Baş Komandan, Allahdan Sizə uzun ömür, cansağlığı diləyirəm. Yaşasın Azərbaycan!"

Xaçmazdan **Elxan Mövlamov:** "Müzəffər Ali Baş Komandan, Azərbaycanın könüllülərindən ilk şəhid Mövlamov Elçinin ailəsi adından Sizə dərin təşəkkürümüzü bildiririk. Çox sağ olun ki, Siz bu böyük Qələbə sevincini bizə yaşatdınız. Cənab Prezidentimiz, biz Mövlamovlar ailəsi hər il şəhidimizin anım gününü böyük üzüntü və kədərlə keçirirdik. Lakin bundan sonra oğlumuzu qürurla ana biləcəyik. Çünki Elçinimizin və bütün şəhidlərimizin qanı Siz və rəşadətli Ordumuz sayəsində yerdə qalmadı. Rəbbim Sizi və şanlı Ordumuzu qorusun!"

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında Rusiya Federasiyasının vasitəçiliyi ilə tarixi razılaşmanın imzalanması münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik.

Azərbaycanın bütün dünya ölkələri tərəfindən tanınan ərazi bütövlüyü və suverenliyi bu razılaşma sayəsində bərpa olunacaq. Eyni zamanda bu razılaşma bölgədə sülhün və sabitliyin bərqərar olunmasına töhfə verəcək.

Misir-Azərbaycan Dostluq Cəmiyyətinin qurucu üzvləri olaraq bu tarixi bəyanatı yaxından izləyirdik. Cəmiyyətimiz xalqlarımız arasında əlaqələrin inkişafında önəmli rol oynayır.

Qardaş ölkə Misirdə dua edirik ki, Uca Allah Vətən uğrunda şəhid olanları cənnətlə mükafatlandırsın, yaralılara isə tezliklə şəfa versin.

Zati-aliləri, Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə qardaş Azərbaycan Respublikasının müstəqilliyinin əbədi olmasını, xalqınızın əmin-amanlıq şəraitində yaşamasını arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyəti və təsisçiləri:***

***Əli Cümə,***
*professor, Əl-Əzhərin Böyük Alimlər Şurasının üzvü və Misir Ərəb Respublikasının sabiq müftisi*

***Osama əl-Əbd,***
*professor, Misir Parlamentinin Din və vəqflər komitəsinin sədri*

***Əl-Seyyid Mahmud Əl-Şərif,***
*Ərəb və İslam Dünyasında Seyyidlər Həmkarlar İttifaqının sədri*

***Adel Dərviş,***
*Helvan Universitetinin professoru və Misir-Çin Universitetinin müşaviri*

***Bağdadi İmam,***
*Misir Təhsil Nazirliyinin Baş direktoru*

***Tövhid Məhəmməd Əbdül Məcid,***
*Misirin Əl-Xeyir Fondunun hüquq məsələləri üzrə direktoru*

***Yusif əl-Şərqavi,***
*Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri*

***Medhət Camal,***
*briqada generalı, Misirin Əl-Xeyir Fondunda layihə rəhbəri*

***Usəmə Əbdülrəhman,***
*Helvan Universitetinin professoru*

***Mona Zaidan,***
*Helvan Universitetinin professoru*

***Əhməd Abdo Tarabek,***
*Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı*

***Mustafa Məhəmməd Hicazi,***
*mühəndis, "Orange" Misir şirkətinin Baş direktoru*

***Seymur Nəsirov,***
*Misirdəki Azərbaycan diasporunun sədri*

## "Siz var olduqca qələbə Azərbaycanladır!"

Həyatda xoş xəbərli günlər yaşamaq, ümidverici sözlər eşitmək insanın ömrünə ömür calayır. Bu xoşbəxt anlar Sizin sayənizdə bütün Azərbaycan xalqına nəsib oldu. Dünyanın Sizin dilinizdən eşitdiyi "Ermənistan rəhbərliyinin gücü varsa, gəlsin təkbətək görüşək. Əgər hünəri varsa, tanısın görüm dırnaqarası Dağlıq Qarabağ Respublikasını, necə tanıya bilir?!"- ifadəsi qılıncdan kəsərli oldu.

Bu cəsarətli sözlərinizi, təpərli addım səslərinizi eşidən xalqımız Sizdən bir daha güc aldı və qürur duydu ki, Sizin kimi cəsur, qaməti əyilməz, dizi qatlanmaz mübariz rəhbəri var! Bütün dünya gördü ki, Siz otuz il müharibəyə hazırlaşan mənfur düşməni bir yumruğunuzu sıxmaqla darmadağın etdiniz. Ermənilər qısılmağa qoltuq dibi, yalamağa daban axtardılar.

Cənab Prezident! Siz Ulu Öndərin layiqli davamçısı, Azərbaycanın igidi kimi Murovdağ zirvəsində, Şuşa qalasında bayrağımızın ucaldılmasına nail oldunuz.

Sizin "Qarabağ Azərbaycandır!" deyiminizin sonunda qoyduğunuz nida işarəsi düşmənin ürəyinə batan ox, ucundakı nöqtə isə dünyanın işğalçı qüvvələrinə "Daha bəsdir, yetər!" sözünün son işarəsidir. Siz həm də dünya hərb tarixinə yeni adda bir silah təqdim etdiniz - "İtiqovan". Bəsdir bu ad dünyanın bütün riyakar qüvvələrinə. Hamı işğalçı düşməni bu adla lənətləyib qovacaq.

Möhtərəm Ali Baş Komandan! Siz böyük SƏRKƏRDƏsiniz. Bu ad Sizə çox yaraşır. Çünki Siz Şah İsmayıl Xətainin qılıncı ilə bütövləşib sonradan parçalanan Azərbaycanın yarasını cəsarət məlhəmi ilə sağaltdınız, işğal qaysağını qopartdınız, onun sərhədinə polad zəncirli qıfıl vurub, qızıl açarını da ömürlük Azərbaycan xalqına bəxş etdiniz!

Bütün bunlara görə insan tam varlığıyla Sizə "Böyük Sərkərdə İlham Heydəroğlu" deyə müraciət edir. Bu ad Sizə XXI əsrin XALQ HƏDİYYƏSİ olaraq, ana südü kimi halaldır!

Mən əhd etmişəm ki, üçrəngli bayrağımız Kəlbəcərə taxılan gün bu şərəfli adı, içimdən gələn gur bir hayqırtıyla Ulu Göyçəyə, Zəngəzura, Böyük Türk Dünyasına çatdırım. Çünki Siz haqdan gələn çırağın şöləsi kimi Vətənimizə, bu günümüzə, sabahımıza işıq saçdınız!!!

Allah Sizi qorusun! Siz var olduqca qələbə hər zaman Azərbaycanladır!

Dərin hörmət və ehtiramla:

***Vəliyəddin İSMAYILOV,***
***Kəlbəcər rayonunun Ağsaqqallar Şurasının üzvü***

# *Hikmət HACIYEV:* “Ermənistan silahlı qüvvələri Şuşa ətrafında meşələri yandırmaq üçün ağ fosfordan geniş istifadə edib”

**“Burada gördüklərimiz Ermənistan silahlı qüvvələri tərəfindən ağ fosfordan istifadə olunmasının növbəti faktıdır. ANAMA-nın nümayəndəsi tərəfindən ətraflı məlumat verildi. Bundan əvvəl də Ermənistan silahlı qüvvələri tərəfindən ağ fosforlu mərmilərdən istifadə edilmişdi”.**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bir qrup yerli və beynəlxalq jurnalistin Füzuli rayonuna səfəri zamanı bildirib.



Hikmət Hacıyev deyib: “Biz hələ hərbi əməliyyatların gedişində məlumat vermişdik ki, Ermənistan silahlı qüvvələri Şuşa ətrafında meşələri yandırmaq üçün ağ fosfordan geniş şəkildə istifadə ediblər. Təkcə bu əməliyyatlarda deyil, bundan əvvəlki əməliyyatlarda da - 2016-cı ilin Aprel döyüşlərində də Ermənistan silahlı qüvvələri tərəfindən ağ fosfordan geniş şəkildə istifadə olunub. Onların əsas hədəfi mülki obyektlər və mülki insanlar, əkin sahələri, həmçinin Azərbaycan Silahlı Qüvvələri olub. Bu barədə məlumatlar toplanılır. Beynəlxalq təşkilatlara, o cümlədən kimyəvi silahların qadağan olunması üzrə beynəlxalq təşkilata məlumat veriləcək. Ermənistan ağ fosfordan istifadəni özündə ehtiva edən müvafiq konvensiyalara qoşulmayıb. Ağ fosfor kimyəvi silah hesab edilməsə də, bunun çox böyük zərərverici xüsusiyyətləri var. İnsan orqanizminə daxil olduğu təqdirdə bunun qısa müddətdə ölümə və ciddi yanğıya səbəb ola biləcək təsirləri var”.

# Azərbaycan XİN Rusiya Prezidentinin Ermənistan-Azərbaycan münaqişəsinə dair müsahibəsinə münasibət bildirib

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin noyabrın 17-də Ermənistan-Azərbaycan münaqişəsinə dair müsahibəsi ilə əlaqədar KİV-in sualını cavablandırıb.

AZƏRTAC həmin sualı və cavabı təqdim edir.

**Sual:** Rusiya Federasiyasının Prezidenti noyabrın 17-də Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı medianın suallarını cavablandırdı. Bu müsahibəni necə qiymətləndirirsiniz, vurğulanan məqamlarla bağlı nə deyə bilərsiniz?

**Cavab:** Azərbaycan Rusiya tərəfinin Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün göstərdiyi səyləri yüksək qiymətləndirir. Rusiya BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür və ATƏT-in Minsk qrupunun üç həmsədr dövləti arasında bölgəmizə birbaşa həmsərhəd olan, onunla çoxillik tarixi əlaqələrə malik yeganə ölkədir. Bu, Rusiyanın Cənubi Qafqazda təhlükəsizliyin, sabitliyin və sülhün möhkəmləndirilməsində birbaşa marağını izah edir.

Müsahibədə Rusiya dövləti başçısının vasitəçiliyi ilə bu il 9 noyabr tarixli razılaşmanın əldə olunmasında oynadığı mühüm rol haqqında kifayət qədər ətraflı məlumat verilib. Rusiya Prezidentinin şəxsi rolu, bu il 9 noyabr tarixli üçtərəfli bəyanatın altındakı imzası onun sülh prosesinə son dərəcə əhəmiyyətli töhfəsini və bu prosesin geriyə dönməzliyinə zəmanətdir.

Rusiya Prezidentinin üçtərəfli bəyanatın mühüm bir nailiyyəti kimi qan tökülməsinin dayandırılması olduğuna dair qiymətləndirməsini tamamilə bölüşürük. Azərbaycan tərəfi müharibənin ilk dəqiqələrindən bəri beynəlxalq birliyin atəşkəs çağırışlarını həmişə və tamamilə dəstəkləyib. Rusiya Prezidenti öz müsahibəsində həll prosesi tarixinə də toxunub.

Prezident Vladimir Putinin beynəlxalq hüquq nöqteyi-nəzərindən həm Qarabağın dağlıq hissəsinin, həm də onun ətrafındakı bütün bölgələrin Azərbaycan ərazisinin ayrılmaz hissəsi olduğu barədə sözləri xüsusi əhəmiyyət kəsb edir. Rusiyanın bu mövqeyi BMT Təhlükəsizlik Şurasının qətnamələri, ATƏT-in və digər beynəlxalq təşkilatların qərarlarının möhkəm təməlinə söykənir.

Rusiya Prezidentinin müsahibəsində ölkəmizin işğal edilmiş ərazilərinin Ermənistanın nəzarəti altında olması barədə açıqlaması son dərəcə mühüm xarakter daşıyır. Bu açıqlama erməni tərəfinin dünya ictimaiyyətini aldatmaqla Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistanın yaratdığı qanunsuz rejimi ön plana gətirmək cəhdlərinin tamamilə uğursuz olduğunu təsdiqləyir.

Qeyd edək ki, Ermənistan rəhbərliyinin münaqişə çərçivəsinin genişləndirilməsi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək cəhdləri uğursuz oldu. Rusiya Prezidenti müsahibəsində bir daha açıq və aydın şəkildə heç kimin Ermənistan ərazisinə təcavüz etmədiyini bəyan etdi. Beləliklə, bütün döyüş əməliyyatlarının 1990-cı illərdə ölkəmizin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazisində baş verdiyi barədə Azərbaycanın mövqeyi təsdiqləndi.

Xüsusilə qeyd olunmalıdır ki, Rusiya Prezidenti Ermənistan tərəfinin cari ilin 9 noyabr tarixli razılaşmanın şərtlərini yerinə yetirməkdən ehtimal olunan imtinasını “böyük səhv” və hətta “intihar” kimi xarakterizə edib. Bu qiymətləndirməyə tamamilə şərik oluruq. Prezident Vladimir Putinin müdrikcəsinə qeyd etdiyi kimi, Rusiyanın fəal dəstəyi ilə əldə olunan üçtərəfli bəyanat münasibətlərin uzun müddətə normallaşdırılması üçün yaxşı zəmin yaradır.

# Xarici jurnalistlər ermənilərin Füzuli şəhərində törətdiyi vəhşilikləri öz gözləri ilə görüblər

**Noyabrın 18-də bir qrup yerli və xarici jurnalist Ermənistanın işğalından azad olunmuş Füzuli şəhərinə səfər edib.**

AZƏRTAC xəbər verir ki, jurnalistlər Füzuli şəhərində Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır nəticələri ilə tanış olublar. Onlar Füzuli şəhərində ermənilərin 27 il ərzində törətdikləri vəhşilikləri, vandalizmi öz gözləri ilə görüblər. Jurnalistlərə məlumat verilib ki, ermənilər Füzulidə yaşayış məntəqələrini, qəbiristanlıqları, tarixi, mədəni abidələri vəhşicəsinə dağıdıblar.

Səfərdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, bir Azərbaycan vətəndaşı kimi hər birimiz üçün bu, həm kədərli, həm də sevincli haldır. Kədərlidir o mənada ki, bu cür dağıntıların, vəhşiliklərin şahidi olursan. Bu, insan həyatıdır. Ermənilər insanların həyatını məhv ediblər. Füzuli işğaldan əvvəl 100 mindən çox insanın yaşadığı bir rayon, Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biri idi. Amma ermənilər tərəfindən dağıdılıb, məhv edilib. Bu vəhşiliklərlə Ermənistan özünün əsl simasını göstərir. Budur Ermənistanın əsl mahiyyəti.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirib ki, Azərbaycan Füzuli şəhərinə yenidən həyat gətirəcək. İşğaldan azad olunmuş bütün ərazilərimizə yenidən həyat gətiriləcək. Füzuli şəhərindən yenə də gülüş və sevinc səsləri eşidiləcək. Azərbaycan öz quruculuq siyasəti ilə Ermənistandan fərqini bir daha göstərəcək.





Prezidentin köməkçisi qeyd edib ki, Füzuli eyni zamanda Azərbaycan mədəniyyətində, xalqımızın maddi-mədəni irsində öz rolu olan bir rayon idi. Burada olan maddi-mədəniyyət abidələri də erməni vandalizmi nəticəsində tamamilə darmadağın edilib. Bugünkü səfər zamanı beynəlxalq media nümayəndələrinin Füzuli şəhərindəki tarixi abidələrimizə, məscidlərimizə də baş çəkmək imkanı oldu. Burada orta əsrin memarlıq inciləri olan hamam kompleksləri var idi. Mədəniyyət Nazirliyində bütün bu abidələrin inventarı var. İnventar üzrə onların hər birinin qiymətləndirilməsi aparılacaq. Ali Baş Komandanın dediyi kimi, işğal olunmuş ərazilərimizdəki bütün bu maddi-mədəni zərərin hamısının kompleks qiymətləndirilməsi aparılacaq. Buraya beynəlxalq ekspertlər də cəlb olunacaq. Ermənistan bu cür əməllərinə görə beynəlxalq hüquq və humanitar hüquq əsasında məsuliyyət daşıyır. Ermənistan uzun illər bu məsuliyyətini gizlətməyə çalışırdı. Amma bu məsuliyyətdən heç yerə qaça bilməz. Azərbaycan bütün bu halları sənədləşdirdikdən sonra aidiyyəti üzrə beynəlxalq səviyyədə addımlar atacaq.

Hikmət Hacıyev vurğulayıb ki, bugünkü səfər Azərbaycan Prezidentinin tapşırığı əsasında həyata keçirilib, beynəlxalq media nümayəndələrinin iştirakı ilə bu dağıntılar, vəhşiliklər sənədləşdirilib. Sonra bunlar sistemli şəkildə konkret sahələr üzrə vahid hesabat formasına salınacaq.

“İşğaldan azad edilmiş torpaqlarımızda olduğumuz üçün qürur hissi keçiririk. Bu hissləri bizə yaşatdığına görə Ali Baş Komandanımıza minnətdarıq. Əsgər və zabitlərimizə təşəkkürümüzü bildiririk. Şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların ruhu qarşısında baş əyirik, yaralı əsgərlərimizin tezliklə sağalmasını arzulayırıq”, - deyə Prezidentin köməkçisi bildirib.

Ermənilərin Füzuli şəhərini darmadağın etdiyini söyləyən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev deyib ki, erməni terroru nəticəsində rayonun 105 min əhalisi pərən-pərən düşüb: “Gördüyünüz kimi, Füzulidə yararlı bina qalmayıb. İctimai binalar, evlər, zavodlar, fabriklər, məktəblər, uşaq bağçaları yerləyeksan edilib. Ali Baş Komandanın dediyi kimi, Füzulinin gözəlliyi yenidən bərpa olunacaq, şəhər qurulub tikiləcək. İnanırıq ki, xarici ölkələrin media nümayəndələri erməni vəhşiliyini bütün dünyaya çatdıracaqlar”.

Öz evinin qarşısında dayandığını söyləyən Füzuli şəhər sakini Şadiyyə Qəhrəmanova Müzəffər Ali Baş Komandana, əsgərlərimizə, şəhidlərimizin analarına dərin təşəkkürünü və minnətdarlığını bildirərək deyib: “Otuz ilə yaxın bir müddət keçdikdən sonra yenə mən öz həyətimi, uçuq divarları olsa da, öz evimi görürəm. Media təmsilçilərindən xahiş edirəm ki, bizim haqq işimizi dünya ictimaiyyətinə çatdırsınlar”.

Füzuli şəhər sakini Vəliyev Vaqif deyib: “Bu gün sevincimizin hədd-hüdudu yoxdur. Çünki işğaldan azad olunmuş Füzuli şəhərində evlərimizi görürük. Prezident İlham Əliyev bizim qürurumuzu özümüzə qaytardı. Prezidentimizin dediyi kimi, hər şey öz yerini alacaq, bütün binalar bərpa olunacaq. Mən Ali Baş Komandana və Azərbaycan Ordusuna füzulililər adından minnətdarlığımı bildirirəm. Eşq olsun Ali Baş Komandana, Azərbaycan Ordusuna!”

# Azərbaycan Din və etiqad azadlığının irəlilədilməsi üzrə üçüncü nazirlər konfransında təmsil olunub

ABŞ hökumətinin təşəbbüsü və Polşa hökumətinin təşkilatçılığı ilə noyabrın 16-17-də videokonfrans formatında Din və etiqad azadlığının irəlilədilməsi üzrə üçüncü nazirlər konfransı keçirilib. Tədbirdə nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri də daxil olmaqla, 60-a yaxın dövlətin xarici işlər nazirləri və onların müavinləri, din azadlığı üzrə xüsusi səfirlər iştirak ediblər.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, cari ilin iyulunda Polşanın paytaxtı Varşava şəhərində keçirilməsi planlaşdırılan üçüncü nazirlər konfransı dünyada yayılan pandemiya səbəbindən dəfələrlə təxirə salınıb və sonda tədbirin onlayn formatda keçirilməsi qərara alınıb. Tədbirdə ölkəmizi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı təmsil edib.

Videokonfransı açan Polşanın Xarici İşlər naziri Zbiqniev Rau din və etiqad azadlığının fundamental insan hüququ olduğunu vurğulayıb, dünyada bir çox insanların, xüsusən də dini azlıqlara mənsub olanların bu təməl haqqının pozulması ilə qarşılaşdıqlarını, COVID-19 pandemiyası dövründə bu problemin daha da artdığını bildirib. Nazir həmçinin konfrans iştirakçılarını din və etiqad azadlığını qorumaq və təşviq etmək üçün səylərini artırmağa çağırıb.

Açılış mərasimində çıxış edən ABŞ Dövlət katibi Mayk Pompeo konfransa evsahibliyi etdiyinə görə Polşa hökumətinə minnətdarlığını bildirib, belə tədbirlərin din və etiqad azadlığının təmin edilməsi sahəsində səylərin davam etdiriləcəyinin göstəricisi olduğunu vurğulayıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı videokonfransda çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə dinlərarası dialoqun mərkəzinə çevrilmiş Azərbaycanın müasir dövrdə həyata keçirdiyi dünyəvilik, tolerantlıq və multikultural dəyərlərə söykənən dövlət-din modeli və siyasətindən bəhs edib, ölkəmizdə dini konfessiyalara və icmalara dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışıb.

Ermənistanın Azərbaycana qarşı təcavüzünə toxunan Dövlət Komitəsinin sədri Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonunun işğalı zamanı baş vermiş hadisələri - azərbaycanlıların öz yurdlarından qovulması, qətl edilməsi, tarixi dini-mədəni abidələrimizin, yaşayış məntəqələrinin ermənilər tərəfindən dağıdılması, məscidlərimizin tövləyə çevrilməsi, donuz saxlanılmaqla təhqir edilməsi, o cümlədən tarixi Qafqaz Albaniyasına məxsus kilsələrin erməniləşdirilməyə məruz qalması faktlarını vurğulayıb.

Eyni zamanda cari il sentyabr ayının 27-dən noyabr ayının 10-dək Ermənistan tərəfinin başladığı hərbi hücumlar nəticəsində Azərbaycanın münaqişə zonasına aid olmayan yaşayış məntəqələrinin raket zərbələrinə məruz qalması zamanı ümumilikdə 100-ə yaxın mülki şəxsin qətlə yetirildiyini qeyd edən M.Qurbanlı Ordumuzun həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları nəticəsində işğalçı Ermənistanın ağır məğlubiyyətə uğradıldığını, 30 ilə yaxın düşmən tapdağında qalan ərazilərimizin azad edildiyini və həmin ərazilərdə quruculuq işləri aparılacağını, bütün tarixi, dini abidələrin bərpa olunacağını bildirib.

Həmçinin düşmənin öz hərbi təcavüzünə dini don geyindirmək cəhdini də ifşa edən Dövlət Komitəsinin sədri ölkəmizdə müsəlman, xristian, yəhudi və digər dinlərin nümayəndələri kimi, minlərlə erməninin də sərbəst yaşadığını, Bakının mərkəzində Erməni Apostol kilsəsinin dövlət tərəfindən qorunduğunu iştirakçıların diqqətinə çatdırıb.

Çıxışının yekununda M.Qurbanlı müasir günümüzdə insanlar arasında vəhdət və harmoniyanın yaradılmasını, dini liderlər tərəfindən ekstremizm, terrorizm və separatizmin tənqidinə yönələn çağırışların edilməsini dinlərin insanlara verəcəyi əsas töhfə kimi qiymətləndirib.

Nazirlər konfransının əksər iştirakçıları məruzələrində, əsasən, dövlətlər tərəfindən aparılan din və etiqad azadlığı sahəsindəki uğurlu siyasətdən bəhs ediblər. Həmçinin bir çox məruzəçilər ayrı-ayrı ölkələrdə, xüsusən də Avropa ölkələrində dini zəmində baş vermiş terror hadisələrini vurğulamaqla dünyadakı din və etiqad azadlığının hazırkı vəziyyətindən narahatlıqlarını dilə gətiriblər.

Nazirlər konfransının ilk gününün müzakirələrinə yekun vuran Polşa Xarici İşlər Nazirliyinin dövlət katibi Piotr Vavrzik din azadlığının təmin edilməsində beynəlxalq ictimaiyyət tərəfindən dinlərarası dialoq və müasir texnologiyalardan düzgün istifadə kimi həyata keçirilə biləcək bir sıra konkret fəaliyyətə diqqət çəkib.

Qeyd edək ki, nazirlər konfransının gedişində din və etiqad azadlığının qorunması sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi məqsədilə iştirakçılar tərəfindən münasibət bildirilməsi üçün səkkiz bəyanat irəli sürülüb. Həmin bəyanatlarda dinlərarası dialoqların irəlilədilməsi, COVID-19 pandemiyası dövründə din və etiqad azadlığının qorunması, eləcə də dinə və inancına görə zülmə məruz qalan azlıqların qorunması, din xadimlərinin sülh quruculuğuna verdiyi töhfə, Dayanıqlı İnkişaf Məqsədləri ilə din azadlığı arasındakı əlaqələr, din azadlığı sahəsində savadlılığın rolu, texnologiyaların istifadəsi barədə məsələlər öz əksini tapıb. Din və etiqad azadlığının təmin edildiyi, dini azlıqların hüquqlarının qorunduğu və dinlərarası dialoqun hökm sürdüyü inklüziv cəmiyyətin təşviqatçısı olan dövlət kimi Azərbaycan tərəfi də adıçəkilən bəyanatlara qoşulub.

Məlumat üçün bildiririk ki, 2018-ci ildən ABŞ hökumətinin təşəbbüsü ilə başladılan nazirlər konfransının ötən il iyulun 16-18-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərində keçirilmiş iclasında ölkəmizi təmsil edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı məruzə ilə çıxış edib, mühüm görüşlər keçirərək Azərbaycan dövlətinin din azadlığının qorunması ilə bağlı apardığı multikultural və tolerant siyasət barədə geniş məlumat verib. Vaşinqton konfransının yekunu olaraq irəli sürülmüş din azadlığının irəlilədilməsi üzrə bəyanatların bir neçəsinə Azərbaycan tərəfi də qoşulub.

# İƏT Gənclər Forumunun nümayəndə heyəti Gəncədə Ermənistanın raket hücumlarının səbəb olduğu cinayətin izləri ilə tanış olub

Ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun rəhbəri Taha Ayhanın başçılıq etdiyi nümayəndə heyəti noyabrın 18-də Gəncəyə səfər edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mərkəzi hissəsində Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayətin izləri ilə tanış olub.



Nümayəndə heyətinə məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistan silahlı qüvvələri ətrafdakı şəhər və kəndləri, eləcə də cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alıb. Oktyabrın 11-də və 17-də Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə məqsədli şəkildə ballistik raketlərlə atəşə tutulub. Gecə saatlarında yatmış şəhərə edilmiş raket hücumları nəticəsində 1 körpə, 5 uşaq, 10 qadın da olmaqla 30-a yaxın dinc sakin həlak olub, 90-dan çox insan yaralanıb. Son günlərdə törədilmiş belə müharibə cinayətlərindən biri də 100 min əhalinin yaşadığı Bərdə rayonunun hədəfə alınmasıdır. Oktyabrın 27-də və 28-də Bərdə şəhərinin beynəlxalq səviyyədə qadağan edilmiş kasetli raketlərlə atəşə tutulması nəticəsində isə 1 uşaq, 8 qadın olmaqla 27 dinc sakin həlak olub, çoxlu sayda mülki şəxs xəsarət alıb. İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun nümayəndə heyəti erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq dağılmış evlərin ətrafına gül düzüb.

# Qalib Sərkərdə

## Bu gün Qarabağda əsgərinə əmr verən Komandan İlham Əliyevdir!



*Əvvəli 1-ci səh.*

Bu mübarizlik və mərdlik nümunəsi cəbhə xəttində yaşayan əhaliyə və işğaldan azad olunan məntəqələrə gəlməyə hazırlaşan insanlara, həmçinin Silahlı Qüvvələrimizin şəxsi heyətinə olduqca böyük ruh yüksəkliyi bəxş etdi, onlarda özünə əminlik hissini möhkəmləndirdi.

Eyni zamanda bu ərazilərə nəzarətin birmənalı Azərbaycana məxsusluğunu, dövlət və xalq olaraq torpaqlarımıza birdəfəlik qayıtdığımızı növbəti dəfə təsdiq etdi.

Əsgər arxasında qüdrətli Sərkərdənin, vətəndaş yanında güclü dövlətin, məğlub düşmən isə qarşısında onu tam zərərsizləşdirməyə qadir müzəffər Azərbaycanın olduğunu bir daha gördü!

Ali Baş Komandan qətiyyətli əsgər və zabitlərinin hərbi şücaətlərini məğrurluqla qeyd etdi!

Prezident vətəndaşlarının onu və siyasətini birmənalı dəstəklədiklərini, Qarabağa məhz onun sayəsində geri döndüklərinə görə minnətdarlığını tam aydınlığı ilə müşahidə etdi!

Lider böyük fədakarlıqla qurduğu qüdrətli və möhtəşəm dövlətin Qarabağdan daha əzəmətli görünən nailiyyətlərini məmnunluqla seyr etdi!

İlham Əliyevin şəxsi cəsarəti, mərdliyi timsalında bütünlüklə Azərbaycan övladlarının qəhrəmanlığı, igidliyi və vətənpərvərliyi təcəssüm etdi!

### İlham Əliyev Paşinyana indi onun öz evində - Ermənistanda qalib gəlir

Prezidentin və xanımının keçirdikləri görüşlərdə emosional məqamlar, vətəndaşlarla rəsmiyyətdən çox uzaq olan mehriban ünsiyyət, yüksək səmimiyyət ovqatı, duyğusallıq xüsusi nəzərə çarpırdı.

Mehriban xanım Əliyevanın telefonla etdiyi çəkilişlərdə İlham Əliyevin yol boyu rastlarına çıxan ərazilərə, düşmənin xarabalığa çevirdiyi kəndlərə, qürur rəmzlərimiz olan tarixi məkanlara həssas reaksiyası, bəzən qüssəli, çox vaxt qəzəbli münasibəti, ancaq ən əsası sabaha inam aşılayan sözləri hər birimizin qələbə ovqatını birəmin artırdı.

Ali Baş Komandan ilə Birinci vitse-prezidentin azad edilən Qarabağda çiyin-çiyinə dayanmalarının qürurverici mənzərəsi şərəflə məsuliyyətin bir-birini tamamladığı anlar idi...

Ali Baş Komandanın məğrur görkəmi, əsgər və zabitlərimizin müzəffər duruşu qalib Azərbaycan Ordusunun ən bariz hərbi təcəssümü, səmimi ictimai görüntüsü, dəqiq siyasi mənası, yüksək psixoloji effekti idi...

Erməni təxribatları nəticəsində meydana gələn hərbi gərginliyi Silahlı Qüvvələrimizin hərbi üstünlüyünə, nəticədə isə böyük zəfərə çevirmək təcrübəsinin müəllifi olan Prezident Qarabağın artıq Azərbaycanın - İlham Əliyevin nəzəratində olduğunu göstərirdi.

Ermənistanı, onun rəhbərliyini uzun illərdir beynəlxalq miqyasda, informasiya cəbhəsində mütləq uğursuzluğa salan, bölgənin iqtisadi xəritəsindən silən, bütün qlobal layihələrdən təcrid edən İlham Əliyev artıq təcavüzkarı döyüş meydanından da qovaraq, onu təslimçilik aktı imzalamağa məcbur etdi.

Artıq Qarabağda əsgərinə əmr verən Komandan İlham Əliyevdir!

Amma görünən odur ki, İlham Əliyev bununla da kifayətlənən deyil!

Prezident cəbhə bölgəsində verdiyi açıqlamalarda son savaşı "Xeyirlə Şərin mübarizəsi" kimi dəyərləndirdi və şərin nəhayət ki, məhv edildiyini bildirdi. Xüsusi vurğuladı ki, Ermənistan əhalisi indi Azərbaycanın 1992-ci ildəki durumunu yaşayır.

"Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar" - İlham Əliyevin bu müraciəti əslində, erməni xalqına veriləcək ən yaxşı, ən düzgün məsləhətdir!

Azərbaycan Prezidenti bölgədə, Qarabağda sülh yaranmasa, Ermənistanın iflasının, məhvinin daha da tezləşəcəyi faktını əsas götürür və erməni xalqına bu yeni hərbi-siyasi reallıqdan dərs almasını tövsiyə edir. İlham Əliyevin bu yanaşması artıq Yerevanda geniş əks-səda yaradıb və bu qənaətlə tam razılaşan ermənilərin sayı durmadan artır.

İlham Əliyev öz həqiqətləri, düzgün yanaşmaları ilə Ermənistanın ictimai fikrində mifləri dağıdıb və proses günü-gündən daha geniş miqyas alır!

İlham Əliyev erməni cəmiyyətində uzun onilliklər dəyişməyən vahid "miatsum" düşüncəsinə alternativ fikrin səslənməsinə rəvac verib və xalqı "Qarabağa birləşək" utopik-mümkünsüz ideyadan ayrılaraq, konkret xilas təklifləri üzərində düşünməyə yönləndirib!

Artıq ermənilər Koçaryan-Sarkisyan-Paşinyan üçlüyünün "əbədi savaş - əbədi səfalət" siyasətinin iflasını anlayaraq, ondan kütləvi şəkildə üz döndərir və öz gələcəkləri üçün İlham Əliyevin "Qarabağda sülh - Qafqazda inkişaf - erməni xalqının rifahı" təklifini dəstəkləyirlər!

İlham Əliyev Paşinyana indi onun öz evində - Ermənistanda qalib gəlir!..

### Tezliklə Qarabağda abadlıq, quruculuq, inkişaf başlayacaq

Prezidentin işğaldan azad edilmiş bölgələrdə etdiyi açıqlamaların əksəriyyəti bu ərazilərin bərpası mövzusunda idi. Onun təbirincə desək, "sanki bu torpaqlardan vəhşi bir qəbilə keçib". Bu ərazilərdə nəinki normal bir bina, heç daşı daş üstündə olan yarımtikili də qalmayıb.

İlham Əliyev o xarabalıqların üzərində dayanaraq məğrurcasına bəyanat verdi: tezliklə bütün Qarabağda abadlıq, quruculuq, inkişaf başlayacaq!

Ali Baş Komandan 4 il öncə Lələtəpədəki səngərdən "tezliklə bayrağımız Şuşada, Qarabağda dalğalanacaq" deyərkən nə qədər inamlı və əzmli idisə, indi də bu dağıntıların tezliklə gülüstana çevriləcəyini söyləyəndə bəlkə də daha artıq əmin və arxayın idi!

Prezidentin söylədiklərindən aydın oldu ki, işğaldan azad edilən bölgələrin bərpa-quruculuğu xüsusi dövlət siyasəti əsasında reallaşacaq. Öncə düşmən tərəfindən vurulmuş ziyan beynəlxalq ekspertlərin iştirakı ilə dəqiq hesablanacaq. Sonra ərazinin dəqiq uçotu aparılacaq. Azərbaycan və xarici mütəxəssislər yeni şəhərsalma planı əsasında bütün yaşayış məntəqələrinin, infrastrukturun, ekologiyanın bərpası üzrə konkret layihələr hazırlayacaqlar. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək, burada inzibati və ictimai binalar, məktəblər, tibb ocaqları, küçələr, parklar, xiyabanlar, hətta Qələbə abidələri nəzərə alınacaq. Beləliklə, bərpa-yenidənqurma işlərinə başlanılacaq. Qısa müddətdə zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar.

İlham Əliyev bu mövzuya da nidasını qoydu: "Hamısını icra edəcəyik, hamısını! Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik".

*"Qarabağ Azərbaycandır!" - bəyanatının Soçidən Xudafərinədək şərəfli taleyi, zəfər yolu oldu...*

*İlham Əliyev bu ifadəni səsləndirdikdən 13 ay sonra onun əsgəri bu milli şüarı Şuşadan car çəkdi...*

*Sabah Ağdam "Qarabağ Azərbaycandır!" deyəcək...*

*Ardınca Kəlbəcər, Laçın "Qarabağ Azərbaycandır!" hayqıracaq...*

*Bütün millət və məmləkət isə böyük şükranlıq və əbədi minnətdarlıqla hər zaman deyəcək:*

*Qalib Azərbaycandır!*

*Qarabağ Azərbaycandır!..*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***



# Türkiyə-Azərbaycan birliyi bölgəyə sülh və sabitlik gətirir

## Maraqlara deyil, dəyərlərə əsaslanan münasibət

*Əvvəli 1-ci səh.*

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə həmin məsələyə diqqət çəkərək birmənalı şəkildə bildirmişdir ki, bu, tarixin sınaqlarından çıxmış dostluq, qardaşlıq münasibətlərinin növbəti təntənəsidir: "Bu bayram qardaş Türkiyədə bizdəki kimi qeyd olunur. Bu, təbiidir. Çünki biz bir millət, iki dövlətik. Bu günlər ərzində əziz Qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana dəfələrlə öz təşəkkürümü bildirmişəm. Dünən də telefonla danışmışıq. Yenə də təşəkkürümü bildirdim. Türkiyənin siyasi və mənəvi dəstəyi bu Qələbənin qazanılmasında çox böyük rol oynamışdır. Çünki Prezidentin, Qardaşımın ilk saatlardan dediyi "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözləri bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi. Bütün bu dövr ərzində həm Prezident, həm nazirlər, vəzifəli şəxslər daim bizə öz dəstəyini ifadə etmişlər. Görürsünüz, nə qədər heyətlər gəlir. Demək olar ki, hər həftə Türkiyədən bir neçə heyət gəlir. Türkiyədən bizə dəstək və həmrəylik nümayişi Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir".

### Haqq işimizə dəstək

Türkiyə hərbi əməliyyatların ilk günündən Azərbaycanın haqq davasında öz dəstəyini əsirgəmədi. Dağlıq Qarabağ münaqişəsində tarixi, hüquqi, mənəvi ədalətin bərqərar olması üçün səsimizə səs verdi. Dünyadakı gücü, təsir imkanları ilə Azərbaycanı ermənilərin havadarlarından qorudu. Torpaqlarımızı da özlərinin hünəri hesabına deyil, məhz havadarlarının əli ilə zəbt etmiş erməni işğalçılarının bu dəfə döyüş meydanında qəhrəman Azərbaycan əsgəri ilə üz-üzə qalmasına şərait yaratdı.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla bu ölkənin ən yüksək mənsəbli dövlət rəsmiləri, millət vəkilləri, cəmiyyətin nüfuzlu simaları Azərbaycanın yanında olduqlarını bütün dünyaya açıq şəkildə çatdırdılar. Xalqımıza qarşı kənar təhdidləri uzaqlaşdırdılar. Türkiyə vətəndaşları Azərbaycanın haqq davasını bütün beynəlxalq aləmə çəkinmədən bəyan etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına verdiyi müsahibəsində haqlı olaraq bildirdi ki, əgər toqquşmaların ilk saatlarında Türkiyədən bu dəqiq mesajlar gəlməsəydi, bəlkə də bu işlərə başqaları qarışa bilərdi: "Türkiyənin bu mesajları hər kəsə "dur" dedi. Azərbaycan tək deyil. Türkiyə işin sonuna qədər Azərbaycanın yanındadır. Əlbəttə ki, bu gün Azərbaycan-Türkiyə birliyi artıq çox ciddi geosiyasi amilə çevrilibdir və bu, müsbət amildir. Bizim birliyimiz hər hansı bir ölkənin maraqlarına qarşı deyil. Biz, sadəcə olaraq, öz maraqlarımızı müdafiə edirik, öz yolumuzu davam etdiririk. Heç kim bizim işimizə qarışmasın... Sadəcə, biz deyirik ki, bizə də dəyməyin, kənarda durun. Dost olaq, tərəfdaş olaq, işbirliyi edək. Amma sizinki sizdə, bizimki bizdə. Biz bunu istəyirik və buna haqqımız çatır".

### Bir nömrəli müttəfiq: qoşa qanada çevrilmiş bayraqlar

Terroru dövlət siyasətinə çevirmiş Ermənistan döyüşlərdə ordumuzun qarşısında aciz durumda qaldı. Və hünər meydanındakı məğlubiyyətlərinin acısını yenə də öz terrorçu, faşist xislətinə uyğun olaraq mülki əhalinin qətliamı ilə çıxmağa çalışdı. Gəncədə, Bərdədə, Tərtərdə kütləvi sayda mülki əhalini qətlə yetirdi. Nə qədər mülki sakinimizin - körpələrin, qadınların, yaşlıların ölümünə bais oldu. Bu məqamlarda da Türkiyənin varlığını hiss etməyimiz, bu ölkənin dövlət rəsmilərinin Ermənistanın terrorçu siyasətinə qarşı verdikləri bəyanatlar, çağırışlar, Azərbaycana vaxtaşırı səfərləri böyük təsəllimizə çevrildi. Türkiyənin yüksək çinli dövlət rəsmiləri, nüfuzlu simaları ölkəmizə səfərlərini yenə davam etdirir, dövlət başçısı ilə görüşlərində, bəyanatlarında, müsahibələrində Türkiyənin hər an yanımızda olduğunu, qardaş Azərbaycanın timsalında haqqın, ədalətin bərpasında sonadək səy göstərəcəklərini bildiriblər. Türkiyənin hətta ən kritik hadisələr zamanı da ölkəmizi diqqətdən kənarda qoymaması, apardığımız haqq davasını nəzərində saxlaması Dağlıq Qarabağ məsələsinin bizim qədər Türkiyə üçün də şərəf məsələsi olduğunu göstərir.

Bu günlərdə Türkiyənin İzmir şəhərində baş verən təbii fəlakət, zəlzələ azərbaycanlıların da dərin kədərinə səbəb oldu. Belə bir vaxtda Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun, Türkiyə Respublikasının keçmiş Baş Naziri, Türkiyə Böyük Millət Məclisinin sabiq sədri, millət vəkili Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyətlərinin ölkəmizə səfərləri qardaş ölkənin Azərbaycana dəstəyinin əyani göstəricisi kimi hər birimizi mütəəssir etdi. TBMM-nin Sədri Mustafa Şentopun, Türkiyə Gənclər Fondunun, Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin nümayəndələrinin ölkəmizə və Gəncəyə gəlişləri, Türkiyə parlamentində təmsil olunan 4 partiyanın Azərbaycana birmənalı dəstək verməsi iki ölkə arasındakı dostluğun sarsılmaz tarixçəsinə çevrildi.

Azərbaycan xalqı təbii ki, bütün bunları böyük sevgi və məmnunluq hissi ilə izləyir. Evlərin eyvanlarında, iş yerlərində, avtomobillərində, küçələrdə Azərbaycan bayrağı ilə yanaşı Türkiyə bayrağının da olması qardaş ölkəyə sonsuz minnətdarlığın ifadəsidir. Bu tarixi anlar göstərir ki, biz bütün dövrlərdə - həm yaxşı, həm də çətin günlərdə bir-birimizin yanındayıq. Bu siyasi və mənəvi dəstək hər birimizi kənar maneəyə məhəl qoymadan haqq işimizi davam etdirməyə ruhlandırır. Bizi ədalət uğrunda apardığımız mübarizəyə daha da səfərbər edir.

Türkiyə Azərbaycanın qələbəsindən sonra ərazidə sülhün qorunması prosesində də yaxından iştirak edəcək. Bu məqsədlə yaradılacaq Monitorinq Mərkəzində Türkiyə hərbçiləri də xidmət aparacaqlar. Burada sülhün qorunmasına öz töhfələrini verəcəklər. Artıq bununla bağlı müvafiq memorandum imzalanıb. Türkiyə Böyük Millət Məclisi Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycana sülhməramlıların göndərilməsinə dair qərar layihəsini təsdiqləyib. Türk hərbi heyəti Qarabağda qurulacaq Türkiyə-Rusiya müşahidə mərkəzində bir il müddətinə fəaliyyət göstərəcək. Ehtiyac olduqda müddət artırılacaq.

### Azərbaycan tək deyil

Bu gün dünyada Azərbaycanla Türkiyə qədər bir-birinə yaxın olan, bir-birinə güvənən, qarşılıqlı dəstək verən və regionun inkişaf dolu gələcəyi üçün birgə çalışan başqa iki ölkə yoxdur. Bu, ilk növbədə, təbii ki, mənəvi bağlılıqlarımızdan, ortaq tariximizdən, mədəniyyətimizdən gəlir. Amma etiraf edək ki, dünyada tarixi bağlılıqlar etibarilə bir-birinə çox yaxın olub, amma müasir reallıqlardan irəli gələn hansısa maraqlara görə bir-birinə düşmən kəsilən, hətta qanlı müharibələr aparan xalqlar, dövlətlər də var. Ona görə hazırda Azərbaycanla Türkiyə arasındakı münasibətlərin bu səviyyədə olmasının bir əsas səbəbi də iki ölkənin dövlət rəhbərlərinin dostluq, qardaşlıq münasibətləridir.

Müasir dünyamızın iki parlaq lideri kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bu münasibətlərə nail ola biliblər. Onlar Azərbaycan - Türkiyə arasındakı münasibətləri iki qonşu ölkə arasındakı sıradan bir diplomatik əlaqələri iqtisadi-ticari tərəfdaşlıqların fövqünə ucalda biliblər. Bunu xarakterlərindəki ulu əcdadlarımıza xas comərdlik, qarşılıqlı güvən, verdikləri vədi tutmaları, səsləndirdikləri sözə də imzaları qədər dəyər vermələri ilə bacarıblar.

Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı haqqında səsləndirdiyi səmimi sözlər bir liderin digəri haqqında rəyindən də çox, bir insanın öz doğma qardaşının uğurları ilə qürur duyması qədər xoş, sevindirici və fərəhlidir. Bu il oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində ölkə rəhbərimiz demişdir: "Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən. Təbii ki, mən bu işlərə qarışa bilmərəm. Amma bir insan kimi buna biganə qala bilmərəm. Çünki onun Türkiyə üçün gördüyü işlər genişmiqyaslıdır və bu gün Türkiyəni onun kimi sevən, onun maraqlarını müdafiə edən, öz sinəsini irəli verən ikinci bir insan yoxdur Türkiyədə. Bunu hər kəs bilməlidir. Azərbaycanda bunu hər kəs bilir. Türkiyədə də bir çoxları bilir, amma bilməyənlər üçün də mən demək istəyirəm ki, onlar da görsünlər. Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm. Ona bundan sonra da müvəffəqiyyətlər diləmək istəyirəm. Onun sözləri, onun addımları, onun varlığı bütün türk dünyası üçün önəmlidir və türk dünyasının birləşməsi, işbirliyinin dərinləşməsi istiqamətində biz bundan sonra da böyük səylər göstərəcəyik".

### Regionun gələcəyinə aydın baxış

İki ölkə rəhbəri arasındakı bu doğmalıq Azərbaycan və Türkiyə arasındakı ikitərəfli əlaqələrin bütün sahələrdə daha da genişlənməsinə öz müstəsna töhfələrini verir. Bu iki parlaq liderin gələcəyə aydın baxışının, həyata keçirdikləri düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq Azərbaycanla Türkiyə arasında bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat, ticarət, humanitar, regional təhlükəsizlik, hərbi və digər sahələrdə əməkdaşlıq ən yüksək səviyyədədir.

Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması, Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə Bakının Azadlıq meydanında keçirilmiş hərbi parad, Türkiyədə "STAR" neft emalı zavodunun fəaliyyətə başlaması, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP kimi enerji layihələri hər iki ölkə arasındakı birliyin, qardaşlığın möhtəşəm təntənəsidir.

Azərbaycanın haqq işinə digər türkdilli dövlətlərdən də müəyyən səviyyələrdə dəstək gəlir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Ticarət və Sənaye Palatasının noyabrın əvvəlində Bakıda keçirilən növbədənkənar toplantısı bunun bir nümunəsi idi. Toplantıda iştirak üçün paytaxtımızda qonaq olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi Azərbaycan Prezidenti də qəbul etdi. Dövlət başçısı İlham Əliyev Azərbaycanın hazırda Vətən müharibəsi apardığı günlərdə bu toplantının xüsusi önəm daşıdığını vurğuladı: "Biz bunu bizə göstərilən dəstək və həmrəylik əlaməti kimi qəbul edirik, buna görə sizə təşəkkür edirik. Bu, növbədənkənar toplantıdır və bunun əsas məqsədi ölkəmizə mənəvi dəstəyin göstərilməsidir".

Bütün bunlar türk dünyasının birliyinə, Azərbaycan Prezidentinin illər əvvəl də bəyan etdiyi kimi, XXI əsrin Türk dünyası əsrinə çevrilməsi üçün atılan xoş addımlardır. Eyni soy-kökə, ortaq tarixə, mədəniyyətə və müasir dünyamızda üst-üstə düşən iqtisadi-siyasi maraqlara malik türkdilli ölkələrin bir-birinin yanında olmasıdır. Hər kəs üçün faydalı münasibətlər mühitinin formalaşdırılması və inkişaf etdirilməsidir. Bu gün Azərbaycan və Türkiyə arasındakı qardaşlıq münasibətləri başqa türkdilli ölkələr üçün də birlik modeli yaradır, nümunə göstərir. İki ölkənin təşəbbüsü ilə irəli sürülən qlobal layihələrdə digər türkdilli dövlətlərin də maraqları uzlaşır. Türk dünyasının möhkəm, dayanıqlı birliyi üçün zəmin gücləndirilir.

Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan - Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. İki qardaş ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir. Cənubu Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs bundan yalnız faydalanacaq.

Azərbaycan və Türkiyə bu gün regionda yeni bir reallıq yaradır. Qarabağ savaşı Böyük Qələbəmizlə başa çatandan sonra Cənubi Qafqaz çox ciddi və mühüm bir başlanğıca qədəm qoyur.

O başlanğıcın adı Sülhdür!

Sabitlik və İnkişafdır!

Bəşəriyyətin xoşbəxtliyi üçün çalışmaq istəyənlərin əl-ələ verib gələcəyə doğru addımlamasıdır!

Biz buna nail olacağıq!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Dövlətçilik tariximizin ən şərəfli zəfəri



## Ordumuzun müzəffər yürüşü

**Milli Ordumuz 44 günə şanlı tarix yazdı. Başda Ali Baş Komandan İlham Əliyev olmaqla, əsgər və zabitlərimiz döyüş meydanında şücaət göstərərək, qəhrəmanlıq nümayiş etdirib, düşmənin silahlı qüvvələrinə ağır zərbələr vuraraq torpaqlarımızı işğaldan azad edib.**

Bu gün hər bir Azərbaycan vətəndaşı inanır ki, zəbt olunmuş ərazilərimiz mənfur təcavüzkarın tapdağından tamamilə təmizlənəcək, məcburi köçkünlərimiz öz torpaqlarına qayıdacaqlar. Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, doğma Qarabağda həyat davam edəcək.

Məlumdur ki, müharibə heç vaxt itkisiz olmur. Polad iradəli Azərbaycan oğulları Vətən uğrunda canlarını qurban verir, şəhidlik zirvəsinə ucalırlar. Otuz ilə az qalır ki, işğalçı Ermənistan havadarlarının sayəsində tarixi ərazilərimizdə, Qarabağ və onun ətrafındakı digər məkanlarımızda xalqımıza qarşı etnik təmizləmə siyasəti aparıb. Biz səbirlə dözmüşük. Çünki dövlətimizi və ordumuzu inkişaf etdirmək əsas məsələlərdən idi. Xalqımızın səbri tükənsə də, dözdü, dayandı, çirkin niyyətlilərin zamanı gələndə layiq olduqları cavabı alacaqlarına olan inamı azalmadı.

Hələ 2003-cü ildə Prezident kimi andiçmə mərasimində cənab İlham Əliyev vəd etmişdir ki, ölkəmizdə bir dənə də çadır şəhərciyi qalmayacaq, qalmadı! Ermənistanın təcavüzkarlığı nəticəsində doğma torpaqlarından məcburi köçkün düşmüş soydaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması sosial siyasətin prinsiplərindən biri kimi daim diqqət mərkəzində saxlandığı da göz qabağındadır.

Ali Baş Komandan ona da əmin idi ki, xalq-dövlət-ordu birliyi işğalda qalan tarixi ərazilərimizi tam azad edəcək və həmin yerlərə yeni növraq gələcək. Bütün bunların isə zamana ehtiyacı var idi. Bu gün bu vədin də gerçəkləşdiyinin xoşbəxt şahidləriyik!

Müstəqil dövlətimizin şanlı zəfər tarixini yazan Ordusu Ermənistanın təcavüzkarlığına layiqli cavab verir! Qələbə sevincləri bir-birinin ardınca yaşanır. Ali Baş Komandan İlham Əliyevdən eşitdiyimiz qələbə xəbərləri ermənilərin və onların havadarlarının canına üşütmə salıb. 2016-cı ilin aprelində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin, eləcə də zəfər salnaməmizin yazıldığı Lələtəpənin düşməndən azad edilməsi ilə təsdiqləmişdik ki, bir qarış torpağımız yağı tapdağında qalmayacaq! Təcavüzkar Ermənistanın istər diplomatiya, istərsə də döyüş meydanlarındakı məğlubiyyəti daha özünü gizlədə bilmir.







Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin telemüsahibələrində səsləndirdiyi fikirlər dünya ictimaiyyətində birmənalı şəkildə kimin haqlı, kimin haqsız olmasını ortaya qoydu. O da bir daha aydın oldu ki, münaqişənin bu qədər müddətə uzadılmasında kimlərin məqsədi var: Ermənistanın və onları müdafiə edən ATƏT-in Minsk qrupu üzvlərinin!

Bəli, aradan keçən 28 il ərzində Ermənistan-Azərbaycan münaqişəsinin sülh danışıqları yolu ilə həlli üçün yaradılan ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi tərəfləri qarşı-qarşıya gətirdi. Ötən müddət ərzində münaqişə tərəflərinin sülhə nə qədər yaxın-uzaq olması dəfələrlə özünü göstərdi. Ermənistanın hər dəfə atəşkəsi, hətta, dövlət sərhədini pozaraq, dinc sakinlərimizi, mülki əhalimizi, ön cəbhədən xeyli uzaq (Tovuz, Gəncə, Mingəçevir şəhərlərini, Abşeron, Siyəzən, Yevlax, Bərdə rayonlarını və s.) yaşayış məntəqələrimizi ağır artilleriyadan, eləcə də ballistik raketlərdən atəşə tutması nəticəsində xeyli itkilər, dağıntılarla üzləşdik. Lakin bütün bunlar xalqımızı nə qorxudur, nə də çəkindirir.

Azərbaycan Ordusunun qələbə müjdələri davam edir. Düşmən artıq özünün məğlubiyyətini etiraf etdiyi halda, onun havadarlarının əndişəsi nə xalqımızı, nə də ordumuzu haqq yolundan çəkindirə bilər!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## Prezident İlham Əliyev Azərbaycanın Qarabağda pozulmuş hüquqlarını tam bərpa etdi

**İşğal altında olan torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi Azərbaycanın möhtəşəm Qələbəsi ilə başa çatdı. Savaşın bu cür uğurlu sonluqla yekunlaşacağı əvvəldən bəlli idi. Çünki biz haqq işi uğrunda mübarizə aparırdıq və Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuz öz vəzifəsini layiqincə yerinə yetirdi. Cəmi 44 gün ərzində işğal altında olan torpaqlarımızın böyük bir qismi azad olundu.**

### Bütün şərtləri qalib Azərbaycan diktə edir

27 il idi işğal altında olan Füzuli, Cəbrayıl, Zəngilan Qubadlı rayonlarında indi Azərbaycan bayrağı dalğalanır. Tərtərin, Xocavəndin, Laçının, Xocalının bir sıra kəndləri 44 günlük döyüşlərdə işğaldan təmizləndi. Nəhayət noyabrın 9-da Şuşanın azad edilməsindən sonra işğalçı Ermənistan Azərbaycanın şərtləri daxilində kapitulyasiyaya məcbur oldu.

44 gün ərzində ordumuz işğal altında olan 300-ə yaxın kəndi, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəklikləri azad etdi. Qoşunlarının əsas hissəsini Dağlıq Qarabağda saxlayan Ermənistanın hərbi texnikası tam məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Atəşkəs ərəfəsində işğalçı ordu artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, başıpozuq dəstələri xatırladırdı.

Prezident İlham Əliyev hələ hərbi əməliyyatların başlandığı ilk günlərdən Ermənistan qarşısında şərtlərini açıqlamışdı. Bu şərtlərə əsasən, düşmən işğal etdiyi Azərbaycan torpaqlarından qoşunlarının çıxarılması ilə bağlı qrafik verməli idi. Əgər vaxtında Ermənistanın siyasi-hərbi rəhbərliyi bu şərtləri qəbul etsəydi, döyüş meydanlarında minlərlə erməni əsgəri həlak olmazdı. İndi Ermənistanda bu məğlubiyyətə görə baş nazir N.Paşinyanı vaxtında düzgün qərarlar verməməkdə ittiham edirlər. Xüsusən müxalifət təmsilçiləri bildirirlər ki, Ermənistanın Azərbaycan qarşısında məğlubiyyətinin qaçılmaz olduğu bilinəndə baş nazir müharibənin dayandırılması üçün Azərbaycan Prezidenti İlham Əliyevin şərtlərini qəbul etməliydi.

Amma artıq gecdi. Bu gün Dağlıq Qarabağ probleminin həlli ilə bağlı tamamilə yeni reallıq yaranıb. Hətta müharibənin əvvəli və sonu arasında reallıqlar fərqlidi. Ermənilərin Dağlıq Qarabağda respublika yaratmaq iddialarına tamamilə son qoyulub. İndi Ermənistan faşist Almaniyasının taleyini yaşayır. Artıq bütün şərtləri qalib Azərbaycan diktə edir.

### Ermənistana vurulan hüquqi-siyasi, iqtisadi və mənəvi zərbə

Azərbaycan bu müharibədə Ermənistana elə bir siyasi, iqtisadi və həm də mənəvi zərbə vurdu ki, işğalçı dövlət çətin bunun altından çıxsın. Hüquqi-siyasi zərbə ondan ibarətdir ki, bu məğlubiyyətlə Ermənistanın müasir tarixinin ən biabırçı səhifəsi yazıldı. Məlum olduğu kimi, dünya erməniliyi, erməni diasporu əsrlər boyu bütün dünyada "məzlum erməni xalqı" obrazını yaratmışdı. Təəssüf ki, bir çox hallarda onlar məqsədlərinə nail olmuş, ayrı-ayrı ölkələri öz çirkin niyyətlərinə inandıra bilmişdilər. Lakin bu müharibə bütün dünyada ermənilərlə bağlı yaranmış stereotipləri demək olar ki, kökündən dəyişdi.

Hərbi əməliyyatların davam etdiyi 44 gün ərzində heç bir beynəlxalq təşkilat Ermənistanın müdafiəsinə qalxmadı. Azərbaycan isə BMT-nin Nizamnaməsinin 51-ci maddəsinə əsasən öz hüquqlarını müdafiə etdiyini ilk gündən bəyan etdi. BMT Nizamnaməsinin 51-ci maddəsində yazılır ki, bu nizamnamədə heç nə təcavüzə məruz qalmış dövlətin fərdi və ya kollektiv özünümüdafiə haqqını gerçəkləşdirməsini əngəlləmir. Eyni zamanda Fransa istisna olmaqla, dünyanın heç bir dövləti açıq şəkildə Ermənistanı müdafiə etmədi. Beləliklə, Ermənistan siyasi baxımdan beynəlxalq ictimaiyyətdən dəstək almadı və bütün bunların fonunda beynəlxalq ictimaiyyət işğalçının məhz Ermənistan olduğunu gördü.

Erməni yalanlarına başqa bir zərbəni Prezident İlham Əliyev öz müsahibələri ilə vurdu. Dövlət başçısı müharibənin ilk günlərindən sonuna qədər tanınmış xarici KİV-ə verdiyi müsahibələrdə Dağlıq Qarabağ problemi ilə bağlı hüquqi məsələləri ən yüksək səviyyədə dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Cənab İlham Əliyev Dağlıq Qarabağın məhz Azərbaycan torpaqları olmasının hüquqi tərəflərini mükəmməl şəkildə izah etdi. Hətta erməni lobbisinin tapşırıqları ilə suallar ünvanlayan bəzi xarici KİV təmsilçiləri cənab Prezidentin cavabları qarşısında mövzunu dəyişməyə məcbur oldular.

Bu müharibənin Ermənistana vurduğu iqtisadi zərbənin təsiri də ölçüyəgəlməzdir. Milyardlarla dollar ziyanın yerini doldurmağa bu vəziyyətdə onilliklər də bəs etməyəcək. Təbii ki, bu fonda sosial sferada Ermənistanda vəziyyət daha da kəskinləşəcək.

Ən mühümü odur ki, Azərbaycan Ermənistana sağalmaz mənəvi zərbə vurdu. Düşmənin öz ordusu ətrafında yaratdığı mif darmadağın edildi, erməni xalqının tarixi, yenilməzliyi ilə bağlı sərsəm iddialar alt-üst oldu. İndi erməni xalqı üçün dünyada işğalçı kimi tanınmaq, həm də döyüş meydanında məğlub olmaq ən böyük mənəvi zərbədir. Əslində, işğal yolunu özləri seçmişdilər və belə bir taleyi yaşamaq da öz haqlarıdır.

### İşğalçı güc yolu ilə BMT qətnamələrini yerinə yetirməyə məcbur edildi

Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən, işğalçı qoşunların qalıqları noyabrın 20-dək Ağdam, noyabrın 25-dək Kəlbəcər, dekabrın 1-dək isə Laçın rayonlarını tərk edəcəklər. Bu sənəd Ermənistanın məğlubiyyətinin hüquqi təsdiqidir. Beynəlxalq təşkilatların da bu razılaşmanı təqdir etmələri göstərdi ki, dünya ictimaiyyəti Ermənistanın kapitulyasiyasına tərəfdardır.

Qeyd edim ki, işğalçı qoşunların Kəlbəcərdən çıxarılması BMT-nin 822 saylı, Ağdamdan çıxarılması isə 853 saylı qətnamələrinin tələblərinin yerinə yetirilməsidir. 822 saylı qətnamə BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü il aprelin 30-da qəbul edilib. Sənəddə işğalçı qüvvələrin Azərbaycanın Kəlbəcər rayonunu və digər işğal olunmuş rayonları dərhal tərk etməsi tələb olunurdu.

1993-cü ilin iyul ayının 23-də Ermənistan silahlı birləşmələri Ağdam rayonunu işğal etdi. Bu hadisə göstərdi ki, Ermənistan BMT TŞ-nin qəbul etdiyi 822 saylı qətnaməyə əhəmiyyət vermir. BMT TŞ-nin iyulun 29-da keçirilən iclasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair növbəti - 853 saylı qətnamə qəbul olundu. Sənəddə bütün hərbi əməliyyatların dərhal dayandırılması, işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycanın digər işğal edilmiş rayonlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi.

Lakin sonrakı müddətdə Ermənistan bu qətnamənin də tələblərini yerinə yetirməkdən imtina edib. Bu baxımdan Kəlbəcərin və Ağdamın azad edilməsi ilə BMT-nin sözügedən qətnaməsi də icra ediləcək. İşğalçı Ermənistanı bu tələbi yerinə yetirməyə isə güc yolu ilə Azərbaycan məcbur edir.

Üçtərəfli bəyanata əsasən, Kəlbəcər noyabrın 15-dək təhvil verilməli idi. Lakin Ermənistan tərəfi yalnız bir yolun olması səbəbindən Rusiya vasitəsilə vaxtın uzadılması üçün müraciət edib. Azərbaycan bunu nəzərə alaraq, humanistlik nümayiş etdirib və Kəlbəcərin noyabrın 25-dək təhvil verilməsinə razılıq verib. Lakin bu günlərdə Kəlbəcər rayonunda baş verən vandallıq əməlləri ermənilərin həm də bir xalq olaraq hansı xislətə malik olduqlarını göstərdi. Ərazini tərk edən ermənilər Kəlbəcərdəki mülki obyektləri yandırır, ağacları kəsərək ətraf mühitə ciddi ziyan vurur, ekoloji terror həyata keçirirlər. Eyni zamanda maddi mədəniyyət abidələrinə qarşı vandalizm aktları törədilir. Təbii ki, Kəlbəcərin azad edilməsindən sonra bütün bunlar qiymətləndiriləcək və Ermənistanın bu cinayət əməlləri ilə bağlı beynəlxalq məhkəmələrə müraciətlər olunacaqdır.



### Düşmənə qarşı təzminat davası açılacaq

Ümumiyyətlə, hazırda qarşıda duran əsas vəzifələrdən biri işğal dövründə Ermənistanın Azərbaycana vurduğu zərərin hesablanması və işğalçı barədə beynəlxalq hüququn tələblərinə uyğun ölçü götürülməsidir. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş dağıntılar 30 illik proses çərçivəsində ayrıca qiymətləndiriləcək. Məlum olduğu kimi, əvvəllər bu məsələni qaldıran zaman həmin ərazilərə giriş imkanı olmayıb, real faktlar əsasında bunu ortaya qoymaq çətin idi. İndi isə həmin ərazilər işğaldan azad edilib.

Bu günlərdə Cəbrayıl və Füzuli rayonlarına səfər edən Prezident İlham Əliyev Ermənistanın Azərbaycana vurduğu zərərə xüsusilə toxundu. Cəbrayıl şəhərinin mərkəzini göstərən cənab Prezident ermənilərin bir dənə salamat bina qoymadıqlarını bildirdi: "Beynəlxalq məhkəmələrdə cavab verəcəklər. Mən demişəm, bir dəfə də demək istəyirəm ki, beynəlxalq qurumlar gələcək, ekspertlər gələcək. Bütün ziyan hesablanacaq. 30 il ərzində bizə vurulmuş ziyan hesablanacaq və onlara qarşı təzminat davası açılacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək".

Azərbaycan Ordusunun Qarabağı və ətraf rayonlarımızı işğaldan azad etməsi ilə bu torpaqlarla bağlı xalqımızın milli hüquqları bərpa edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan dövlətinin yeganə hərbi problemini həll etdi.

Qarşıdakı dövrdə isə Ermənistan beynəlxalq hüquq müstəvisində cəzalandırılmalıdır. Döyüş meydanındakı Qələbəmiz tam əsas verir ki, Ermənistan Azərbaycana vurduğu mülki zərərə görə də kompensasiya ödəməyə məcbur edilsin.

*Bu möhtəşəm zəfəri bütün xalqımız kimi, o cümlədən peşə bayramlarını qeyd etməyə hazırlaşan ədliyyə işçiləri də dövlətçiliyimizin ən şərəfli məqamı kimi qarşılayır, bu müzəffər Qələbəni bizlərə yaşadan Ali Baş Komandana və Silahlı Qüvvələrimizə əbədi minnətdarlığımızı, borcumuzu bildiririk.*

***Marif KAZIMOV,***
***Gədəbəy Rayon Məhkəməsinin sədri***

# Azərbaycan Sahibkarlar Konfederasiyası “Azərbaycanın sosial və iqtisadi inkişafının yeni dövrü” mövzusunda iclas keçirmişdir

**Dünən Azərbaycan Sahibkarlar Konfederasiyası Rəyasət Heyətinin geniştərkibli iclası keçirilib. “Azərbaycanın sosial və iqtisadi inkişafının yeni dövrü” mövzusuna həsr olunan görüşdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın möhtəşəm zəfəri nəticəsində işğaldan azad edilmiş ərazilərdə gələcək biznes imkanları müzakirə edilib və Azərbaycan Sahibkarlar Konfederasiyasının bu ilin yanvar-oktyabr ayları üzrə hesabatı dinlənilib.**

İclası Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev açaraq ölkəmizin torpaqlarının işğaldan azad olunması uğrunda 44 gün davam edən Vətən müharibəsində əldə edilən şanlı Qələbə münasibətilə iştirakçıları təbrik edib. Bu qürurlu tarixi öz qanları ilə yazan şəhidlərimizin müqəddəs ruhu bir dəqiqəlik sükutla yad olunub.

Konfederasiya prezidenti ordumuza, xalqımızın haqq işinə göstərdikləri böyük dəstəyə, vətənpərvərliklərinə görə Azərbaycan sahibkarlarına öz təşəkkürünü bildirib.

“İndi növbə sahibkarlarındır, işğaldan azad olunan rayonların bərpasında, iqtisadi cəhətdən dirçəldilməsində sahibkarların üzərinə böyük və şanlı vəzifələr düşür. Hökumətlə dialoq formasında işləməliyik, bizdən yeni təkliflər gözləyirlər”, - deyə M.Musayev qeyd edib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının bu ilin 10 aylıq fəaliyyətinin hesabatını konfederasiyanın vitse-prezidenti Vüqar Zeynalov təqdim edib. O, konfederasiyanın iqtisadiyyatın inkişafı istiqamətində əldə etdiyi nailiyyətlər və görülən işlər barədə məlumat verib.

Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Zakir Nuriyev “Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın möhtəşəm zəfəri nəticəsində işğaldan azad edilmiş ərazilərdə gələcək biznes imkanları” mövzusunda çıxış edib. O bildirib ki, işğaldan azad olunmuş torpaqlar ölkəmizin iqtisadi potensialının artmasında və ÜDM-in formalaşmasında yeni imkanlar açacaq. Hazırda bu ərazilər investisiya yatırımları üçün cəlbediciliyi ilə seçilir. Z.Nuriyev azad olunan ərazilərin kənd təsərrüfatı potensialını xüsusi diqqətə çatdıraraq bununla bağlı məlumatları sahibkarlara təqdim edib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti və Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov Vətən müharibəsi dövründə sahibkarların xalqımıza, ordumuza fəal dəstək göstərmələrindən qürur duyduğunu vurğulayıb. “İndi Naxçıvan sahibkarlarına Qarabağ Bakıdan daha çox yaxındır. Naxçıvan sahibkarları azad olunmuş torpaqlarımızın iqtisadi cəhətdən dirçəlməsinə bir vətənpərvər kimi öz töhfəsini verəcək”, - deyən V.Abbasov Naxçıvanla Azərbaycanın qərb rayonları arasında quru əlaqəsi üçün açılacaq dəhlizin iqtisadi səmərəsi haqqında məlumat verib.

Konfederasiyanın vitse-prezidenti Zakir Əzimov təqdim olunan hesabatı müsbət qiymətləndirib. O, azad olunmuş torpaqlarda aqrar sahənin inkişafı üçün böyük imkanların olduğunu vurğulayıb. “Bu torpaqlar çox məhsuldardır, neçə illərdir dingə qalıb. Ekoloji təmiz məhsulların becərilməsi üçün əvəzsizdir. Zəngilanın meyvəçilik potensialını xüsusi vurğulamaq istərdim”, - deyən Z.Əzimov planlı şəkildə iş qurmağın tərəfdarı olduğunu bildirib.

Vitse-prezident Jalə Hacıyeva mikromaliyyə təşkilatlarının bu proseslərdə iştirakı ilə bağlı təkliflər hazırlandığını söyləyib. ASK Rəyasət Heyətinin üzvləri Süleyman Qasımov, Məmməd Abdullayev, Abbas İbrahimov, Ruslan Quliyev, Şahin Məmmədov, Savaş Uzan, Taleh Qasımov, İlqar Nuri, Səkinə Babayeva və iclasda iştirak edən digər sahibkarlar təkliflərlə çıxış ediblər.

İclas sahibkarlar adından Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə müraciətin qəbul olunması ilə işini yekunlaşdırıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

## Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin MÜRACİƏTİ

**Möhtərəm cənab Prezident!**
**Müzəffər Ali Baş Komandan!**

2020-ci ilin 10 noyabrı Azərbaycan tarixinə Böyük Qələbə günü kimi daxil oldu. Azərbaycan sahibkarları da bütün xalqımız kimi bu şanlı Qələbəni, əzəli, tarixi torpaqlarımızın işğaldan azad edilməsini və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini bayram edirlər.

44 günlük Vətən müharibəsi Ümummilli Liderimiz Heydər Əliyevin layiqli davamçısı və Ali Baş Komandan kimi Sizin, Azərbaycan Ordusunun, xalqımızın möhtəşəm zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Sizin qətiyyətiniz, siyasi iradəniz, uzaqgörənliyiniz, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmazlığı, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq.

30 illik münaqişəni 44 günə sona çatdıran bu müharibə dünya hərb tarixinə misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarixboyu şanlı qürur mənbəyimiz olaraq qalacaqdır.

Tarixi Azərbaycan torpaqlarını işğaldan fədakarlıqla azad etmiş igid oğullarımızın və şəhidlərimizin qarşısında baş əyirik. Şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaqlar. Onların igidliyini heç zaman unutmayacağıq!

Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu müasir Azərbaycanın inkişaf strategiyasının zati-aliləriniz tərəfindən müdriklik və böyük uzaqgörənliklə davam etdirilməsi nəticəsində son illərdə Dövlət-Xalq-Ordu həmrəyliyi və milli birlik daha da güclənmişdir. Məhz bu birlik və bərabərlik Azərbaycanın siyasi, iqtisadi və sosial inkişafının təməlini təşkil edir.

Məhz Sizin yorulmaz diplomatik səyləriniz nəticəsində beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə etmiş, Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi istiqamətində aparılan haqlı müharibə bir sıra ölkələr və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənmişdir.

Ötən 30 il ərzində münaqişənin sülh yolu ilə nizama salınması üzrə danışıqlar prosesində Azərbaycan xalqının iradəsi bizim sülh tərəfdarı olduğumuzun əyani sübutudur. Zəbt edilmiş bütün Azərbaycan ərazilərindən işğalçıların dərhal, qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə Ermənistan 27 il məhəl qoymamışdır.

Bütün dünyaya məlumdur ki, rəşadətli ordumuz qarşısında məğlub olan Ermənistan öz mənfur xislətinə sadiq qalaraq cəbhə bölgəsindən uzaqda yaşayan dinc sakinləri qadağan olunmuş silahlardan atəşə tutdu. Nəticədə 94 mülki vətəndaşımız (o cümlədən uşaqlar və qadınlar) həlak olmuş, 400-dən çox insan yaralanmış, 2000-ə yaxın yaşayış evi, 100-ə yaxın çoxmənzilli yaşayış binası dağıdılmış, 300-dən çox mülki obyektə ciddi zərər dəymişdir. Bütün bunlar humanitar prinsiplərin, o cümlədən Cenevrə konvensiyalarının pozulmasının bariz nümunəsidir.

8 noyabr 2020-ci il tarixində Azərbaycanın qədim şəhəri olan Şuşanın işğaldan azad edilməsi xəbərinin Sizin tərəfinizdən elan edilməsi bütün xalqımız kimi biz sahibkarları da sevindirdi. Bu xəbəri bütün Azərbaycan xalqı düz 28 il yarım gözləmişdi. Bu illər ərzində hər bir azərbaycanlının ən çox eşitmək istədiyi, **“Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Qarabağ bizimdir! QARABAĞ AZƏRBAYCANDIR!”,** sözləri Sizin tərəfinizdən səsləndirildi.

Şuşanın azad olunması Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir. Bu, xalqın bütövlük, dəyanət, rəşadət və ləyaqət tarixidir. Şuşa xalqımızın tarixini, mədəniyyətini, ləyaqətini və ruhunu ifadə edir.

Şuşa Dövlət Bayrağı Günü ərəfəsində azad edildi. Müqəddəs bayrağımız öz tarixinin yəqin ki, ən şərəfli gününü yaşayır. İndi o Şuşada dalğalanır və əbədi dalğalanacaq!

Şuşanın azad edilməsi rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsidir! Şuşanın azadlığa qovuşması zati-alilərinizin tarixi qələbəsidir!

Azərbaycan sahibkarları qələbə sevincini yaşadıqları bu günlərdə Sizə dərin zəkanız, uzaqgörənliyiniz, müdrikliyiniz, siyasi və diplomatik məharətiniz, polad iradənizə görə **“Çox sağ olun, cənab Ali Baş Komandan!”,** - deyirlər. Siz bütün Azərbaycan xalqına göz aydınlığı verdiniz, Sizin də gözünüz aydın olsun! Siz şərəfli bir tarix yaratdınız! Bu tarixin ən gözəl səhifəsində qızıl hərflərlə məhz Sizin adınız yazılıb!

Azərbaycan sahibkarları bildirirlər ki, Azərbaycana xidmətlərinə və nəcib əməllərinə görə vətəndaşlarımızın böyük sevgi və ehtiramını qazanmış Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqın elçisi kimi ölkədə iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsi, sahibkarların qanuni mənafelərinin qorunması və işgüzar fəaliyyətinin gücləndirilməsi istiqamətində gördüyü işlər əvəzsizdir.

Mehriban xanım Əliyevanın vətənin və xalqın taleyində bundan sonra da misilsiz rolu olacağına, ölkənin vüsətli inkişafına yeni və davamlı töhfələr verəcəyinə inamımız böyükdür. Bu inamı yaradan başlıca amil, onun hər zaman dövlətçiliyə, xalqa xidmət etmək istəyi və arzusunda olmasıdır.

**Müzəffər Ali Baş Komandan!**

İşğaldan azad olunmuş regionların faydalı qazıntılarla zəngin olmasını, kənd təsərrüfatının və turizmin inkişafı üçün yüksək potensialın mövcudluğunu, habelə iqtisadiyyatın digər sahələrinin inkişafı üçün münbit şəraitin mövcudluğunu nəzərə alaraq, Sizin tapşırığınızla həmin regionlarda infrastrukturun qurulması, tikinti, abadlıq işlərinin aparılması, kiçik və orta sahibkarlığın inkişafına dəstək göstərilməsi istiqamətində hazırlıq işləri görülür, yeni layihələr hazırlanır. Azərbaycan sahibkarları olaraq bu layihələrin həyata keçirilməsi üçün biz də bütün imkanlarımızı səfərbər edərək yaxından iştirak etmək əzmindəyik.

Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq çoxminlik sahibkarlar adından bildiririk ki, ölkədə davam edən hərbi vəziyyət dövründə və koronavirus pandemiyasına qarşı çətin mübarizə günlərində, erməni təxribatına qarşı həmrəylik nümayiş etdirərək Sizin verdiyiniz bütün qərarları dəstəkləyir, Sizin rəhbərliyiniz altında yeni-yeni iqtisadi uğurlara nail olacağımıza inanır və bəyan edirik ki, dövlətimizin daha da güclənməsi, rəqabətə davamlı istehsalın genişləndirilməsi üçün bütün gücümüzü səfərbər edərək, əlverişli biznes mühitindən yararlanmaqla əhalinin rifah halının yaxşılaşdırılması üçün var gücümüzlə çalışacağıq.

***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti adından Məmməd Musayev***

# Pandemiya şərtlərinə əməl etməklə koronavirusa qalib gələ bilərik

*Əvvəli 1-ci səh.*

Belə ki, ÜST-ün Baş direktoru peyvəndin COVID-19 pandemiyasının qarşısını ala bilməyəcəyini deyib. “Peyvənd əlimizdəki digər vasitələri tamamlayacaq, lakin onları əvəz etməyəcək. Peyvənd təkbaşına pandemiyaya son qoymayacaq”, - deyə o bildirib. Görünən odur ki, peyvənd ortaya çıxsa belə, COVID-19-la mübarizə hələlik bitməyəcək.

ÜST-ün məlumatına əsasən, dünyada koronavirusa yoluxanların sayı son bir həftə ərzində təxminən 4 milyon nəfər artıb ki, bu da pandemiyanın başlanğıcından bəri ən yüksək artımdır. Ölüm hallarının sayı isə 59 mindən çoxdur. Bundan öncəki həftədə göstəricilər müvafiq olaraq 3 695 495 və 54 835 nəfər idi.

ABŞ-da yoluxma sayı 1 milyondan, Hindistanda 306 mindən, İtaliyada 242 mindən, Fransada 203 mindən, Braziliyada 179 mindən çox artıb. Artım sayına görə, sonrakı yerlərdə Böyük Britaniya, Polşa, Rusiya, Almaniya və İspaniya qərarlaşıb.

Hazırkı dövrə qədər dünyada ümumilikdə 56 milyona yaxın insan koronavirusa yoluxub, 1,3 milyondan çox insan bu virusdan dünyasını dəyişib.

### Azərbaycanda ən çox yoluxma Bakının payına düşür

Dünyada olduğu kimi, son zamanlar Azərbaycanda da koronavirusa yoluxma sayında artım müşahidə olunur. “Koronavirus.info” saytının yaydığı ölkə üzrə COVID-19-a yoluxma statistikasına nəzər saldıqda görürük ki, ən yüksək yoluxma Bakı şəhərinin payına düşür - 53.5 faiz. Abşeronda yoluxma 13.8, Aranda 11.3, Gəncə-Qazaxda 7.2, Lənkəranda 4, Şəki-Zaqatalada 3.3, Quba-Xaçmazda 3.2, Dağlıq Şirvanda 1.9, Yuxarı Qarabağda 1 faizdir. Ən az yoluxma göstəricisi Naxçıvandadır: 0.06 faiz.

Bakının rayonları üzrə koronavirusa yoluxma statistikasında hazırda ən yüksək yoluxma Binəqədi rayonundadır. Belə ki, Binəqədidə koronavirusa yoluxma 14.7, Xətaidə 12.7, Yasamalda 11.6, Sabunçuda 11.3, Suraxanıda 8.4, Nəsimidə 8.3, Nərimanovda 8.0, Nizamidə 7.3, Qaradağda 6.3, Xəzərdə 6.3, Səbaildə 4.8, Pirallahıda isə 0.3 faiz təşkil edib.

Son günlər koronavirusa yoluxma hallarının artmasını nəzərə alaraq Bakıda poliklinikalar gücləndirilmiş iş rejiminə keçib. Belə ki, poliklinikalarda həftənin şənbə və bazar günləri də daxil olmaqla vətəndaşlara COVID-19-la bağlı xidmətlər göstəriləcək. Bura evdə müalicə alan xəstələrin müşahidəsi, yaxmaların götürülməsi və kompleks vitaminlərin paylanması daxildir.

### Virusun yayılması soyuq havada daha sürətlidir

Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov bildirib ki, hələ yay aylarında üzü payıza və qışa doğru koronavirus infeksiyasına yoluxma hallarının artacağı proqnozlaşdırılmışdı. Hazırda havaların soyuq keçməsi ilə əlaqədar insanlar daha çox qapalı məkanlarda olur, təmaslar artır, digər tərəfdən isə otaqların pəncərələri bağlı saxlanılır və havanın dəyişdirilməsi az hallarda həyata keçirilir. Virusun yayılması soyuq temperaturda və rütubətin az olduğu məkanlarda daha sürətli olur: “Qapalı məkanlarda rütubət daha azdır və bu məkanlarda virus təkcə asqıraq və öskürək zamanı deyil, həmçinin danışıq, hətta nəfəsvermə zamanı daha kiçik zərrəciklərin daxilində ətrafa yayılır. Hətta bu yüngül zərrəciklərin daha uzaq məsafələrə yayılması mümkündür. Bu dövrdə immunitetin də zəifləməsi yoluxmaların artmasına gətirib çıxarır”.

Baş infeksionist yoluxmaların sayını azaltmaq üçün otaqların tez-tez havalandırılmasının vacib olduğunu bildirib: “Otaqda eyni vaxtda olan insanların sayını azaltmaq, məsafənin gözlənilməsi ilə bərabər, maskadan istifadəyə ciddi və düzgün əməl etmək lazımdır. İstənilən karantin tədbiri o vaxt effektiv olur ki, hamılıqla və düzgün icra olunsun. Sağlam qidalanmaq, fiziki aktiv olmaq lazımdır”.

T.Eyvazov vurğulayıb ki, payız-qış aylarında kəskin respirator virus infeksiyaları və o cümlədən qriplə xəstələnmə halları artır: Bu infeksiyaların əlamətləri bir-birinə xüsusən xəstəliyin başlanğıcında olduqca oxşardır və onların fərqləndirilməsi yalnız həkim-mütəxəssis tərəfindən mümkündür. Mütəxəssis özündə hərarət, ümumi zəiflik, əzginlik, boğaz ağrısı, öskürək və s. kimi əlamətlər hiss edən şəxslərə ərazi poliklinikasına vaxtında müraciət etməsini tövsiyə edib: “Özünü-müalicə ilə məşğul olmaq düzgün deyil. Onu da qeyd etmək istərdim ki, hazırda qripə qarşı aparılmış vaksinasiya da ümumi epidemik durumun yaxşılaşmasına öz töhfəsini verəcək”.

### Uşaqlar da xəstəliyi yüksək temperaturla keçirirlər

TƏBİB-in İnfeksiya xəstəlikləri üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev məlumat verib ki, əvvəllər cavan insanlarda koronavirus xəstəliyinin daha çox asimptomatik formada keçdiyinin şahidi olurduq. Amma indi bu yaş qrupunda COVID-19 virusunun daha ağır formasını müşahidə edirik.

Onun sözlərinə görə, klinik təcrübədə artıq uşaqların da bu xəstəliyi yüksək temperatur ilə keçirdiyi müşahidə olunur: “COVID-19-un əlamətlərinin insanlarda hansı səviyyədə müşahidə edilib-edilməməsi individualdır. Çünki virusa xas olan əlamətlərin hamısı eyni insanda görünməyə də bilər: “Şərt deyil ki, virusa xas bütün əlamətlərin hamısı bir insanda müşahidə edilsin. Ola bilər ki, insanda bu əlamətlərin heç biri görünməsin, amma virus daşıyıcısı olsun. Klinik simptomları olan xəstədə belə bu əlamətlər çox və ya az dərəcədə hiss edilər. Məsələn, iy və dadbilmə bəzilərində olmaya bilər. Amma elə şəxslər ola bilər ki, onda bu əlamətlər uzun müddət müşahidə olunsun və gec bərpa edilsin. Digər tərəfdən, hərarətin ən çox rast gəlinən simptom olmasına baxmayaraq, koronavirus xəstələrində hərarət qeydə alınmaya da bilər. Buna görə də şərt deyil ki, koronavirusa yoluxan hər bir kəsin hərarəti yüksək olsun”.

Mütəxəssislərin də xəbərdarlıq etdiyi kimi, dünyanı bürümüş və nə zaman yox olacağı bilinməyən bu təhlükəli virusdan yalnız şəxsi məsuliyyət sayəsində qurtulmaq mümkündür. Birmənalı olaraq pandemiya şərtlərinə əməl etməli, maskadan istifadəni həyatımızın bir parçasına çevirməli, maksimum şəkildə özümüzü izolyasiya etməli, kütləvi toplantılardan qaçmalı, mümkün olduğu qədər ictimai nəqliyyatdan kənar durmalıyıq. Eyni zamanda şəxsi gigiyena qaydalarına əməl etməyi unutmamalıyıq.

Tam əminliklə demək olar ki, hazırda bütün dünyada koronavirusa qalib gəlmək bu sadə qaydalara əməl edilməsindən asılıdır.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***





# Mədəniyyət Nazirliyi “Xristian irsimizi tanıyaq” layihəsini təqdim edir

Mədəniyyət Nazirliyi “Xristian irsimizi tanıyaq” adlı layihənin icrasına başlayıb. Layihə çərçivəsində Azərbaycan ərazisində xristian dininə aid olan və dövlət tərəfindən qorunan məbədlər, kilsələr və ibadətgahlara dair qısa videoçarxlar təqdim olunur.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, ilk videoçarx Şəki rayonunun Kiş kəndi ərazisində yerləşən Kiş Alban məbədinə həsr olunub.

Azərbaycanda xristianlıq hələ İsa Məsihin həvariləri dövründə - eramızın I-II əsrlərində yayılmağa başlamışdır. Bu fəaliyyət xristianlığı yaymaq məqsədilə qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasına gələn həvarilər Varfolomey və Faddeyin, eləcə də Faddeyin yetirmələri olan Yelisey və Marın adları ilə bağlıdır. Həmin dövrdə indiki Şəki rayonunun Kiş kəndi ərazisində “Şərq kilsələrinin anası” kimi məşhurlaşan Qafqazın ilk xristian məbədinin əsası qoyulmuşdur. Daha sonra Qafqaz Albaniyasının digər yerlərində də xristian icmaları meydana gəlmiş, beləliklə həvari mənşəli Alban kilsəsi təşəkkül tapmışdır.

Multikultural və çoxkonfessiyalı ölkə olan Azərbaycanda bütün xalqlar və dinlərin nümayəndələri əsrlərdir dinc yanaşı yaşayır, qurub-yaradırlar. Ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir və onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən mühafizə olunur. Təsadüfi deyil ki, Roma Papası Fransisk 2016-cı ilin oktyabr ayında Azərbaycana səfəri zamanı Azərbaycanı dini tolerantlıq üzrə dünyada model ölkə kimi qiymətləndirmişdir.

Son 20 ildə Bakıdakı Rus Pravoslav Baş Kafedral kilsəsi (“Jen Mironosits” pravoslav kafedral kilsəsi), “Xilaskar” Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav kilsəsi dövlət tərəfindən təmir edilmiş, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilmişdir. Qəbələdəki Çotari Alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində reallaşdırılmışdır. 2020-ci ildə layihə çərçivəsində Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilmişdir. Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən Erməni (Qriqori) kilsəsi bərpa edilmişdir və ziyarət üçün açıqdır. Burada qədim kitablar da qorunub saxlanılır və kilsəni ziyarət edən xarici qonaqlar da bunu təqdirlə qeyd edirlər.

Azərbaycan təkcə ölkə daxilində deyil, dünya miqyasında da xristian irsinin qorunmasına töhfələr verir. Ölkəmizin dəstəyilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombalarının, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış “Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş” çərçivəsində Roma şəhərində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə Rusiyada xristianlığın qəbul edilməsinin 1025 illiyinə və Həştərxanın təməlinin qoyulmasının 455 illiyinə həsr edilən Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsinin ucaldılması bu faktların sırasındadır. Bununla yanaşı, Fransanın Orn departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım edilmişdir.

Mədəniyyət Nazirliyi işğaldan azad edilmiş ərazilərimizdə xristian dini mirasının və abidələrinin mənşəyindən asılı olmayaraq yüksək səviyyədə qorunaraq, bərpa ediləcəyini və istifadəyə veriləcəyini bildirir.

Videoçarxı bu linkə daxil olaraq izləmək mümkündür: https://youtu.be/MkxpFQb2JWc

# Azərbaycanda koronavirus infeksiyasına daha 2239 yoluxma faktı qeydə alınıb, 1217 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 2239 yoluxma faktı qeydə alınıb, 1217 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 25 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 81 min 397 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 58 min 111 nəfər müalicə olunaraq sağalıb, 1030 nəfər vəfat edib. Aktiv xəstə sayı 22256 nəfərdir. Ötən müddət ərzində 1 milyon 549 min 568 test aparılıb. Dünənki test sayı isə 13134-dür.

# Milli maraqlarımız tam gerçəkləşdi

*Əvvəli 1-ci səh.*

Sentyabrın 27-dən sonra isə könüllü olaraq Vətən savaşında iştirak etmək istəyənlərin sayı daha da artdı. Elə buna görə də Ali Baş Komandan tərəfindən yalnız qismən səfərbərlik elan edildi. Bununla da Azərbaycan xalqı işğalçı Ermənistan cəmiyyətində baş verənlərdən fərqli olaraq yüksək vətənpərvərlik hisslərinə malik olduğunu, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Döyüşə gedənlər alqış sədaları ilə yola salındılar.

Cəmiyyətimizin tamamilə vətənpərvər ruha köklənməsini təmin edən başlıca amil ölkə rəhbərliyinin yürütdüyü siyasət, Prezident İlham Əliyevin fəaliyyətində ərazi bütövlüyünün bərpasının prioritet təşkil etməsidir. İlham Əliyev daim bəyan edirdi ki, Azərbaycanın yeganə problemi torpaqlarımızın işğal altında qalmasıdır. Dövlət başçısının ordu quruculuğu ilə bağlı gördüyü işlər, məcburi köçkünlərə qayğısı, beynəlxalq səviyyədə milli maraqlarımızı qətiyyətlə təmin etməsi, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş vətən övladlarına dərin ehtiramı nəticə etibarilə Azərbaycan cəmiyyətində vətənpərvərlik ruhunun daha da güclənməsinə yol açdı. Ona görədir ki, atəşkəs dövründə böyüyən, 90-cı illərin əvvəllərində baş verənlərin şahidi olmayan və 44 günlük müharibədə qələbəmizi təmin edən gənc nəsil ən yüksək vətənpərvərlik hisslərinə malikdir.

Torpaqlarımızın azadlığı uğrunda ayağa qalxan xalqımız öz liderinin - Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx səfərbər olduğunu göstərdi. Bir daha sübut olundu ki, Prezident İlham Əliyev xalqının dərin rəğbətini qazanan rəhbərdir. Vətən müharibəsindəki Qələbə həm də İlham Əliyevin öz xalqına nə qədər bağlı olduğunu, dövlətimizin milli maraqlarını qətiyyətlə müdafiə etdiyini göstərdi. İlham Əliyev hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi.

## Azərbaycan əsgəri qəhrəmanlıq, şücaət və rəşadət nümunəsi göstərdi

44 gün davam edən müharibədə 30 ilə yaxın idi ki, işğal altında olan əzəli torpaqlarımız - Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, yüzlərlə kənd, strateji yüksəkliklər işğaldan azad edildi. Hər bir kəndin, qəsəbənin, şəhərin azad olunması xalqımız tərəfindən el bayramı kimi, böyük sevinclə qarşılandı.

Şəhər və rayonlarımızın, kəndlərimizin bir-birinin ardınca azad edilməsi ilə Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 ildir qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi. Ordumuzun tətbiq etdiyi müharibə strategiyası müasir dövr hərb tarixinə qabaqcıl nümunə kimi həkk olundu. Ermənistan ordusu ermənilərin özləri haqqında yaratdığı “məğlubedilməzlik” mifinin üstündən xətt çəkildi. Düşmən ordunun yüzlərlə texnikası, minlərlə canlı qüvvəsi məhv edildi.

Noyabrın 8-də Şuşanın, 9-da 70-dən artıq kəndin, 1 qəsəbənin, 8 strateji yüksəkliyin alınmasının ardınca işğalçı Ermənistanın Prezident İlham Əliyevin şərtlərini qəbul etməkdən başqa yolu qalmadı. Noyabrın 10-da Ermənistanın ağ bayraq qaldırması, kapitulyasiya aktına imza atması ilə Azərbaycan Vətən müharibəsini Qələbə ilə başa vurdu.

*“Bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi”* - deyə Prezident İlham Əliyev işğaldan azad olunmuş Füzuli şəhərinə səfəri zamanı bildirdi. Bu səfər zamanı Prezident İlham Əliyev həm də Müzəffər Ali Baş Komandan kimi qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi tarixi torpağımızda üçrəngli bayrağımızı ucaltdı və bəyan etdi ki, bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb.

Bu Qələbə Azərbaycanın son əsrlərdəki ən böyük zəfəri oldu. Şah İsmayılın, Nadir şahın qurduğu imperiyaların süqutundan sonra Azərbaycan ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını işğaldan azad etdi.

## Qarabağ Azərbaycandır!

Azərbaycanın bu tarixi zəfəri həm də Dağlıq Qarabağla bağlı bütün müzakirələri kökündən dəyişdi. Məlum olduğu kimi, danışıqlar prosesində hər vəchlə Ermənistanın maraqlarının təmin edilməsinə cəhdlər olunurdu, Azərbaycan Silahlı Qüvvələrinin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazisinə, o cümlədən Şuşa şəhərinə girməsi fikri ümumiyyətlə, yaxına buraxılmırdı. Hətta keçmiş Şaumyan, indiki Goranboy rayonunun bir hissəsinin ermənilərin nəzarətinə verilməsi tələb edilirdi.

Lakin bu qalibiyyətlə Azərbaycan həm keçmiş Dağlıq Qarabağın inzibati ərazisinə daxil oldu, həm də onun ətrafındakı və Ermənistanın qaytarmaq istəmədiyi torpaqları işğaldan azad etdi. Şuşa şəhərinin, Xocavənd və Xocalı rayonlarının kəndlərinin, Suqovuşanın azad edilməsi ilə Azərbaycan həm də Dağlıq Qarabağa nəzarəti ələ aldı. Üstəlik, Kəlbəcərin və Laçının geri qaytarılması ilə Dağlıq Qarabağa gedən əsas strateji yollar, yüksəkliklər, kommunikasiya xətləri tamamilə Azərbaycan Silahlı Qüvvələrinin əlindədir.

Göründüyü kimi, bu savaşın nəticəsi olaraq 30 ildir danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi. Bu mənada danışıqlar prosesinin müxtəlif mərhələlərində müzakirə olunan razılaşma variantlarının Azərbaycan üçün ən sərfəli variantı belə hazırda ölkəmizin əldə etdiyi üstünlüklə müqayisə edilə bilməz. Prezident İlham Əliyev Füzuli şəhərindən bir daha bəyan etdi ki, ərazi bütövlüyümüzü bərpa etmişik, təcavüzkarları işğal edilmiş torpaqlardan qovmuşuq: *“Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var”.*

Artıq Dağlıq Qarabağla bağlı tamamilə yeni reallıq yaranıb. İlham Əliyevin yaratdığı bu reallıq ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü təmin olundu, Dağlıq Qarabağın statusunun müəyyən edilməsi məsələsi arxivə gömüldü, tarixi Azərbaycan torpaqlarında yeni erməni dövlətinin yaradılması planlarının üstündən həmişəlik xətt çəkildi. Prezident İlham Əliyev Ermənistana və həm də bütün ermənipərəst siyasi dairələrə sübut etdi ki, Qarabağ Azərbaycandır!

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

**Sentyabrın 27-də Ermənistanın davamlı təxribatı nəticəsində başlanmış Qarabağ savaşı Azərbaycanın qələbəsi ilə başa çatdı. 44 günlük müharibənin sonunda ölkəmizin ərazi bütövlüyü təmin olundu. Eyni zamanda öz ərazilərində beynəlxalq hüququ təmin edən Azərbaycan güc yolu ilə işğalçı Ermənistanı BMT-nin qətnamələrini yerinə yetirməyə məcbur etdi.**



# Azərbaycan Ermənistanı kapitulyasiyaya məcbur etdi

## Fransanın işğalçının maraqlarına xidmət edən cəhdləri tamamilə mənasız və əhəmiyyətsizdir

Döyüşlərin davam etdiyi günlərdə Prezident İlham Əliyev xarici siyasi-diplomatik təzyiqləri də qətiyyətlə dəf etdi, onlara Azərbaycanın haqlı mövqeyini başa saldı. Fransa dövləti isə ilk gündən tutduğu mövqe ilə ATƏT-in Minsk qrupunun həmsədri kimi mandatına zidd olan siyasət ortaya qoydu. Neytrallığını itirən Paris ermənipərəst mövqeyini açıq şəkildə nümayiş etdirdi.

Məğlub olan Ermənistanın Azərbaycanın şərtləri ilə razılaşmağa məcbur edilməsi, noyabrın 10-da kapitulyasiya aktına imza atması Fransanın siyasi dairələrini əməllicə məyus edib. Paris meriyasının qondarma “Dağlıq Qarabağ Respublikası”nı tanımağa hazırlaşması da bu məyusluqdan irəli gəlir. Separatçı qurumun tanınmasının təşəbbüskarı isə Fransa paytaxtının meri Ann İdalqodur. Aydın məsələdir ki, bu, Fransada yaşayan ermənilərin və ölkədəki erməni lobbisinin əməlləridir. Bütövlükdə isə bu prosesin Fransa hakimiyyəti tərəfindən sanksiyalaşdırıldığı şübhə doğurmur.

A.İdalqo qatı ermənipərəst mövqeyi ilə tanınır. Həm də erməni lobbisinin tam nəzarətində olan bu adam əvvəllər də Ermənistanı və separatçı Dağlıq Qarabağ rejimini dəstəkləyən təşəbbüslərlə çıxış edib. Fransada erməni təşkilatlarının koordinasiyası şurasının rəhbəri Ara Toronyanın qızı Anuş Toronyan isə onun müavinidir. Parisdə mer seçkiləri keçirilən zaman A.İdalqonun rəqibi Rəşidə Datinin Azərbaycanla əlaqələri olması barədə kampaniyanın başında erməni əsilli Murad Papazyan və Ara Tonoyan dayanmışdılar.

Parisin meri kimi A.İdalqo 2015-2018-ci illərdə Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanla 4 dəfə görüşüb. O, Ermənistanda yaradılmış TUMO Center for Creative Technologies mərkəzinin Paris bölməsinin açılışında iştirak edib və hərtərəfli dəstək göstərib. TUMO-nun Xankəndidə də ofisi olub. A.İdalqo daim Fransa ermənilərinin təşkil etdiyi tədbirə qatılıb, Fransada erməni kilsəsinin açılışında iştirak edib, qondarma “erməni soyqırımı” ilə bağlı tvitlər paylaşıb. Lakin bütün bu qatı ermənipərəst cəhdlərə baxmayaraq, İdalqonun erməni sevgisi Fransada gülüş obyektinə çevrilərək məsxərəyə qoyulur.

Onu da qeyd edək ki, Paris həm şəhər, həm də departamentdir. Parisin meri, eyni zamanda, Paris Şurasına rəhbərlik edir. Fransanın digər inzibati vahidlərindən fərqli olaraq, paytaxt tam inzibati azadlığa malik deyil. Məsələn, Paris Fransada polisin merə deyil, prezident tərəfindən təyin olunan polis prefektinə tabe olduğu yeganə şəhərdir. Paris Şurası 163 nəfərdən ibarətdir. Şura birbaşa səsvermə ilə seçilmir. Yeni seçilən şura şəhər merini və onun 40 müavinini seçir. Fransa prezidenti E.Makronun rəhbərlik etdiyi “İrəli Fransa” partiyası isə Şurada geniş şəkildə təmsil olunur. Məhz bu amillər separatçı rejimin tanınması ilə bağlı təşəbbüslərin hakimiyyət orqanlarından, Makronun ermənilərə sadiqliyindən irəli gəldiyini göstərir.

Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biridir. Qeyd etdiyimiz kimi həmsədr ölkənin tərəfkeşlik etmək cəhdləri onların mandatlarına ziddir. Amma bundan əvvəl də Fransa davamlı şəkildə ermənipərəst mövqeyi ilə seçilib, neytrallıq prinsiplərini pozaraq işğalçı Ermənistana hərtərəfli dəstək verib.

44 günlük müharibə dövründə isə prezident E.Makron hərbi əməliyyatların dayandırılması, Azərbaycana qarşı beynəlxalq rəy formalaşdırılması və cəza tədbirləri həyata keçirilməsi məqsədilə ciddi səylər göstərib. Fransa XİN-i ardıcıl şəkildə bəyanatlar verərək Ermənistanın işğalçılıq siyasətini dəstəkləyib. Fransanın Avropa və xarici işlər nazirliyinin bəyanatını, xarici işlər nazirinin bəyanatını və açıqlamasını bu ölkənin Azərbaycana açıq düşmənçiliyi kimi qiymətləndirmək olar.

Erməni lobbisinin ciddi təsiri altında olan Fransa hökuməti və şəxsən Makron ermənilərin dəstəyini əldə etmək üçün müharibə dövründə işğalçı ölkəyə siyasi, iqtisadi və hərbi dəstək göstərib. Fransanın hərbi kəşfiyyatı davamlı şəkildə əldə etdiyi məlumatları Ermənistana ötürüb. Fransadan Ermənistana raket sistemləri də daxil olmaqla silah-sursat göndərilib. Məlumata görə, Fransa ən yüksək səviyyədə Ermənistan hakimiyyətinə Azərbaycanın münaqişədə üstünlük əldə etməsinə imkan verməyəcəyini vəd edib. Fransa diplomatları Avropa paytaxtlarında Ermənistanın xeyrinə iş aparıblar və bu fəaliyyəti indi də davam etdirirlər.

E.Makronun noyabrın 16-da Rusiya Prezidenti V.Putinə zəng etməsi Fransa hakimiyyətinin və diplomatiyasının bu istiqamətdə fəaliyyətini fəal şəkildə davam etdirdiyini aydın göstərir. Ümumiyyətlə, E.Makron öz məqsədinə nail olmaq üçün ardıcıl şəkildə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri ilə əlaqələr saxlayıb.

Fransanın anti-Azərbaycan və Ermənistanı müdafiə etmək cəhdləri heç bir nəticə vermədi və verə də bilməzdi. Azərbaycan işğal altında olan torpaqlarını azad edərək heç bir qüvvənin tarixi ədalətin bərpa olunmasına maneçilik törətmək gücündə olmadığını bütün dünyaya göstərdi. Paris şəhərinin Dağlıq Qarabağdakı qondarma qurumu tanıması da heç bir nəticə verməyəcək. Bundan əvvəl də Fransanın bəzi şəhərləri tarixin arxivinə gömülmüş “DQR”-i tanımışdı, lakin bunun heç bir praktiki nəticəsi olmamışdı və məsələ qısa zamanda unudulmuşdu.

İndi isə Fransa hakimiyyəti qondarma rejimin ləğv olunmuş statusu məsələsini aktuallaşdırmaq, məsələnin həllini ATƏT-in Minsk qrupu çərçivəsində mənasız müzakirələr müstəvisinə qaytarmaq niyyəti güdür. Bu da onu göstərir ki, Fransa hakimiyyəti hələ də köhnə stereotiplərin əsiridir və yeni reallığı qəbul edə bilmir. Yaranmış yeni reallıq isə 30 il ərzində mövcud olmuş status-kvonun qorunub saxlanması məqsədi güdən prosesin davam etdirilməsini istisna edir.

Fransa hakimiyyətinin mövqeyi və cəhdləri onsuz da ölü qurum olan ATƏT-in Minsk qrupunun həmsədrlik institutunun tam məhv edilməsinə istiqamətlənib. Eyni zamanda Fransanın bu cür qərəzli və Ermənistanın təəssübkeşi kimi davranması həmsədrlikdən kənarlaşdırılması məsələsini aktuallaşdırır. Bundan sonra da həmsədr kimi mandatına zidd fəaliyyətini davam etdirəcəyi təqdirdə prosedurlara uyğun olaraq, Azərbaycan Fransanın həmsədrlik institutundan kənarlaşdırılması və digər ölkə ilə əvəz edilməsi məsələsini qaldıracaq.

Fransanın hazırkı cəhdləri həm də bölgədə atəşkəsin təmin olunmasına və Rusiyanın münaqişənin həlli ilə bağlı göstərdiyi səylərə qarşı yönəlib. Fransa Rusiya və Türkiyənin münaqişənin həlli ilə bağlı fəallığına qısqanclıqla yanaşır və bu ölkələrin göstərdiyi səylərin müsbət nəticəsindən ciddi narahatdır.

Bu gün Avropa dairələrində Azərbaycanın mənfi imicinin formalaşdırılması istiqamətində fəal iş aparan Fransa öz tarixi keçmişinə nəzər salsa, daha məntiqli olardı. Fransa əli milyonlarla insanın qanına batmış, ayrı-ayrı xalqlara qarşı soyqırımı törətmiş ölkədir. Afrika ölkələrində indinin özündə də Fransa sabitliyin pozulması, hakimiyyətlərin devrilməsi, vətəndaş qarşıdurmasının təşkili ilə bağlı ardıcıl siyasət həyata keçirir, bu məqsədlə muzdluların imkanlarından geniş yararlanır. Fransanın legioner konsepsiyasının mərkəzində də muzdlulardan istifadə etmək dayanır.

Tarixin müxtəlif dövrlərində Fransa Əlcəzairdə, Vyetnamda, Mərakeşdə, Cibutidə, Çadda, Qabonda, Tunisdə milyonlarla sakini məhv edib. Özünü “insan haqlarının və demokratiyanın vətəni” sayan bu ölkə tarixi ilə üzləşməkdən qorxur. Çünki insan haqları və demokratiya ilə bir araya sığmayan bəşəri cinayətlər törədib.

Dağlıq Qarabağla bağlı problem artıq həllini tapıb, Azərbaycan ərazi bütövlüyünü bərpa edib. Fransanın münaqişəni yenidən alovlandırmaq, Ermənistana ən müxtəlif formalarda dəstək verməklə vəziyyəti dəyişdirmək cəhdləri isə heç bir nəticə verməyəcək.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Ermənistanın siyasi səhnəsində “Ölülər” oynanılır

## “Rejissor”u hiyləgər Paşinyandır

Hamı bilir ki, Paşinyanı Ermənistan siyasətinə kim və nə üçün gətirib. Bu zavallı “siyasətçi”nin qarşısına icrası mümkün olmayan bir məqsəd qoyulmuşdur. Sorosun bic, həm də ağıldan kəm bu “uşağı” Rusiyanı Ermənistandan həm hərbi, həm də siyasi cəhətdən birdəfəlik çıxarmalı idi.

Paşinyanın partiyasının adı da təsadüfi deyildi. Bu partiya Azərbaycanla müharibəyə başlayıb Rusiyanı köməyə çağırmalı idi. Bilirdi ki, Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq aləm tərəfindən tanınmış ərazisi olduğu üçün nə Rusiya, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı onlara kömək göstərəsidi. Paşinyan ümid edirdi ki, bununla da Ermənistandakı rusiyapərəst siyasətçiləri fakt qarşısında qoyacaq.

Atalar demişkən, sən saydığını say, gör fələk nə sayır. Paşinyan Ermənistanın timsalında müharibədə ağır məğlubiyyətə uğradı, Rusiya da axıra kimi dediyinin üstündə durdu: “Bizim öhdəliyimiz Dağlıq Qarabağla bağlı deyil, Ermənistanla bağlıdır. Əgər Azərbaycan Ermənistana hücum edərsə, üzərimizə götürdüyümüz bütün öhdəlikləri tam yerinə yetirəcəyik”.

Paşinyanı bu rəzil duruma salan digər faktor isə erməni cəmiyyətində özləri barədə formalaşan təsəvvür idi. Onlar özlərini qəhrəman, bizi isə müharibə aparmaq qabiliyyəti olmayan xalq kimi hesab edirdi. Bir də dünyadakı xristian həmrəyliyinə və güclü diaspora arxayın idilər. Lakin döyüşlər başlanan andan məlum oldu ki, onları müdafiə edənlərin əllərindən sadəcə bəyanatlar verməkdən savayı bir iş gəlmir.

İndi Ermənistanda hamı ağır məğlubiyyətin acısını yaşayır. Heç kim bu reallıqla barışmaq istəmir. Paşinyanın əleyhdarları küçələrə çıxıb onun istefasını və linc edilməsini istəyirlər. Paşinyan isə bəyan edir ki, o, heç vaxt istefa verməyəcək. Bilir ki, istefa versə, bu onun məhvi olacaq. Odur ki, həm siyasi, həm də fiziki ömrünü uzatmaq istəyir. Bunu bacaracaqmı, bacarmayacaqmı - zaman göstərəcək.

Paşinyan hərbi məğlubiyyətdən sonra üç siyasi gediş etdi. Bununla ağlını tam itirmədiyini, həmçinin cəmiyyətin həssas nöqtəsinə təsir etmək bacarığını nümayiş etdirmək istəyirdi. Birinci gedişi bu oldu ki, o, müharibəni dayandırmağının səbəbini 25 min erməni əsgərinin həyatını xilas etmək istəyi ilə izah edərək dedi ki, əgər müharibəni davam etdirsəydi, onların hamısı həlak olacaqdı. Paşinyanın bu bəyanatı oğulları müharibədə həlak olmayan sadə ermənilər tərəfindən rəğbətlə qarşılandı. Çünki onlar bu mənasız müharibədə oğullarının özgə torpağında ölməsini istəmirdilər. Bununla Paşinyan erməni cəmiyyətinin bir hissəsinin rəğbətini qazandı və onların özünə qarşı olan nifrətini neytrallaşdırdı.

İkinci gediş: müharibənin ilk günlərində məğlubiyyətin qaçılmaz olduğunu görən Paşinyan parlamenti yığaraq deputatlara müraciət etdi ki, cəbhədə vəziyyət gərgindir, Azərbaycan Ordusu güclüdür, müharibəni dayandıraq, yoxsa davam edək? Hamı müharibənin davam etdirilməsini istədi. Bu isə o demək idi ki, Paşinyan Ermənistanın məğlubiyyətini bu gün onlarla bölüşür.

Bilmirik, Paşinyan Cəlil Məmmədquluzadənin “Ölülər” əsərini oxuyub, ya yox. Ancaq əsərdə baş verən süjet bu gün Ermənistanın siyasi səhnəsində davam edir. Belə ki, Paşinyan müharibənin davam etməsini istəyən 17 müxalifət partiyasına deyir ki, mən imzalanmış bəyanatdan imtina edə bilərəm. Ancaq siz də əvəzində əlinizi daşın altına qoyub bunun altına imza atın. Bir də deyir ki, əgər siz rus qoşunlarının Dağlıq Qarabağdan çıxarılmasını və müharibənin davam etməsini istəyirsinizsə, yenə də bu barədə sənəd imzalamalısınız. Onun, rus demişkən, bu “xitri xodu”ndan sonra qurbağa gölünə daş atılıb. Heç bir siyasi partiya həmin sənədlərin altına imza atmaq istəmir. Çünki ortada Rusiya amili var. Ermənistanda heç kəs unutmayıb ki, “başqa sevdaya” düşənlər parlament zalında güllələnərək qətlə yetirilə bilərlər.

Bu üzdən Ermənistandakı siyasi partiyalar “ilanı seyid Əhməd əli ilə tutmaq” istəyir. Yəni hamı Ermənistanda pişiyin boynuna zınqırovun asılmasını istəsə də, bunu etməkdən boyun qaçırır.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Paşinyan 6 ay möhlət istədi

## Ermənistanda siyasi gərginlik ən yüksək həddə çatıb

Ermənistanda ağırlaşan vəziyyət hakimiyyət üçün hər gün yeni problemlərə yol açmaqdadır. Hətta artıq baş nazir N.Paşinyanın komandasında ciddi fikir ayrılıqları yaranıb. Hakimiyyətin müxtəlif qanadları arasında gərginlik yüksək həddə çatıb.

Paşinyan isə baş nazir vəzifəsini itirməmək üçün istənilən addımı atmağa hazırdır. Ancaq “xalqın etimadından istifadə etmək” artıq aktual deyil. Ona görə sosial şəbəkə hesabından “yaranmış vəziyyətdən çıxış yolu” kimi 15 maddəlik yol xəritəsini açıqlayaraq xalqa yeni vədlər verməyə başlayıb. Utopik tezislərin yer aldığı bu maddələrdə Ermənistanın inkişafı və s. kimi məsələlər vəd olunur. Səhiyyə, müdafiə, sosial-iqtisadi sferalarda və demokratikləşmə prosesində yeniliklərin olacağını bildirən Paşinyan bunun üçün 6 ay vaxt, eyni zamanda, komandada dəyişikliklərin lazım olduğunu qeyd edib.

## Hökumət üzvlərinin 80 faizi istefaya göndərilir

Ermənistanda siyasi sfera ilə yanaşı, sosial-iqtisadi sahədə də vəziyyətin yüksək sürətlə pisləşməsi müşahidə edilməkdədir. Erməni mediası yazır ki, bu durum Paşinyan iqtidarının yarıtmaz siyasətinin, ölkənin inkişafı naminə hansısa uğurlu addım ata bilməməsinin konkret göstəricisidir. Belə ki, ötən dövr ərzində yeni hakimiyyət xalqı yox, yalnız özünü düşündüyü üçün Ermənistan hazırkı acınacaqlı vəziyyəti yaşayır.

O da xüsusilə vurğulanır ki, baş nazirin öz komanda yoldaşlarına qarşı inamsızlığı da getdikcə artır. Belə ki, Paşinyan bir çox vacib məsələləri yalnız vəzifəyə gətirdiyi yaxın qohumlarına və ailə üzvlərinə etibar edir. Baş naziri ən çox narahat edən məsələ onun komandasının bəzi üzvlərinin başqa siyasi qüvvələrlə, nümayəndələrlə “oyunlar” oynamağa başlamasıdır və uyğun anda onlar “cəbhəni” dəyişə və Paşinyanı tərk edə bilərlər.

“Joxovurd” qəzeti yazır ki, baş nazir hökumət üzvlərinin 80 faizini istefaya göndərmək niyyətindədir. Ona görə hakim partiya vəzifədən gedəcək şəxslərin yerinə yeni kadrlar axtarır. Xüsusilə də qeyd olunur ki, əmək və sosial məsələlər naziri Zarui Batoyan, təhsil, elm, mədəniyyət və idman naziri Araik Arutyunyan, səhiyyə naziri Arsen Torosyan, iqtisadiyyat naziri Tiqran Xaçatryan, müdafiə naziri David Tonoyan və onun müavinləri vəzifələrindən azad olunacaqlar. Hesab edilir ki, Nazirlər Kabinetinin üzvləri Qarabağda müharibə günlərində fəaliyyətsiz olublar və ona görə də vəzifədən getməlidirlər.

## Ermənistanı daha dərin iqtisadi böhran gözləyir

Ermənistan parlamentinin son iclasını “Parlaq Ermənistan” və “Çiçəklənən Ermənistan” fraksiyalarının deputatları boykot edib. İclasa yalnız “Mənim addımım” blokunun deputatları qatılıb.

İclasda ABŞ və Avropa iqtisadiyyatında yaranan çətinliklər yeni dünya böhranına rəvac verərsə, Ermənistanın daha böyük sosial-iqtisadi problemlərlə üzləşməli olacağı vurğulanıb. Bunu şərtləndirən bir neçə önəmli səbəb də var. Əvvəla, müharibə və pandemiya nəticəsində yaranan maliyyə böhranı Ermənistanın onsuz da bərbad olan iqtisadiyyatına böyük zərbə vurub. Elə bunun nəticəsidir ki, böhranın özünün zirvə nöqtəsinə çatdığı cari ilin sentyabr ayından bəri Ermənistanda böyük tənəzzül yaşanır.

Ümumiyyətlə, Paşinyanın hakimiyyətə gəlməsindən 2 il müddət keçməsinə baxmayaraq, ötən dövr ərzində hər hansı istehsal sahəsinin yaradılmaması, kiçik və orta sahibkarlığın məhvi, infrastrukturun yoxluğu da vəziyyəti ağırlaşdıran əsas səbəblər sırasında yer alır. Bununla yanaşı, Ermənistanın xarici investisiyalar üzünə həsrət qalan dövlətlərdən biri olması, iqtisadiyyatının asılılığı və bir neçə məmur oliqarxın əlində cəmləşməsi, inhisarçılığın, korrupsiya və rüşvətxorluğun dərin kök salması da sözügedən ölkəni problemlər məngənəsində boğan əsas faktorlardandır.

## “General formasını geyinib kolxoz sədri kimi bəyanatlar vermək olmaz”

44 günlük müharibə Ermənistan ordusunun kifayət qədər aciz olduğunu əyani surətdə nümayiş etdirdi. Erməni ictimaiyyətinə agah oldu ki, ölkə rəhbərliyi ordu barədə indiyə qədər onu səhv məlumatlandırıb və xalqı aldatmaqla məşğul olub. Müharibədə məğlubiyyətdən sonra çətin duruma düşən Ermənistan rəhbərliyi isə vəziyyətdən çıxış yolu kimi Müdafiə Nazirliyində çoxsaylı həbslər aparmaqla, kadr dəyişiklikləri həyata keçirməklə ictimai qəzəbdən xilas olmaq istəyir.

Müharibə göstərdi ki, Ermənistan ordusunda hərbi nizam-intizam, əsgər və zabitlərin döyüş bacarığı çox aşağıdır. “4rd.am” saytı yazır ki, müharibədə Azərbaycan Ordusu Ermənistana çox ciddi problemlər yaşatdı. Çünki bu ordu bütün müasir silahlarla təchiz edilib. Ermənistan ordusunda isə çatışmazlıqlar mövcuddur: “Məsələn, ordunun rabitə vasitələri, gecəgörmə cihazları və digər mühafizə cihazları ilə təchiz etməyə nə mane olurdu? Orduda böyük boşluqlar var. Bunu aradan qaldırmaq lazımdır. Azərbaycan Ordusunun silahlarının keyfiyyət baxımından üstün olması heç kimə sirr deyil. Bunu bilmək başqadır, döyüş meydanında qarşılaşmaq isə başqa. İroniya ondan ibarətdir ki, KTMT üzvü olan, ərazisində Rusiyanın hərbi bazası yerləşən Ermənistan rəqibinə silahın keyfiyyəti cəhətdən uduzdu. Cəmiyyətin ağrılı reaksiyası burada aydındır. Hamı istəyirdi ki, Rusiya ilə hərbi ittifaq bu balansı qoruyub saxlamağa zəmanət versin. Digər tərəfdən isə Ermənistanın Qarabağdakı təhlükəsizliyini qoruyub saxlaya bilsin. Artıq Qarabağ yoxdur. Məğlubiyyətdən dərs almaq lazımdır”.

“İravnuk” qəzetində dərc olunan məqalədə də müəllif Azərbaycanla müqayisədə zəif olduqlarını açıq etiraf edib: “Azərbaycan böyük sayda silahlar aldı, bu zaman əsas vurğunu artilleriyaya, raket və hərbi-hava qüvvələrinə yönəltdi, təmas xəttindəki erməni mövqelərini yerlə bir etməyi bacardı. Ermənistanın nə maddi, nə insan resursları ilə Azərbaycanla ayaqlaşmaq imkanı yoxdur. Müharibədə uduzduq. General formasını geyinib kolxoz sədri kimi bəyanatlar vermək olmaz. Bizim əsgər o qədər raketin qabağında dayana bilmədi. Əgər bir dəqiqədə ön xəttə 25 min mərmi düşərsə, orada adam dayana bilər? O nə deməkdir ki, bizim əsgərin döyüş ruhu yüksəkdir. Onlar raketi tutacaqlar, yoxsa əsgər mərmini havada ovlayacaq? Biz əsgərin təhlükəsizliyi haqda düşünməliyik”.

Beləliklə, elə bu kimi səbəblərdən Paşinyana və onun komandasına qarşı etirazlar yüksələn xətlə çoxalır. Bu isə qarşıdakı dövr ərzində Ermənistanda ictimai-siyasi vəziyyəti daha da gərginləşdirəcək.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Türkiyə kütləvi informasiya vasitələri (KİV) noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfərləri barədə geniş məlumatlar yaymaqda davam edir.

AZƏRTAC xəbər verir ki, qardaş ölkə mətbuatı dövlətimizin başçısının yerlərdə xalq tərəfindən böyük coşqu ilə qarşılanması, səmimi ünsiyyəti, çıxışlarında işğaldan azad olunan torpaqlarda həyatın normala dönməsi ilə bağlı səsləndirdiyi fikirlər əsas xəbərlər kimi yayıb.

Türkiyə mediası, həmçinin Prezident İlham Əliyevin işğaldan azad olunan torpaqlarda olmasını Qarabağa qələbə səfəri kimi dəyərləndirib. Telekanallar da bu səfərlə bağlı geniş reportajlar yayıb. Müzəffər Ordunun qazandığı qələbədən sonra Azərbaycanda ruh yüksəkliyi və işğalçı Ermənistandakı ictimai-siyasi gərginlik müqayisəli şəkildə təhlil olunur.

❖ ❖ ❖




Misirin "Almasryalyoum" qəzetinin saytında "Azərbaycan Prezidenti işğaldan azad edilmiş Cəbrayıl rayonunda müharibənin yekunundan bəhs edib" sərlövhəli material yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, yazıda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin qəhrəman Ordumuzun bir gündə 70-dən çox yaşayış məntəqəsini işğaldan azad etməsi, Şuşanın alınmasından sonra Ermənistanın faktiki olaraq kapitulyasiya aktını imzalaması, Füzuli-Şuşa avtomobil yolunun çəkilməsi barədə fikirləri yer alıb.

Qəzetin materialında qeyd olunub ki, Azərbaycan Prezidenti hazırda münaqişənin siyasi mərhələsinin getdiyini, bu mərhələdə ölkəmizin istədiyinə nail olduğu və olacağını bəyan edib.

❖ ❖ ❖




Gürcüstan kütləvi informasiya vasitələri (KİV) Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfərlərindən və dövlətimizin başçısının çıxışlarından materiallar yaymaqda davam edirlər.

AZƏRTAC xəbər verir ki, nüfuzlu report.ge və 24news.ge informasiya portalları bu dəfə Azərbaycan Prezidenti İlham Əliyevin Dağlıq Qarabağın "statusu" barədə fikirlərinə diqqət ayırıblar.

Prezident İlham Əliyevin çıxışına istinadla Azərbaycan, rus, gürcü və ingilis dillərində yayımlanan materiallarda tarixi Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verilməyəcəyi xüsusi qeyd olunur: "Mən demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq".

Qeyd edək ki, bu materiallar bu gün ən çox oxunan xəbərlərdən olub.

Materialların tam mətni ilə aşağıdakı linklərdən tanış olmaq olar:

https://report.ge/ru/world/ilham-aliev-ni-o-kakom-statuse-karabaha-rechi-bit-ne-mozhet/

https://report.ge/world/ilham-alievi-qarabaghis-raime-statusze-saubari-ga-moritskhulia/

https://report.ge/en/world/ilham-aliyev-it-is-impossible-to-talk-about-any-status-for-karabakh/https://report.ge/world/ilham-alievi-qarabaghis-raime-statusze-saubari-gamoritskhulia/

https://24news.ge/read/id/40949

❖ ❖ ❖




İspaniyanın "LA VANGUARDIA" və "EL MUNDO" qəzetlərinin elektron versiyalarında yerləşdirilmiş videolarda Azərbaycan Respublikasının işğal altında olan Kəlbəcər rayonunun erməni vandalizminin daha bir nümunəsinə şahidlik etdiyi qeyd olunur (https://www.youtube.com/watch?v=0bHsMVBSJJE).

AZƏRTAC xəbər verir ki, Kəlbəcər rayonunda qanunsuz olaraq məskunlaşmış erməni əhalisi rayonu vandalizm aktları törədərək boşaldırlar. Videolarda əhalinin özləri ilə apara bilmədiyi əşyaları, yaşayış evlərini, məktəbləri yandırması öz təsdiqini bir daha tapır.

❖ ❖ ❖




Misirin "Gomhuriyya" qəzetinin saytı "Azərbaycan Prezidenti Qarabağda infrastrukturu məhv edən Ermənistanın məsuliyyətə cəlb ediləcəyini bildirib" sərlövhəli xəbər yayıb.

AZƏRTAC xəbər verir ki, yazıda Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə infrastrukturu məhv edən Ermənistanın beynəlxalq məhkəmə instansiyaları vasitəsilə məsuliyyətə cəlb olunacağı barədə fikirləri yer alıb. Qeyd olunub ki, Cəbrayıl şəhərini ziyarət edən dövlət başçısı burada mülki binaların hamısının dağıdıldığını deyib.

Xəbərdə vurğulanıb ki, Prezident İlham Əliyev Ermənistanın 30 il ərzində mülki obyektlərə vurduğu bütün ziyanın beynəlxalq institutlar və ekspertlərin iştirakı ilə müəyyənləşdiriləcəyi və təzminat ödənilməsi üçün məhkəməyə müraciət ediləcəyini bildirib.

❖ ❖ ❖




Kəlbəcərdə onlarla ev yanır. AZƏRTAC xəbər verir ki, bu sözlər Fransanın "Le Temps" qəzetində dərc olunan məqalədə yer alıb.

Məqalədə Ermənistan hökumətinin vaxtilə şirnikdirici vədlərlə erməniləri Kəlbəcərdə qanunsuz məskunlaşdırmasından söz açılıb.

Məqalədə Kəlbəcərdə məskunlaşmış və hazırda oranı tərk edən ermənilərlə aparılan söhbətlər zamanı onların müxtəlif vədlərlə buraya gətirildiklərini bildiriblər. Marut adlı erməni yaxınlıqda yanmış evi göstərərək, qonşusu Aleksin əvvəllər İtaliyada yaşadığını və erməni hökumətinin köməyi ilə Kəlbəcərə gəlib məskunlaşdığını deyib. Hacik adlı digər erməni isə əvvəllər Avstraliyada yaşadığını etiraf edib.

"Le Temps"ın jurnalisti Kəlbəcərdə vəziyyəti təsvir edərək, ermənilərin hər şeyi söküb apardığını, evləri yandırdığını və ağacları kəsdiyini yazıb.

Qeyd edilir ki, əldə edilmiş razılaşmaya görə Kəlbəcər Azərbaycana təhvil verilir. Rəsmi Bakı rayonu boşaltmaq üçün Ermənistana noyabrın 25-dək vaxt verib.

❖ ❖ ❖




Ermənistanın Kəlbəcərdən çıxması vandalizm aktları ilə müşahidə olunmaqdadır. Ərazilərimizin işğaldan azad edilməsi prosesində son məqamda da maddi-mədəniyyət abidələrinə zərər vurulur.

Özbəkistanın "interpress.uz" portalı yazır ki, bu haqda Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev keçirdiyi brifinqdə söyləyib.

Prezidentin köməkçisi deyib: "Azərbaycanın Kəlbəcər rayonunda qeyri-qanuni məskunlaşmanın nəticələri aradan qaldırılmalıdır. BMT Təhlükəsizlik Şurasının da Kəlbəcərlə bağlı xüsusi qətnaməsi var. Kəlbəcərdə mülki əhalinin məskunlaşması tamamilə qanunsuz xarakter daşıyır. Ona görə orada olan hər hansı bir mülkiyyətin heç bir hüquqi qüvvəsi yoxdur".

"shonch.uz" portalı isə "Şuşa Azərbaycanın gözəl incisidir" sərlövhəli məqalə çap edib.

Materialda Qarabağın, o cümlədən qədim Şuşanın turizm potensialı, zəngin flora və faunası haqqında söhbət açılır. Bildirilir ki, dəniz səviyyəsindən 1400 metr hündürlükdə, tarixi abidələrlə zəngin olan Şuşa şəhərində yeni turizm marşrutları açmaq zərurətə çevrilir. Qeyd olunur ki, şəhərin ərazisində 900 tarixi-mədəni abidə mövcuddur. İşğal nəticəsində bu abidələrin hansı vəziyyətdə olması ilə bağlı təhqiqat işləri də aparılmalıdır.

❖ ❖ ❖


Deutschlandfunk

DIE NACHRICHTEN

Berg-Karabach

**Armenier zünden vor Übergabe an Aserbaidschan ihre Häuser an**

*Ein Haus brennt in dem Dorf Charektar. (AFP / Alexander Nemenov)*

In der Kaukasusregion Berg-Karabach haben mehrere Armenier ihre Häuser angezündet, weil sie sie nicht Aserbaidschanern überlassen wollen.

In dem Dorf Charektar standen mehrere Häuser in Flammen. Schon gestern waren hier und in der Umgebung dutzende Häuser niedergebrannt. Der

Almaniyanın "deutschlandfunk.de" internet portalında "Ermənilər Azərbaycana təhvil verməzdən əvvəl evlərə od vururlar" adlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan və Ermənistan arasında əldə olunan atəşkəs razılaşmasına görə Kəlbəcər rayonunun Azərbaycana təhvil verilməli olduğu bildirilir. Bu səbəbdən Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilər tərk etdikləri evləri azərbaycanlılara qalmaması üçün yandırırlar.

Məqalədə qeyd olunur ki, Rusiya vasitəçiliyi ilə əldə olunan razılaşmaya əsasən müharibə zamanı öldürülən əsgərlərin nəşlərinin mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulub və ilk mübadilə noyabrın 14-də baş tutub.

❖ ❖ ❖




Yaponiyanın "Yahoo Japan" saytı "Ermənistan müharibəni niyə uduzdu?" adlı məqalə yayıb.

Fransada yaşayan Saori İmari adlı yapon mənşəli yazıçı-jurnalistin müəllifi olduğu məqalədə bildirilir ki, münaqişə artıq başa çatıb. Bu münaqişə faktiki olaraq Azərbaycanın qələbəsi, Ermənistanın məğlubiyyəti ilə yekunlaşıb.

Məqalədə Qarabağın Azərbaycan ərazisi olduğu və yerli azərbaycanlıların bu torpaqlardan qovulduğu qeyd edilir. Bildirilir ki, sentyabrın 27-də başlanan döyüşlər cəmi 44 gün çəkib. Azərbaycan ona aid olan ərazilərdə nəzarəti bərpa edib.

Müəllif vurğulayır ki, bu münaqişəni bəzən xristianlarla müsəlmanların qarşıdurması kimi qələmə verənlər kökündən səhv edirlər.

Məqalədə qeyd edilir ki, Azərbaycandan fərqli olaraq Ermənistanın vahid mövqedə olmaması, üzərinə götürdüyü müttəfiqlik öhdəliklərindən sui-istifadə etməyə çalışması onun Qarabağ müharibəsində məğlubiyyətinin əsas səbəblərindən biri kimi göstərilə bilər.

❖ ❖ ❖




Almaniyanın "ostexperte.de" internet portalı azərbaycanlı alim Asif Məsimovun "Dağlıq Qarabağ Münaqişəsi: Sülh sazişindən sonrakı perspektivlər" adlı məqaləsini yayımlayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya dövlət başçıları tərəfindən imzalanmış sülh razılaşması və ondan sonrakı vəziyyətdən bəhs olunur.

Ermənilərin Kəlbəcər rayonundan çıxması zamanı evləri yandırması ilə bağlı xəbərlər federal və əyalət səviyyəsində dərc olunan bir çox Almaniya KİV-ində də dərc olunub.

❖ ❖ ❖




"Əl-Cəzirə" kanalı Azərbaycanın Kəlbəcər rayonundan olan ailə barədə reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, kanalın çəkiliş qrupu ailənin qonağı olub, Kəlbəcərin işğaldan qurtulması ilə bağlı onların təəssüratlarını öyrənib.

Reportajda qeyd edilir ki, bu ailə Kəlbəcər rayonunun işğaldan azad olunmasına görə çox sevinir. Kəlbəcər rayonundan didərgin düşmüş Gülçöhrə Ramazanova hazırda ermənilərin orada törətdikləri əməllərə baxaraq əsəblərini cilovlaya bilmədiyini deyir. Qeyd edir ki, ermənilər Kəlbəcəri tərk edərkən oradakı evləri, məktəbləri yandırırlar. Bütün bunları kədər hissi ilə izlədiyini bildirən G.Ramazanova deyir: "Bizim bir vaxtlar yaşadığımız kənddəki bütün evlər indi ermənilər tərəfindən yandırılır. Çox pis oluram, axı bu, düzgün deyil. Axı onlar təmirli evlərdə məskunlaşmışdılar".

Reportajda qeyd edilir ki, ailənin digər üzvü Elşad 1990-cı illərin əvvəllərində Azərbaycan Ordusunda xidmət edirdi. O deyir ki, həmin vaxt insanlar Kəlbəcəri tərk etmək məcburiyyətində qalmışdılar. O, köç zamanı yüzlərlə insanın necə öldüyünü xatırlayır. On minlərlə insan, o cümlədən uşaqlar və qocalar Kəlbəcər rayonunu şaxtalı və qarlı havada tərk edərkən onlardan bir çoxunu don vurmuşdu.

Reportajda bildirilir ki, Azərbaycan tərəfi Ermənistanın Kəlbəcəri təhvil verməsi üçün təyin edilmiş müddəti 10 gün uzadıb. Müdafiə Nazirliyinin Beynəlxalq hərbi əməkdaşlıq idarəsinin rəisi general-mayor Hüseyn Mahmudovun Ermənistanın üç rayonu Azərbaycana təhvil verməsi ilə bağlı fikirləri də reportajda yer alıb.

Reportajda, həmçinin qeyd edilir ki, Kəlbəcər sakinləri təxminən otuz il gözlədikdən sonra öz rayonlarına geri qayıtmaq niyyətindədirlər. Ancaq rayonda hələ minalardan təmizləmə əməliyyatları və infrastrukturun yenidən bərpası kimi bir çox işlər görüləcək.

❖ ❖ ❖

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vəhşiliklər barədə növbəti məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, məqalədə rəsmi Bakının Ermənistanın xahişi əsasında Kəlbəcərin Azərbaycana təhvil verilməsinin noyabrın 25-dək uzadılmasına razılıq verdiyi bildirilib. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla vurğulanıb ki, Azərbaycan çətin hava şəraitini nəzərə alaraq, Kəlbəcərin təhvil verilməsi üçün əlavə 10 gün möhlət verib.




"Azərbaycan tərəfi ermənilərin Kəlbəcəri tərk edərkən evləri və sosial obyektləri yandırmasını pisləyib, onların ətraf mühitə ziyan vurduğunu bəyan edib", - deyə CGTN-dəki məqalədə bildirilib.

Qeyd olunub ki, 1994-cü ildə başa çatmış müharibədən əvvəl Kəlbəcərdə yalnız azərbaycanlı əhali yaşayıb. Amma Ermənistanın nəzarətinə keçdikdən sonra ermənilər orada qanunsuz olaraq məskunlaşmağa başlayıb.

Məqalədə Azərbaycana qaytarılacaq ərazilərdəki abidələrlə bağlı məsələyə də toxunulub. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putin ilə telefon danışığı zamanı bütün dini abidələrin mühafizə olunacağını, Azərbaycanda yaşayan xristianların bu məbədlərdən istifadə edə biləcəyini deyib.

CGTN ermənilərin işğalı altında olan ərazilərdə İslam dininə aid abidələrin təhqir edilməsinə, o cümlədən məscidlərdə ev heyvanları saxlanılması məsələsinə toxunub.

Münaqişənin tarixi haqqında məlumat verilən məqalədə yazılır ki, Dağlıq Qarabağ bölgəsi sovet dövründə Azərbaycanın tərkibində olub. SSRİ-nin son illərində bölgədə başlayan müharibə 1994-cü ildə atəşkəs razılaşması isə dayanıb. Bu il sentyabrın 27-də yenidən başlayan müharibədə Azərbaycan əhəmiyyətli üstünlüklər qazanıb, strateji əhəmiyyətli Şuşa şəhərinə nəzarəti ələ keçirib. Bundan 2 gün sonra isə atəşkəs haqqında bəyanat imzalanıb. Ərazilərin Azərbaycana qaytarılmasını nəzərdə tutan bu bəyanat Ermənistanda ciddi etirazlara səbəb olub. Hökumət bəzi müxalifət liderlərini həbs edib.

❖ ❖ ❖

Moldovanın nüfuzlu KİV-i Azərbaycanın Kəlbəcər, Laçın və Ağdam rayonlarında evlərin ermənilər tərəfindən yandırıldığına dair xəbərləri geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, "Timbul", "Tribuna", NOİ.MD, AVA.MD və digər informasiya portallarında dərc edilən məlumatlarda Kəlbəcər, Laçın və Ağdam rayonlarından çıxan ermənilərin evlərə od vurduqları barədə ətraflı məlumat verilib, foto və videolar təqdim olunub. Vurğulanıb ki, ermənilər azərbaycanlılara qalmaması üçün evlərini yandırır, ağacları kəsirlər.


**Нагорный Карабах: армяне сжигают свои дома, покидая переходящие Баку районы**

Sâmbătă, 14 Noiembrie 2020 13:53 PUBLIKA.MD

Комментарии



Qeyd edilib ki, əldə olunan razılaşmaya əsasən, Ermənistan dekabrın 1-dək Kəlbəcər, Laçın və Ağdam rayonlarını Azərbaycana qaytarmalıdır.

❖ ❖ ❖

Xorvatiyanın "Jutarnji List" qəzetində və eyniadlı xəbər portalında beynəlxalq məsələlər üzrə ekspert Krşevan Antun Duymoviçin Qarabağ müharibəsində Azərbaycanın Qələbəsindən bəhs edən məqaləsi dərc olunub.

Qeyd edək ki, Krşevan Antun Duymoviç Xorvatiyanın İnkişaf və Beynəlxalq Münasibətlər İnstitutunun elmi işçisidir və bir neçə il öncə elmi işi ilə əlaqədar Azərbaycana səfər edib.

Məqalənin əvvəlində müəllif qısa məlumat verib ki, Qarabağ ərazisi Azərbaycana aiddir və 1988-1993-ci illər ərzində baş vermiş münaqişə nəticəsində ermənilərin nəzarəti altına keçib. Qeyd olunub ki, 30 ilə yaxın müddətdə münaqişənin həll olunmamasında və alovlanmasında beynəlxalq ictimaiyyətin bu tipli problemlərin həllində aciz olmasının göstəricisidir. ATƏT-in Minsk qrupunun səylərinə baxmayaraq, münaqişənin həlli yolu tapılmayıb, hətta 2016-cı ildə bir neçə gün şiddətli döyüşlər olub.

Müəllif dünyanın qlobal pandemiya ilə mübarizə apardığı bir zamanda Ermənistanın cari ilin iyul ayında Tovuz istiqamətini atəşə tutmasını, bu ərazilərin Qarabağdan uzaq olduğunu və ən əsası, Azərbaycandan Avropaya gedən enerji xətlərinin yanında baş verdiyini vurğulayıb. Ermənistanın sözügedən addımı bu ölkənin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olduğu halda baş



verməsi diqqətçəkən məqam kimi dəyərləndirilib. Sentyabr ayında münaqişənin aktiv fazası başlayan zaman Rusiya Ermənistana ancaq ölkənin ərazi bütövlüyü pozularsa kömək edə biləcəyini açıqlayıb.

Eyni zamanda, müəllif Türkiyənin Azərbaycanla tarixi kökləri və çox yaxın münasibətləri barədə məlumat verir.

Məqalədə bildirilir ki, Azərbaycan Ermənistanın sentyabrın 27-dəki təxribatına qarşı geniş əməliyyat aparıb, 8 noyabr tarixində Şuşanı alaraq, Ermənistanı məğlub vəziyyətə gətirib.

Müəllif Ermənistanın Gəncə və Bərdəyə raket zərbələrini də qeyd edib və qadağan olunan silahların istifadəsini qınayıb.

Noyabr ayının 10-da imzalanan bəyanata nəzər yetirən müəllif bu sənədlə Ermənistanın məğlub olduğunu, Azərbaycanın isə istədiyinə nail olduğunu vurğulayıb.

❖ ❖ ❖




Misir, Bəhreyn və İordaniya KİV-i Qarabağda baş verən son hadisələr ilə əlaqədar Azərbaycan rəhbərliyinin mövqeyini işıqlandırmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, Misirin "Nİle1"informasiya portalı və Bəhreynin ingilisdilli "The Daily Tribune" qəzeti Azərbaycan Prezidenti İlham Əliyevin ümumbəşəri və dini dəyərlərə yüksək ehtiramdan çıxış edərək işğaldan azad olunmuş ərazilərdə xristian məbədlərinin qorunacağı ilə bağlı təminat verdiyini yazıblar.

"Almasryalyoum" qəzeti AZƏRTAC-a istinadla Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin noyabrın 15-də keçirilən brifinqdə ermənilərin Kəlbəcərdən çıxmasının da vandalizm aktları ilə müşahidə olunması, hava şəraitinin çətinləşməsi, həmin istiqamətdə mövcud olan cəmi bir yolun ötürücülük qabiliyyətinin aşağı olması səbəbindən Azərbaycanın humanistlik nümayiş etdirərək Kəlbəcərin noyabrın 25-dək təhvil verilməsinə razılıq verməsi barədə bəyanatlarını yayıb.

İsrailin ərəb dilində yayımlanan "İ24 Arabic" telekanalının xəbərlər proqramında isə Azərbaycan Ordusunun və Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qarabağda şanlı Qələbəsi haqqında xüsusi reportaj yayımlanıb. Reportajda Azərbaycan Prezidentinin noyabrın 10-da xalqa müraciətindən sitatlar verilib.

Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətinin tam mətni İordaniyanın geniş oxucu auditoriyasına malik olan "Orobanews" qəzetinin saytında da yerləşdirilib.

# Beynəlxalq ictimaiyyət Azərbaycanın zəfərini yüksək qiymətləndirir



"Ən başlıcası qan tökülməsinə son qoymaq mümkün olub".

AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putin bu fikri "Rossiya 24" telekanalına müsahibəsində söyləyib.

Prezident xatırladıb ki, Azərbaycan ilə Ermənistan arasında danışıqlar əvvəlcə 5 rayonun, sonra isə 2 rayonun Azərbaycana qaytarılması, Azərbaycanın Laçın rayonu ərazisində dəhliz yaradılması, köçkünlərin öz yerlərinə qaytarılması və Dağlıq Qarabağın statusunun tanınması prinsipi barədə olub. Vladimir Putin deyib: "Əgər biz bu razılaşmaya nail ola bilsəydik, müharibə olmazdı. Mən indi də buna tam əminəm".

Türkiyənin Azərbaycanı birtərəfli qaydada dəstəkləməsi ilə bağlı suala cavabında Rusiya lideri deyib: "Azərbaycan müstəqil, suveren dövlətdir və Azərbaycan özünün lazım hesab etdiyi müttəfiqləri seçmək hüququna malikdir. Bu məsələdə kim ona mane ola bilər?"

V.Putin xatırladıb ki, indiyə qədər heç bir ölkə, hətta Ermənistan da Qarabağın müstəqilliyini tanımayıb. Beynəlxalq hüquq baxımından Azərbaycan bütün dünya birliyinin Azərbaycana məxsus hesab etdiyi əraziləri özünə qaytarıb. "Bununla əlaqədar Azərbaycan ona kömək göstərən hər hansı müttəfiqi seçmək hüququna malikdir", - deyə Prezident bildirib. O, qeyd edib ki, Türkiyə lap əvvəldən Qarabağ münaqişəsinin nizamlanmasına dair ATƏT-in Minsk qrupunun üzvüdür, Türkiyəni "beynəlxalq hüququ pozmaqda" ittiham etmək çətindir. RF Prezidentinin sözlərinə görə, əsrlərboyu Rusiya-Türkiyə münasibətlərinin dramatik tarixini Rusiyada xatırlayırlar. Prezident belə bir fakta diqqəti cəlb edib ki, Avropa xalqlarının çoxunun bir-biri ilə münasibətlərinin tarixi bundan heç də az gərgin və faciəli olmayıb. O, nümunə kimi Fransa ilə Almaniyanı göstərib. Bu ölkələr öz aralarında dəfələrlə vuruşublar, indi isə NATO çərçivəsində müdafiə və təhlükəsizlik funksiyalarını birlikdə həyata keçirir, Avropa İttifaqı çərçivəsində əməkdaşlıq edirlər: "Onlar bütün bu çətinliklərin üstündən keçiblər və öz xalqlarının gələcəyi naminə hərəkət edirlər. Bəs biz Qara dəniz regionunda nə üçün eyni cür hərəkət edə bilmərik?"

Prezident "Belə bir təhlükə yoxdurmu ki, Ermənistanda hakimiyyətə gələcək insanlar imzalanmış bəyanatı yerinə yetirməkdən imtina edərlər?", - sualına cavab olaraq deyib ki, bu, intihara bərabər böyük səhv olardı, "ümidvaram ki, belə olmayacaq".

Ermənistanda yeni rəhbərliyin hakimiyyətə gəlməsinə Rusiyanın münasibəti məsələsinə toxunan V.Putin deyib: "Mən belə hesab etmişəm və yenə belə hesab edirəm ki, yetərincə mürəkkəb vəziyyətdə, döyüş əməliyyatları həddində olan ölkə daxili siyasi həyatı və hakimiyyəti küçənin köməyi ilə təşkil etməyi özünə rəva görə bilməz, bunun axırı heç yaxşı olmaz".

❖ ❖ ❖



İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi Azərbaycan və Ermənistan arasında döyüşlərin dayandırılmasını alqışlayır.

AZƏRTAC xəbər verir ki, təşkilatın noyabrın 16-da yayılmış bəyanatında deyilir: "İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində Azərbaycan və Ermənistan arasında döyüşlərin dayandırılmasının elan edilməsini alqışlayır.

Baş Katiblik Azərbaycanla Ermənistan arasındakı münaqişənin İƏT və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamə və qərarları əsasında həll olunmasını daim dəstəkləyib.

İƏT-in Baş Katibliyi Azərbaycan Respublikası ilə həmrəyliyini bir daha ifadə edərək, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri prinsipləri əsasında, Azərbaycanın işğal altında qalan digər ərazilərindən də tam və qeyd-şərtsiz çıxarılmasına ümid etdiyini bildirir".

❖ ❖ ❖

Pakistanın Baş naziri İmran Xan bu ölkənin yerli televiziya kanallarından birinə müsahibəsində jurnalist ondan "Azərbaycanda hər yerdə Azərbaycan, Türkiyə və Pakistan bayraqları dalğalanması, Azərbaycanın Qələbə qazanması, dost ölkənin çətin mübarizə nəticəsində öz torpaqlarını erməni işğalından azad etməsi" məsələsinə münasibət bildirməsini istəyib.




AZƏRTAC xəbər verir ki, Baş nazir İmran Xan jurnalistə cavabında bildirib: "Azərbaycan Silahlı Qüvvələri nümunəvi şücaət göstərib. Qarabağ mübahisəli ərazi deyil. Bütün dünya Qarabağın Azərbaycana məxsus olduğunu qəbul edir və onu bu ölkənin ərazisi kimi tanıyır. Azərbaycanlılar öz əzəli torpaqlarını geri qaytardılar".

❖ ❖ ❖

İtaliya Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı hər zaman Birləşmiş Millətlər Təşkilatının mövqeyini, yəni işğal altındakı ərazilərin Azərbaycana qaytarılmalı olduğunu dəstəkləyib. İtaliya həmişə ən müdrik, ən məntiqli və ən geniş yayılmış mövqeyi, yəni BMT-nin mövqeyini dəstəkləyib. Həmin ərazilərin 1990-cı illərdə Ermənistan tərəfindən işğal edildiyini və Azərbaycana qaytarılmalı olduğunu bildirən bir çox qətnamələr var.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, bu sözləri İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Manlio Di Stefano "Agenzia Nova" Xəbər Agentliyinə müsahibəsində söyləyib.

Azərbaycanın Qarabağ bölgəsindəki erməni icmasına münasibət bildirən M.Di Stefano deyib: "Biz insan haqlarının qorunması, xristian icmalarının mühafizəsi baxımından həmin ərazidəki ermənilərin bütün hüquqlarına hörmət edilməsinin tərəfdarıyıq və mən bu xüsusda çox rahatam, çünki Azərbaycan çoxkonfessiyalı ölkədir. Bu barədə bizi dəfələrlə əmin ediblər".

Münaqişənin nizamlanmasında Rusiyanın roluna münasibətdə İtaliya rəsmisi qeyd edib ki, Rusiya Qarabağda böyük bir realpolitik nümayiş etdirdi. Çünki Ermənistanın həmişə bir növ Rusiyanın protektoratı olduğu doğrudur, lakin Rusiyanın Türkiyə ilə və bölgədəki enerji ilə əlaqəli iqtisadi münasibətlərinin olduğunu nəzərə alaraq, Azərbaycanın özü ilə də böyük bağlarının olduğu da həqiqətdir".

M.Di Stefano əlavə edib ki, son imzalanan sənəddən başa düşüldüyü kimi, regionun ətrafındakı işğal olunmuş ərazilərin və şimal hissəsində erməni icmasının qalmasına zəmanət verilməsi ilə Dağlıq Qarabağın qaytarılması xarici siyasətdə yeni geosiyasi vəziyyətin formalaşmasına dəlalət edir.

"Türkiyə bu baxımdan getdikcə daha çox əhəmiyyət kəsb edən bir aktordur və ikinci NATO ordusundan bəhs etdiyimizə görə özümüzdən Qərbin və NATO-nun hansı mövqedə dayandığını soruşmalıyıq. İnanıram ki, Türkiyə ilə bağlı bunu asanlıqla əsaslandıra bilərik, amma bir sualla qarşılaşırıq: bu gün NATO-nun tərkibi necədir və NATO siyasətini necə ümumi hala gətiririk? Bu, cavabı asan olmayan vacib sualdır", - deyə Di Stefano fikirlərini tamamlayıb.

❖ ❖ ❖




"Sona qədər Azərbaycanın yanında olacağımızı bir daha açıq şəkildə söyləmək istəyirəm. Diləyimiz Qarabağın işğalçılardan tamamilə təmizlənməsi, təcavüzkar Ermənistanın Vətən torpağımızın hər qarışından çıxmasıdır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Bahçeli qurumun Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında ifadə edib.

Noyabrın 10-da imzalanan atəşkəs bəyanatı, sonrakı proseslərlə bağlı fikir və mülahizələrini bölüşən MHP sədri Dövlət Bahçeli deyib: "Azərbaycan uğurlu əks-hücum əməliyyatları nəticəsində siyasi müstəvidə üstünlük və uğur qazandı, qlobal və regional prosesləri müdrikcəsinə dəyərləndirdi, Ordusunun taktiki üstünlüyü sayəsində beynəlxalq aləmdə rəğbət qazandı. Bu mübarizədə əl-ələ verən Türkiyə və Azərbaycan iki dövlət, tək ürək olaraq zülmü devirdilər".

Ötən 28 ildə Qarabağ münaqişəsinin həlli istiqamətində irəliləyişin olmadığını xatırladan partiya sədri cəbhədə qazanılan Qələbəni zəfər hekayəsi kimi dəyərləndirib, partiyasının Türkiyə parlamentində Azərbaycana əsgər göndərilməsi barədə qərar layihəsinə tam dəstək verəcəklərini vurğulayıb.

❖ ❖ ❖



Dağlıq Qarabağda atəşkəs haqqında 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin tərəfindən imzalanmış Bəyanat Ermənistan-Azərbaycan münaqişəsinə son qoyub.

Bu il oktyabr ayında Azərbaycanın ikinci böyük şəhəri Gəncə Ermənistan tərəfindən "SCUD" ballistik raketləri ilə atəşə tutulub. Nəticədə Azərbaycanın azı 13 nəfər mülki vətəndaşı, o cümlədən 2 uşaq öldürülüb, 40-dan çox adam yaralanıb. Beləliklə, Gəncə Azərbaycanın Sderotuna çevrilib, çünki Ermənistan silahlı qüvvələri Gəncənin dinc sakinlərini və şəhərdəki digər qeyri-hərbi hədəfləri daim atəşə tutub.

AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin icraçı direktoru Arye Qut bu barədə İsrailin populyar "Arutz Sheva" xəbər portalında dərc edilmiş "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ amanabənd sülhü davamlı olacaqmı?" sərlövhəli məqaləsində yazır.

Məqalə müəllifi qeyd edir ki, ermənilərin raket hücumları nəticəsində binalar tamamilə dağıdılıb. Arye Qut vurğulayır: "Uşaqlar yetim qalıb, yaralıların çoxu ömürlük şikəst olub. Üstəlik, Sderot kimi Gəncə şəhəri də cəbhə xəttindən uzaqda yerləşir. Lakin təəssüf ki, bütün dünyada KİV-in çoxu Ermənistanı deyil, Azərbaycanı təcavüzkar elan edir, hərçənd 30 ildən artıqdır ki, məhz Azərbaycan erməni təcavüzünün qurbanıdır. Əslində, Azərbaycan Ermənistanın təcavüzünə reaksiya verməyə məcbur idi, lakin Azərbaycan Ermənistan ərazisinə hücum etmədi. O, yalnız beynəlxalq hüquqa əsasən ona məxsus olan ərazisinin bütövlüyünü bərpa etməyə çalışırdı. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinə əsasən, Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisidir". İsrailli analitik vurğulayır ki, 1990-cı illərin əvvəlində Ermənistan üçüncü dövlətin hərbi-siyasi və maliyyə dəstəyinə güvənərək, Azərbaycanın Dağlıq Qarabağ regionunu işğal edib, bu ərazidə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə aparıb.

Arye Qut yazır: "Ermənistanın bu təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ona bitişik 7 rayon, yəni Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilib, 1 milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

1992-ci il dəhşətli fevral gecəsində Xocalıda baş vermiş hadisələr sənədli videomateriallarla, canlı şahidlərin, həmin vaxt Azərbaycanın Xocalı şəhərində olmuş xarici jurnalist və ekspertlərin ifadələri ilə təsdiqlənən real hadisələrdir.

Bu amansız etnik təmizləmə aktında Ermənistan silahlı qüvvələri tərəfindən bir gecədə aralarında 63 uşaq, 106 qadın və 70 ahıl şəxsin olduğu 613 nəfər qətlə yetirilib, bundan əlavə, 487 nəfər şikəst edilib, 1275 əsir götürülüb, aralarında 68 qadın və 26 uşağın olduğu 152 nəfər isə itkin düşüb. 8 ailə bütövlükdə məhv edilib, 25 uşaq hər iki valideynini itirib, yüzlərlə şəxs zorakılığa və işgəncəyə məruz qalıb. Bu insanların belə qəddarlığa məruz qalmasının yeganə "səbəbi" onların azərbaycanlı olması idi.

Mən soruşuram: Bu erməni faşistlər 1940-cı illərdə mənim xalqımın 6 milyon nümayəndəsini məhv etmiş alman faşistlərindən nə ilə fərqlənir? Onlar İŞİD yaraqlılarından nə ilə fərqlənir? Cavab aşkardır - heç nə ilə.

Bosniya və Herseqovina, Honduras, Kolumbiya, Çexiya, Qvatemala, İordaniya, Meksika, Panama, Peru, Pakistan, Rumıniya, Serbiya və Sudan hökumətləri Xocalıda törədilmiş soyqırımına görə Ermənistanı rəsmən pisləyib və bu soyqırımına ədalətli münasibət göstərilməsini tələb ediblər. ABŞ-ın 20-dən çox ştatı da Xocalı soyqırımını pisləyən qətnamələr qəbul ediblər".

İsrailli ekspert öz məqaləsində Azərbaycanın hərbi qələbəsi, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi barədə yazır. O, Azərbaycanın qədim Şuşa şəhərinin azad edilməsi barədə söhbət açaraq yazır: "1991-ci ildə Birinci Qarabağ müharibəsi dövründə Şuşadakı bina və tikililərin çoxu dağıdılıb. Azərbaycanın işğal edilmiş torpaqlarında mədəni və dini irsin məhv edilməsi, talan olunması, murdarlanması məqsədilə Ermənistanın qərəzli siyasəti çərçivəsində təkcə Şuşada 170-dən çox memarlıq abidəsi, 160 mədəni və tarixi abidə, məscidlər və nadir əlyazmalar ermənilərə xas olan vandalizm nəticəsində məhv edilib. Azərbaycanın bu incisi 28 ildən artıq müddətdə erməni işğalçıların əlində olub.

Azərbaycanlılar həmişə fəxr edirlər ki, bu xalqın incəsənətinin, mədəniyyətinin və musiqisinin Üzeyir Hacıbəyli və Rəşid Behbudov, Natəvan və Xan Şuşinski kimi ən parlaq nümayəndələri bu şəhərdə doğulublar. Ona görə də Şuşa azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir".

Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut İsrailin populyar "Arutz Sheva" xəbər portalında dərc edilmiş məqaləsinin sonunda yazır: "Mən bilirəm ki, bütün bu illər ərzində Şuşa Azərbaycanın parlaq tarixini, onun mərd oğul və qızlarının Vətən yolunda canlarından keçməsini xatırlayaraq ağlayıb. Lakin biz ağlamırıq, çünki Azərbaycan xalqının zəif olmağa haqqı yoxdur. Öz əsgər və zabitlərinin mərdliyi sayəsində Azərbaycan yaxın günlərdə bu gözəl tarixi şəhərə qayıtdı və onu erməni işğalından azad etdi. Azərbaycan Şuşanın itirilməsi ilə heç vaxt razılaşa bilməzdi. Azərbaycanlılar onlar üçün müqəddəs sayılan Şuşaya qayıtmalı idilər və qayıtdılar!"

❖ ❖ ❖



"Zəbt olunan şəhərlər azad edilməli idi və Azərbaycan xalqı torpaqlarını işğaldan azad etdi. Bu münasibətlə Azərbaycan xalqını təbrik edirik".

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Ali Rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti beynəlxalq videoseminarda səsləndirib.

O, qeyd edib ki, İran ilə Azərbaycan ortaq tarixə, mədəniyyətə və dinə malikdirlər. Bu səbəbdən regionda qan tökülməsini İran istəmir. Rəsmi Tehran bundan sonra ədalətli bir sülhün yaradılacağına ümid edir.

Ə.Ə.Vilayəti nəzərə çatdırıb ki, radikal dini qruplaşmaların Azərbaycan tərəfində döyüşmələri haqqında gəzən söz-söhbətlərin heç bir əsası yoxdur. Çünki Azərbaycanın kifayət qədər hərbi və iqtisadi gücü var.

Ali Rəhbərin müşaviri onu da qeyd edib ki, İran region dövlətlərinin sərhədlərinin dəyişdirilməsinin əleyhinədir.

❖ ❖ ❖

Hazırda bütün dünyanı maraqlandıran mühüm bir sual var: Azərbaycan 28 il sonra bu şanlı Qələbəni necə qazandı? Bu zəfərin dörd mühüm səbəbi var. İlk növbədə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev fəaliyyətini Ümummilli Lider Heydər Əliyevin vəsiyyətlərinə uyğun qurmaqla böyük uğurlar qazana bilmişdir.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan türkiyəli general Yücel Karauz bildirib.

Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasını, üçrəngli bayrağa tükənməz məhəbbəti, torpağa və Vətənə bağlılığı birlik və həmrəyliyin təzahürü kimi dəyərləndirən general Yücel Karauz deyib: "Üçrəngli bayrağı, Vətəni və torpağı, milli-mənəvi dəyərləri üçün şəhidlik zirvəsinə ucalmağa hazır olan övladlara sahib ölkə basılmazdır. Əminliklə deyə bilərəm ki, 8, 9 və 10 noyabr tarixləri Azərbaycanda ən əziz günlər kimi bayram əhvali-ruhiyyəsi ilə qeyd olunacaq".

❖ ❖ ❖

"Azərbaycan torpaqlarını işğaldan azad etməklə BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal altındakı ərazilərdən çıxarılmasına dair məlum qətnamələrini öz gücünə yerinə yetirdi. XXI əsrdə hər hansı bir ölkənin qonşu dövlətin ərazilərini işğal altında saxlaması yolverilməzdir".

Bu fikirləri AZƏRTAC-ın xüsusi müxbirinə açıqlamasında Misirin tanınmış politoloqu, Misir Xarici Əlaqələr Şurasının üzvü, Qahirə Universitetinin Rusiya Araşdırmalar Mərkəzinin direktoru, professor Nurhan əl-Şeyx söyləyib.



Professor bildirib ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin müharibənin dayandırılması və işğalçı qoşunların ərazilərdən çıxarılması haqqında bəyanatı Cənubi Qafqaz regionunda sülhün və sabitliyin bərqərar olması baxımından mühüm addımdır. "Düşünürəm ki, bu şərtlər daha əvvəl, danışıqlar yolu ilə yerinə yetirilməli idi. Çünki ədalətli olsa belə, müharibə münaqişə tərəfləri üçün arzuolunmazdır. Lakin ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə 27 ildən çox davam edən danışıqlar prosesinin nəticə vermədiyi də faktdır. Ermənistanın Azərbaycan torpaqlarından çıxması və davamlı sülhün təmin edilməsi regionda tərəqqinin də sürətlənməsinə töhfə olacaq", - deyə politoloq vurğulayıb.

Nurhan Əl-Şeyx qeyd edib ki, hələ sentyabrda Ermənistanın Qarabağda demoqrafik şəraiti dəyişməsi, Yaxın Şərq ölkələrindən erməniləri bu ərazidə qanunsuz yerləşdirməsi dünya ictimaiyyətinin etirazına səbəb olmuşdu. "Məhz beynəlxalq hüquqa zidd olan bu cür hərəkətlər danışıqlar prosesinə zərbə vurdu və insan tələfatı, dağıntılarla nəticələnən müharibə başladı. Ümidvaram ki, gələcəkdə bütün münaqişələr diplomatik yollarla həllini tapacaq. Bundan sonra Azərbaycan öz ərazilərində quruculuq işləri aparacaq. Xalqınıza sülh və tərəqqi arzulayıram", -deyə misirli politoloq sözlərinə yekun vurub.

❖ ❖ ❖

"Masimovasif.net" bloqunda Potsdam Universitetinin müəllimi, professor Vinfrid Furman ilə müsahibə dərc olunub.

Furman müsahibəsində bildirir ki, Şuşanın azad edilməsindən 24 saat keçməmiş Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında bəyanat imzalandı. Müsahibədə bəyanat ətraflı təhlil olunur. Vurğulanır ki, Türkiyənin bu prosesdə iştirakı onun nüfuzunun daha da artmasına gətirəcək.




Qeyd olunur ki, Azərbaycan 27 il ərzində qanunun aliliyinə, beynəlxalq hüquqa, BMT qətnamələrinin icrasına, eləcə də beynəlxalq birliyin dəstəyinə ümid edib və səbirlə gözləyib. Lakin 27 il ərzində aparılan danışıqlar ərzində əldə edə bilmədiyini 2 aydan az olan qısa bir müddətdə əldə etdi.

❖ ❖ ❖



"Azərbaycanın zəfəri mübarək olsun. Qarabağ zəfəri tarixdə yüzilliyin böyük hadisədir. Bu Qələbə Qafqaz regionuna yeni həyat gətirəcək".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyədə fəaliyyət göstərən Avrasiya Yazıçılar Birliyinin (AYB) sədri Yaqub Öməroğlu ifadə edib.

Qazanılan möhtəşəm Qələbə münasibətilə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev başda olmaqla, şanlı Ordumuzu və xalqımızı təbrik edən AYB-nin sədri deyib: "Bu zəfəri və Qələbənin yaratdığı sülhü məmnunluqla qarşılayırıq. Avrasiya Yazıçılar Birliyi olaraq hər an Azərbaycanın yanında olduq. "Qardaş qələmlər" jurnalımızın bir nömrəsini Qarabağın azadlığına həsr etdik. Azərbaycan əsgəri böyük qəhrəmanlıq göstərərək hərb dastanı yaradıb. Bu parlaq Qələbə barədə əsərlər yazmaqla Azərbaycana dəstəyimizi davam etdirəcəyik".

❖ ❖ ❖

Vyetnamın tanınmış diplomatı, uzun illər Yaxın Şərq ölkələrində səfir vəzifəsində çalışmış Nquyen Kuan Hay yerli mətbuatda məqalə ilə çıxış edərək, Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları bəyanatı Azərbaycanın qələbəsi kimi qiymətləndirib.

AZƏRTAC xəbər verir ki, təcrübəli diplomat Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlar nəticəsində Ermənistanın ağır vəziyyətə düşdüyünü, bu ölkənin ordusunun hərbi ruhunun sındığını və işğalçı dövlətin Azərbaycan şərtləri ilə razılaşaraq bəyanata imza atmağa razı olduğunu bildirib.

Məqalədə Vyetnam ictimaiyyətinə həmin bəyanat haqqında ətraflı məlumat verilib.




Münaqişənin tarixinə toxunan Nquyen Kuan Hay 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və digər 7 rayonunun işğal edildiyini bildirib. O, Azərbaycan Ordusunun böyük gücə malik olduğunu və qarşısında duran vəzifələrin öhdəsindən qısa müddətdə gəldiyini diqqətə çatdırıb.

❖ ❖ ❖



"Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməyə haqqı var idi və bunu etdi".

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Mədəniyyət və İslam Əlaqələri Təşkilatının sədri Əbuzər İbrahim Türkəman "Müasir dünyanın problemləri: nifrət, terror, islamofobiya və ekstremizm" adlı onlayn konfransda çıxışı zamanı deyib.

Diqqətə çatdırılıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi qan tökülmədən həll oluna bilərdi. Lakin dünyadakı ikili standartlar siyasəti buna imkan vermirdi. BMT-nin Azərbaycan ərazilərinin işğaldan azad edilməsi haqqında 4 qətnamə qəbul etməsinə baxmayaraq, buna məhəl qoyan olmadı.

Ə.İ.Türkəman qeyd edib ki, İran hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və suverenliyinə hörmətlə yanaşıb. Rəsmi Tehran sərhədlərin dəyişdirilməsinin əleyhinədir.

Mədəniyyət və İslam Əlaqələri Təşkilatının sədri Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçənlərə Allahdan rəhmət diləyib, sülhün və əmin-amanlığın tezliklə bərpa ediləcəyinə ümidvar olduğunu bildirib.

❖ ❖ ❖




"Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə bəyanata görə, bütün erməni silahlı qüvvələri Azərbaycan ərazilərini tərk etməlidir. Kəlbəcəri tərk edənlər isə orada qeyri-qanuni məskunlaşmış insanlardır. Bu gün Qarabağda beynəlxalq hüququn prinsip və normaları, eləcə də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələbləri tətbiq olunur".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev "France 24" televiziya kanalının müxbirinin Kəlbəcərdə qeyri-qanuni məskunlaşmış ermənilərin bu rayonu tərk etməsi ilə bağlı sualına cavabında səsləndirib.

Səfir bildirib ki, üç ölkə arasında imzalanan sənədin tətbiqi başlayıb. Kəlbəcər 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunub. Həmin vaxtdan torpaqlarımız işğal altında idi və orada insanlar qeyri-qanuni olaraq məskunlaşdırılıb.

Səfir üç ölkə arasında imzalanan sənədi obyektiv hesab etdiyini bildirərək, onun beynəlxalq hüququn prinsipləri, eləcə də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında hazırlandığını vurğulayıb. Təhlükəsizlik Şurasının 4 qətnaməsinin erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını tələb etdiyini diqqətə çatdırıb.

Vurğulanıb ki, adıçəkilən qətnamələr 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən qovulmuş 1 milyona yaxın azərbaycanlı məcburi köçkünün doğma yurduna qayıtmasını da tələb edir.

Azərbaycanın mövqeyini səsləndirən səfir diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti Qarabağın gələcəkdə daha da inkişaf edəcəyini vurğulayıb. Ancaq məcburi köçkünlər doğma evlərinə qayıtmalıdırlar.

R. Mustafayev diqqətə çatdırıb ki, Azərbaycan etnik mənşəyindən asılı olmayaraq, bütün vətəndaşlarının hüquqlarını bərabər şəkildə təmin edir.

❖ ❖ ❖

Kolumbiyanın "Caracol" televiziya kanalının "El mundo hoy" verilişində Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanmış bəyanata dair reportaj və səfir Məmməd Talıbovun məsələ ilə bağlı müsahibəsi yayımlanıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın Meksikadakı səfirliyindən məlumat verilib.




Müsahibədə səfir bəyanatın regionda davamlı sülhün bərqərar olmasına şərait yaratması baxımından önəmini bildirib.

Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalaraq öz doğma torpaqlarından qovulmuş və son 30 il ərzində məcburi köçkün vəziyyətində yaşayan bir milyona yaxın soydaşımızın öz yurdlarına qayıdacağını deyən səfir Qarabağdakı ermənilərin də Azərbaycanın qanunlarına hörmət etmək şərtilə burada yaşamaqda davam edə biləcəyini söyləyib.

Erməni xalqının bəyanatından narazı olması və bunu öz hökumətinin satqınlığı hesab etməsi ilə bağlı suala cavabında səfir yaranmış vəziyyətin birbaşa Ermənistan hökumətinin təqsiri olduğunu, BMT-nin qətnamələri işğal olunmuş ərazilərin boşaldılmasını aydın şəkildə tələb etdiyi halda, bu ölkənin siyasi rəhbərliyinin öz xalqını illərlə aldatdığını və onları sülhə hazırlamaq əvəzinə bu torpaqların işğalının nəticələrini qoruyub saxlayacağına inandırdığını qeyd edib.

Reportajda verilişin redaksiyası tərəfindən münaqişənin tarixi barədə məlumat verilib, hərbi əməliyyatların gedişi və hazırda ermənilərin işğal olunmuş ərazilərimizi tərk edərkən ətraf mühitə və infrastruktura zərər yetirdiyini əks etdirən kadrlar nümayiş etdirilib.

Müsahibədə Qarabağ və ətraf yeddi rayon daxil olmaqla ölkəmizin beynəlxalq miqyasda tanınmış ərazilərinin 30 ilə yaxın idi ki, Ermənistanın işğalı altında olduğunu deyən səfir Ermənistan işğalçı qüvvələrinin Azərbaycanın suveren ərazilərində mövcudluğu və BMT Təhlükəsizlik Şurasının bu ərazilərin azad olunmasını tələb edən müvafiq qətnamələrinə əməl edilməməsinin regionda davamlı sülhə başlıca təhdid olduğunun tərəfimizdən daim ifadə edildiyini bildirib. Səfir hərbi əməliyyatlar yolu ilə işğaldan azad edilmiş şəhərlərimizin Ermənistan tərəfindən tamamilə məhv edildiyinə şahid olduğumuzu, bu səbəbdən həmin ərazilərdə yenidənqurma işlərinin aparılmalı olduğunu qeyd edib.

XXI əsrdə hansısa dövlətin işğalçılıq siyasəti yürütməsi, digər suveren dövlətin ərazilərini hərbi işğalda saxlaması və 1 milyon insanı məcburi köçkünə çevirməsinin qəbuledilməz olduğunu söyləyən diplomat erməni xalqının bütün qonşuları ilə mehribanlıq və barış içində yaşamasının gərəkdiyini anlamalı olduğunu vurğulayıb.

Azərbaycan çoxmədəniyyətli ölkə olduğunu, burada 40-a yaxın müxtəlif etnik mənsubiyyətdən olan insanların, o cümlədən on minlərlə ermənin yaşadığını, bu xüsusda Roma papası Fransisk tərəfindən bütün dünyada tolerantlıq modeli adlandırıldığını deyən səfir əldə olunan razılaşmanın önəmli nəticələrindən birinin də bölgədə sülhün bərqərar edilməsi ilə hər iki xalqın barışıq halında birgə yaşamasına nail oluna biləcəyi və ümumilikdə, regionda dirçəliş dövrünün başlaması üçün imkan yaranması olduğunu söyləyib.

Sonda Kolumbiya ilə ikitərəfli əlaqələrin cari durumuna toxunan səfir Kolumbiya XİN-in hazırkı razılaşmanı rəsmi bəyanatla dəstəklədiyini, ümumilikdə, iki ölkə arasında müsbət siyasi dialoqun mövcud olduğunu, beynəlxalq təşkilatlar çərçivəsində, habelə müvafiq qanunverici orqanlar arasında davamlı əməkdaşlıq aparıldığını, kənd təsərrüfatı, turizm, mədəniyyət, təhsil sahələrində ortaq layihələr üzərində çalışıldığını, bu xüsusda bir neçə il ardarda Azərbaycan XİN-in əməkdaşları üçün ispan dili kurslarının kolumbiyalı professorlar tərəfindən həyata keçirildiyini qeyd edib.



# Arxa cəbhə



## Azərbaycan beynəlxalq sərgidə “Qarabağ Azərbaycandır!” şüarı ilə təmsil olunacaq

18-21 noyabr tarixlərində İstanbul şəhərində Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Birliyinin (MÜSİAD) təşkilatçılığı ilə keçiriləcək “MUSİAD Expo 2020” sərgisində Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin iqtisadi və investisiya potensialı nümayiş etdiriləcək.

Azərbaycan sərgidə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə “Qarabağ Azərbaycandır” (“Karabakh is Azerbaijan”) stendi ilə təmsil olunacaq. Stend Qarabağın incisi olan Şuşa şəhərində yerləşən Yuxarı Gövhər Ağa məscidinin formasında dizayn ediləcək.

Sərgidə iştirakda məqsəd Azərbaycanın işğaldan azad olunmuş rayonlarının zəngin sərvətləri, faydalı qazıntıları, turizm potensialı və mədəni irsi barədə Türkiyə və xarici investorları məlumatlandırmaq, bu ərazilərdə Azərbaycan dövləti tərəfindən həyata keçiriləcək geniş quruculuq və bərpa işlərinə, biznesin qurulmasına xarici investorları cəlb etməkdir.

“Karabakh is Azerbaijan” stendində işğaldan azad edilmiş rayonların mədəni irsini, iqtisadi və investisiya imkanlarını əks etdirən foto və videomateriallar sərgilənəcək, eləcə də ölkəmizin sənaye potensialına və rəqabətqabiliyyətli məhsullarına dair məlumatlar yerləşdiriləcək.




Qeyd edək ki, “MUSİAD Expo 2020” sərgisində dünyanın 80-dən çox ölkəsindən olan şirkətlərin məhsulları nümayiş etdiriləcək, sərgi çərçivəsində bir sıra tədbirlər, o cümlədən beynəlxalq biznes forum, iş adamları arasında ikitərəfli görüşlər və s. keçiriləcəkdir.

## Doğma Şuşaya kiçik biznes sahibləri kimi qayıdacaqlar

Onlar Azərbaycanın ayrılmaz parçası olan Qarabağın ürəyi Şuşanın sakinləridir. Müzəffər Azərbaycan Ordusunun Şuşanı Ermənistanın işğalından azad etməsi ilə onların yurd həsrətlərinə də son qoyuldu.

Şuşasız qaldıqları dövrdə dövlət onları həmişə öz qayğısı ilə əhatə etdi, daha bir qayğı kimi eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin özünüməşğulluq proqramına cəlb olundular. Proqramın dəstəyi ilə kiçik ailə təsərrüfat və müəssisələrini yaratdılar.

İndi isə doğma Şuşaya özünüməşğulluq proqramının dəstəyi sayəsində yaratdıqları kiçik ailə bizneslər ilə qayıtmağa hazırlaşırlar. Onların hər biri bizneslərini Şuşada daha da genişləndirəcəklər.

## 9 ayda Azərbaycandan 1,2 milyard dollarlıqdan çox qeyri-neft məhsulları ixrac edilib




Cari ilin yanvar-sentyabr aylarında Azərbaycan dünyanın 178 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 107 ölkəyə məhsul ixrac, 167 ölkədən idxal edilmişdir.

Dövlət Statistika Komitəsi məlumat vermişdir ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2020-ci ilin yanvar-sentyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 17830,3 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 10006,8 milyon dollarını və ya 56,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 7823,5 milyon dollarını (43,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 2183,3 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2019-cu ilin yanvar-sentyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 28,2 faiz, real ifadədə 22,0 faiz, o cümlədən idxal 38,7 faiz, ixrac isə 10,0 faiz azalmışdır.

Hesabat dövründə qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 9,2, real ifadədə isə 18,2 faiz azalaraq 1282,4 milyon dollar olmuşdur.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 29,5 faizini İtaliyaya, 19,9 faizini Türkiyəyə, 4,7 faizini Rusiyaya, 4,1 faizini Yunanıstana, 4,0 faizini Çinə, 3,9 faizini Hindistana, 3,6 faizini İsrailə, hər biri 3,5 faiz olmaqla Xorvatiya və Gürcüstana, 2,7 faizini Ukraynaya, 2,6 faizini İspaniyaya, 2,0 faizini Almaniyaya, 1,8 faizini Çexiyaya, hər biri 1,6 faiz olmaqla Tunis və İsveçrəyə, 11,0 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (37,9 faiz), Türkiyəyə (19,6 faiz), İsveçrəyə (12,9 faiz), Gürcüstana (7,8 faiz), Çinə (2,6 faiz), Ukraynaya (2,3 faiz), İtaliyaya (1,8 faiz), İrana (1,6 faiz), Qazaxıstana (1,5 faiz), Belarusa (1,0 faiz), ABŞ-a (0,9 faiz), Türkmənistana (0,9 faiz), Almaniyaya (0,9 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,4 faizi Rusiya, 14,4 faizi Türkiyə, 13,0 faizi Çin, 6,7 faizi ABŞ, 5,3 faizi Almaniya, 4,2 faizi Fransa, 4,0 faizi Ukrayna, 3,9 faizi İtaliya, 2,8 faizi Birləşmiş Krallıq, 2,7 faizi İran, 1,9 faizi Yaponiya, 1,7 faizi Koreya, 21,0 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

Doqquz ayda əvvəlki ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə tərəvəz ixracı 5,7 faiz, kartof - 31,8 faiz, meyvə və tərəvəz şirələri - 13,8 faiz, bitki yağları - 48,4 faiz, meyvə və tərəvəz konservləri - 6,2 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar - 19,0 faiz, pambıq lifi - 2,5 faiz, polietilen - 23,9 faiz, qara metallardan borular - 1,9 dəfə, bentonit gili - 1,3 faiz artmışdır.



## AÇG və “Şahdəniz”də karbohidrogenlərin hasilatı davam edir

### BP Azərbaycan şirkəti cari ilin üçüncü rübünün nəticələrini açıqlayıb

BP Azərbaycan şirkəti cari ilin üçüncü rübünün nəticələrini açıqlayıb. Hesabatda BP-nin ölkəmizdə operatorluq etdiyi layihələrə və həyata keçirdiyi sosial proqramlara aid geniş məlumat verilib.

Məlumatda bildirilir ki, ilin əvvəlindən “Azəri-Çıraq-Günəşli “(AÇG) yataqlarından hasilat təhlükəsiz və etibarlı şəkildə davam etmişdir. AÇG-dən ümumi hasilat gündə orta hesabla 482 min barel və ya ümumilikdə təxminən 132 milyon barel, yəni 17,9 milyon ton olmuşdur. “Çıraq”dan gündəlik orta hasilat 36 min, “Mərkəzi Azəri”dən 115 min, “Qərbi Azəri”dən 118 min, “Şərqi Azəri”dən 64 min, “Dərinsulu Günəşli”dən 97 min və “Qərbi Çıraq”dan 52 min barel təşkil etmişdir.

Üçüncü rübün sonunda AÇG-də ümumilikdə 124 neft hasilatı, 39 su injektor, 7 qaz injektor quyusu istismarda olmuşdur. Üç rüb ərzində burada 10 neft hasilat və 2 suvurma quyusu qazılmışdır.

“Azəri Mərkəzi Şərqi” (ACE) layihəsi çərçivəsində platformanın üst modullarının və qazma modulunun inşası Bibiheybətdəki tikinti-quraşdırma sahəsində davam etmişdir. Son əməliyyatlara, COVID-19-un yaratdığı çətinliklərə baxmayaraq, iri qurğuların qaldırılması proqramının başlanması, qazma qurğusunun sahəyə gətirilməsi, onun hər üç hissəsinin barjadan boşaldılması və sahənin tikinti hissəsinə yerləşdirilməsi daxildir. Hazırda qazma modulunun inşası davam edir.

Heydər Əliyev adına Dərin Özüllər Zavodunda dayaq blokunun payalarının inşası başa çatdırılmışdır. Bu qurğular uğurla Xəzərə yola salınmış və platformanın dayaq blokunu qəbul etmək üçün dəniz dibində quraşdırılmışdır. Dayaq blokunun və sualtı qurğuların inşası qrafikə görə irəliləyir.

2023-cü ildə ACE layihəsindən ilk hasilatı əldə etmək üçün həyata keçirilən mühəndis və tədarük işləri qrafikə uyğun aparılır, təchizatçılar tərəfindən göndərilən iri avadanlıq Azərbaycana doğru hərəkət etməkdədir.

9 ay ərzində AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin “Neft Daşları”ndakı qurğu vasitəsilə gündə orta hesabla 6 milyon kubmetr, ümumilikdə isə 1,6 milyard kubmetr səmt qazı verilmişdir. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulmuşdur.

AÇG və “Şahdəniz” yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam edir. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və kondensat, “Şahdəniz” qazı üçün təqribən 85 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 105 milyon standart kubmetrdir.

2020-ci ilin ilk üç rübü ərzində terminal təqribən 183 milyon barel neft və kondensat, o cümlədən 160 milyon barel Bakı-Tbilisi-Ceyhan (BTC) vasitəsilə və 23 milyon barel Qərb İxrac Boru Kəməri marşrutu vasitəsilə ixrac etmişdir.

Qaz terminaldan əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK), Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi sistemi və terminalın qaz emalı obyektlərini “Azəriqaz”ın qazpaylama sistemi ilə birləşdirən SOCAR-a məxsus qaz kəməri ilə ixrac olunur.

İlk üç rüb ərzində terminaldan həmçinin gündəlik orta hesabla təxminən 48 milyon standart kubmetr (1 milyard 691 milyon standart kubfutdan artıq) “Şahdəniz” qazı ixrac edilmişdir.

BTC boru kəməri 2006-cı ilin iyun ayında istismara veriləndən 2020-ci ilin üçüncü rübünün sonunadək ümumilikdə 469 milyon tondan artıq (3,52 milyard barel) xam neft nəql etmişdir. Bu neft həcmi Ceyhanda 4595 tankerə yüklənərək dünya bazarlarına göndərilmişdir.

Bu ilin üç rübü ərzində isə BTC vasitəsilə təqribən 21,4 milyon ton (162 milyon bareldən artıq) xam neft və kondensat ixrac olunmuş və Ceyhanda 214 tankerə yüklənmişdir.

Hazırda BTC əsasən Azərbaycandan AÇG nefti və “Şahdəniz” kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə digər xam neft və kondensat həcmləri də, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur.

Rüb ərzində “Şahdəniz” yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə qaz çatdırılması davam etmişdir.

İlin ilk doqquz ayında yataqdan ümumilikdə - “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” platformalarından birlikdə təqribən 13,3 milyard standart kubmetr qaz və 2,7 milyon ton (21,6 milyon barel) kondensat hasil olunmuşdur.

Mövcud “Şahdəniz” qurğularının hasilat gücü hazırda gündə 56 milyon (ildə 20 milyarddan artıq) standart kubmetrdir.

İlin əvvəlindən geoloji kəşfiyyat işləri də davam edir. “Şəfəq-Asiman” blokunda yanvarın 13-də ilk kəşfiyyat quyusunun qazılmasına başlanmışdır. Quyunun qazma işləri artıq 3864 metr dərinliyə çatmışdır və hazırda qazma əməliyyatları davam edir. D230 blokunda 2019-cu ilin dekabr ayında başlanmış üçölçülü seysmik tədqiqat proqramı mart ayının 14-də başa çatmışdır. Abşeron yarımadasının dayazsulu hissəsi üzrə hasilatın pay bölgüsü sazişi ərazisində seçilmiş yerlərdə isə ilk kəşfiyyat quyusunun qazılması işlərinin planlaşdırılması davam edir.

Bu il BP və onun əməliyyatçı olduğu layihələrdəki tərəfdaşları birlikdə Azərbaycandakı sosial investisiya layihələrinə 2,6 milyon dollar xərcləmişlər.

*“Azərbaycan”*

## Dövlət büdcəsinin gəlirləri 20,2 milyard, xərcləri 20,7 milyard manat olmuşdur

Dövlət Statistika Komitəsi Maliyyə Nazirliyinin gəlirləri və xərcləri barədə rəqəmləri açıqlayıb.

Bu barədə təqdim edilən operativ məlumatlara əsasən, cari ilin yanvar-oktyabr aylarında dövlət büdcəsinin gəlirləri 20 milyard 207,1 milyon, xərcləri isə 20 milyard 722,1 milyon manat olmuşdur. Bu isə hesabat dövründə büdcənin icrasında 515 milyon manatlıq və ya ümumi daxili məhsulun 0,9 faizi qədər kəsirin yaranması deməkdir.

## 10 ayda Azərbaycanla Belarusun ticarət dövriyyəsi 252 milyon dolları keçib

Yanvar-oktyabr aylarında Azərbaycan və Belarus arasında ticarət dövriyyəsi 252 milyon dollardan çox olub.

Bu barədə AZƏRTAC-a Belarus Dövlət Statistika Komitəsindən məlumat verilib. Hesabat dövründə Belarusdan Azərbaycana ixracın dəyəri 91,4 milyon dollar, ölkəmizdən Belarusa isə 161, milyon dollar təşkil edib.

Qeyd edək ki, 2019-cu ildə Azərbaycanla Belarus arasında idxal-ixrac əməliyyatlarının dəyəri 227 milyon dolları ötüb, bu da 2018-ci illə müqayisədə 23 milyon dollar çoxdur.

## Ölkədə 300 min tondan çox pambıq toplanıb




Azərbaycan fermerləri ötən illərdə olduğu kimi, bu il də pambıqçılıqda yüksək məhsuldarlıq göstəriciləri əldə ediblər. Keçən il sahələrdən 295 min ton pambıq yığılmışdısa, bu il fermerlər məntəqələrə 300 min tondan artıq pambıq təhvil veriblər. 2020-ci ildə pambıq üzrə orta məhsuldarlıq 30 sentneri keçib ki, bu da Azərbaycanın pambıqçılıq tarixində qeydə alınan ən yüksək göstəricilərdən biridir.

Hazırda sahələrdə pambıq yığımı davam edir, mövsümün yekununda həm məhsul həcmi, həm orta məhsuldarlıq göstəricilərinin daha da artacağı gözlənilir. Pambıq yığımının optimal müddətdə başa çatdırılması nəzərdə tutulur.

2020-ci ildə Azərbaycanın 21 rayonunda 100 min hektara yaxın sahədə pambıq əkilib. İndiyədək ən yüksək orta məhsuldarlıq Salyan (39,15 sent/ha), Neftçala (37,79 sent/ha), Yevlax (32,50 sent/ha), Beyləqan (32,33 sent/ha), Sabirabad (31 sent/ha), Saatlı (30,91 sent/ha), Ağcabədi (30,78 sent/ha) və Goranboy (30,68 sent/ha) rayonlarında qeydə alınıb.

2020-ci ildə ən çox pambıq əkini Saatlı (14141 ha), Ağcabədi (10689 ha), Bərdə (10646 ha), Biləsuvar (10061 ha), Sabirabad (9683,5 ha) və Beyləqan (8743 ha) rayonlarında aparılıb.

Qeyd edək ki, Azərbaycanda pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Yeni subsidiya mexanizminə əsasən, pamblıqçı fermerlər təhvil verdikləri məhsula görə dövlətdən həm əkin, həm məhsul subsidiyası alırlar. Pambıq sahəsinin hər hektarına görə, fermerə 220 manat subsidiya verilir, eyni zamanda fermerlər qəbul məntəqələrinə təhvil verdikləri pambığın hər tonuna görə 100 manat subsidiya alırlar. Yetişdirilən məhsul fermerdən keyfiyyətindən asılı olaraq hər tonu 550-650 manat olmaqla satın alınır. Həyata keçirilən dövlət dəstəyi mexanizmləri nəticəsində pambıqçılıq kənd təsərrüfatının ən əməktutumlu və ən çox gəlir gətirən sahəsinə çevrilib.

## TAP kommersiya əməliyyatlarına başlayıb

### Kəmərin Yunanıstan, Albaniya və İtaliyadakı çıxışları Azərbaycan qazının geniş Avropa bazarlarına nəqli üçün də imkanlar açır




Yunanıstan və Albaniyanın ərazisindən, Adriatik dənizinin altından keçib İtaliya torpağına çatan və burada 8 kilometr məsafə qət edib həmin ölkənin “ Snam Pete Gas” qazötürmə sisteminə qoşulan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) kommersiya əməliyyatlarına başlayıb. Peşəkarlardan ibarət çoxmilli sənaye komandası “Cənub qaz dəhlizi”nin bu hissəsini vaxtında və etibarlı şəkildə sona çatdırıb.

TAP “Cənub qaz dəhlizi”nin Avropa qoludur. Onun tikintisinə Yunanıstanın Saloniki şəhərində dörd il yarım əvvəl başlanmışdı. Bu, Azərbaycandan Avropa bazarlarına 10 milyard kubmetr yeni qaz tədarükünü həyata keçirəcək qovşaq layihəsidir. Kəmərin potensialı onun ötürücülük gücünü iki dəfə artıraraq ildə 20 milyard kubmetrə çatdırmağa imkan verir.

TAP-ın idarəedici direktoru Luca Schieppati demişdir ki, yeni nəqliyyat sistemi operatoru kimi, ən yaxşı sənaye praktikası və standartlarına uyğun işlənmiş və inşa edilmiş TAP iki cəhətdən diversifikasiya üçün imkan yaradır. Kəmər yeni və davamlı enerji marşrutu, eyni zamanda gələn onilliklərdə Avropanın milyonlarla istehlakçısına qaz çatdıracaq etibarlı mənbədir.

TAP Direktorlar Şurasının sədri Murad Heydərov da bildirmişdir ki, 3500 kilometrlik “Cənub qaz dəhlizi”nin əsas komponentlərindən olan TAP özündə strateji və bazar rəqabəti xüsusiyyətlərini birləşdirir: “Avropa İttifaqının inteqrasiya edilmiş enerji bazarına və davamlı, etibarlı və çoxşaxəli enerji istehlakı strukturuna nail olmaq kimi əsas hədəfləri dəstəkləyən, təmiz enerji nəqli istiqamətində davam edən axınlara töhfə verən layihə Avropanı daha bir tədarük mənbəyi ilə təmin edir”.

BP Azərbaycan şirkətinin yaydığı məlumatda isə deyilir: “İndi “Cənub qaz dəhlizi”nin son hissəsinin də başa çatması ilə bu nəhəng ixrac sistemi tam inteqrasiya olunub və Avropaya qaz təchizatına hazırdır. Bu da bizə imkan verir ki, Azərbaycandan Avropaya ilk qazın verilməsinə bu ilin sonunadək başlayaq və, beləliklə də, layihə başlayandan bəri vəd olunmuş əsas məqsədə nail olaq. TAP konsorsiumunu bu mühüm uğur münasibətilə təbrik edirik. SOCAR-la və bir çox ölkələri təmsil edən bir sıra digər tərəfdaşlarla yaxından işləyərək bu yüksək keyfiyyətli və böyük dəyişikliklər gətirəcək layihələri tam təhlükəsiz və uğurla həyata keçirməkdən qürur duyuruq”.

Kəmərin səhmdarları BP (20 faiz), SOCAR (20 faiz), “Snam” (20 faiz), “Fluxys” (19 faiz), “Enagas” (16 faiz) və “Axpo” (5 faiz) şirkətləridir. Səhmdarlar layihənin inkişafı və tikintisi haqqında qərarı 2013-cü ilin sonunda vermişlər.

TAP-ın uzunluğu 878 kilometrdir. Kəmər Yunanıstanda 550, Albaniyada 215 kilometr məsafə qət edir. Sonra Adriatik dənizinin dibi ilə 105 kilometr irəliləyərək İtaliyada sahilə çıxır. Buradakı marşrutu bir neçə kilometr uzanır.

Kəmərin çəkilişi 50 milyon insan-saatdan çox iş həcmini əhatə edib. Tikinti zamanı xoşagəlməz insidentlər baş verməyib və layihə dünya standartları səviyyəsində təhlükəsizlik qaydalarına uyğun yekunlaşıb.

3,9 milyard avro məbləğində maliyyələşdirilməsinin etibarlı təminatı, eləcə də torpaq icarədarlarının sosial və ekoloji tələblərinə riayət olunması layihənin mühüm nailiyyətlərindəndir. Marşrutu boyunca yerli icmalarla davamlı ünsiyyətdə olan TAP onlarla yaxşı münasibətlər qurmuş, geniş spektrdə sosial və ekoloji investisiyalar həyata keçirməklə insanların həyatında real dəyişikliklər etmişdir.

Xatırladaq ki, TAP Avropaya Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng “Şahdəniz” yatağından hasil olunan təbii qazı nəql edir. Kəmər Türkiyə-Yunanıstan sərhədində - Kipoi məntəqəsində Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə birləşir.

“Cənub qaz dəhlizi”nin əsas hissəsi kimi, TAP Avropa üçün strateji və iqtisadi əhəmiyyət daşıyır və yeni təbii qaz mənbəyinə etibarlı çıxışı təmin edir. Kəmər Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində, təchizatın diversifikasiyasında, həmçinin karbon emissiyasının azaldılmasında mühüm rol oynayır. Sistem keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir.

Beləliklə, TAP Cənub-Şərqi Avropa ölkələrini qazla təchiz edəcək. Kəmərin Yunanıstan, Albaniya və İtaliyadakı çıxışları Azərbaycan qazının geniş Avropa bazarlarına tədarükü üçün çoxsaylı imkanlar açır.

**Flora SADIQLI,**
*“Azərbaycan”*

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə *açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir*

**1. Noutbukların və veb-kameranın satın alınması;**
**2. Uzaqdan qoşulma üçün lisenziyanın satın alınması;**
**3. İnformasiya texnologiyaları sistemlərinin üzərində çalışan virtual platforma üçün vendor texniki dəstək xidmətinin 1 (bir) il müddətinə uzadılmasının satın alınması.**

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar Noutbukların və veb-kameranın satın alınması üçün 100 AZN, Uzaqdan qoşulma üçün lisenziyanın satın alınması üçün 50 AZN, İnformasiya texnologiyaları sistemlərinin üzərində çalışan virtual platforma üçün vendor texniki dəstək xidmətinin 1 (bir) il müddətinə uzadılmasının satın alınması üçün isə 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən "ASAN ödəniş" sisteminə keçid edərək ARDNF-nin qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T bik: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) **09 dekabr 2020-ci il saat 10:00-a,** tender təkliflərini (təklifin təminatı ilə birlikdə) **17 dekabr 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər **18 dekabr 2020-ci il saat 10:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tender elan edir*

**LOT 1 - 502,371,421 indeksli EATS-lərin binalarında aparılacaq təmir işlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1. 200 (iki yüz) manat (ƏDV daxil)**
iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin Əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **09 dekabr 2020-ci il saat 16:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **17 dekabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **18 dekabr 2020-ci il 16:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada* ***etender@gov.az*** *dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən qaz məşəllərinin (odluqların) satın alınması məqsədilə 04.11.2020-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən ZAMİN XXI ƏSR MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Sosial sahədə daha 47 e-xidmət yaratmaq nəzərdə tutulur

**Elektronlaşdırma proqramını genişləndirən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daha 47 elektron xidməti yaratmağı və prosesi gələn ilin sonunadək başa çatdırmağı nəzərdə tutur.**




Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin e-xidmətlərdən 25-inin proaktiv xidmət (müraciət olunmasına və sənəd təqdim edilməsinə ehtiyac olmadan vətəndaşa yaranmış hüquqları əsasında sosial təminat, əlillik üzrə təyinatların və sosial sığorta üzrə xidmətin avtomatik həyata keçirilməsi) olması nəzərdə tutulur.

47 e-xidmətdən 7-nin ilin sonuna kimi, qalanlarının gələn il işə salınması planlaşdırılır.

Hazırda nazirlik üzrə 26-sı proaktiv olan 53 e-xidmət fəaliyyət göstərir. Yeni e-xidmətlərin yaradılması ilə onların sayı 100-ə çatacaq. Bu da nazirlik üzrə xidmətlərin (132 xidmət) elektronlaşma səviyyəsinin 76 faizə çatmasına imkan verəcək.

## AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu Təbii əsaslı dezodorantların istehsal texnologiyalarının sınaqları və mənimsənilməsinə dair elmi-tədqiqat araşdırmaları məqsədilə təcrübə və təcrübə-sınaq işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün institutun aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə **www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalı (Portal) vasitəsilə tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Bank rekvizitləri:**
**Az 1025, Bakı şəh., Xocalı pr. 30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **09 dekabr 2020-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını **17 dekabr 2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Zərflər **18 dekabr 2020-ci il saat 17:00-da** açılacaqdır.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə həyata keçirilməlidir.

***Tender komissiyası***

## AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu Akademik Y.Məmmədəliyev adına muzeyin lektoriyasının yaradılması və bədii tərtibatı işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün institutun aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə **www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalı (Portal) vasitəsilə tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Bank rekvizitləri:**
**Az 1025, Bakı şəh., Xocalı pr. 30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **09 dekabr 2020-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını **17 dekabr 2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Zərflər **18 dekabr 2020-ci il saat 17:00-da** açılacaqdır.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə həyata keçirilməlidir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 05 noyabr 2020-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portal vasitəsilə "Bakı Metropoliteni" QSC üçün müxtəlif ölçü və rəngdə kafel, metlax və keramoqranitin satın alınmasına dair açıq tender (Elektron) üsulu ilə keçirilmiş müsabiqədə **"Akabe" MMC** qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 127322,00 (yüz iyirmi yeddi min üç yüz iyirmi iki manat 00 qəpik) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 22.10.2020-ci il tarixli 218 (8534) və 28.10.2020-ci il tarixli 223 (8539) sayında dərc edilmiş təkliflər sorğularının nəticələri üzrə 18 noyabr 2020-ci il tarixdə "Evim Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1402660101) ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin tanınma nişanı, vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqləndirmə nişanlarının satın alınmasına dair 820 502,76 manat və "İdeal TM" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1404473051) ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən inzibati binasında cari təmir işlərinin yerinə yetirilməsinin satın alınmasına dair 112 971,62 manat məbləğində satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri Mədət Quliyev Azərbaycanın Milli Qəhrəmanı

**MƏHƏMMƏD HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanova anası

**İMMİ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Yusif İldırımzadəyə atası, Əməkdar jurnalist

**ƏLİ İLDIRIMOĞLUNUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mahmud Məmmədov ailəsi ilə birlikdə Yusif İldırımzadəyə atası

**ƏLİ İLDIRIMOĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7422
Sifariş 2644
Qiyməti 40 qəpik